RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 30 (9485) 11 FEVRAL 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Qalib xalq, güclü Lider

## Bu birlik Azərbaycanı daha işıqlı gələcəyə aparır

7 fevral prezident seçkisi ilə Azərbaycan xalqı milli vəhdətinin gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu seçki bir daha sübuta yetirdi ki, Azərbaycan xalqı dünyanın ən müdrik, uzaqgörən, mövcud reallıqları aydın qiymətləndirən, tarixin qazandırdığı təcrübələrdən dərs çıxarmağı bacaran, malik olduğu nailiyyətləri qoruyub daha da genişləndirən xalqlarındandır və belə bir toplumu addım-addım irəlilədiyi inkişaf yolundan kənarlaşdırmaq əsla mümkün deyil. 7 fevral seçkisinin nəticələri onu da bir daha sübuta yetirdi ki, hər addımında, hər qərarında xalqa arxalanan, vətəndaşların dəstəyindən güc alan Lider nə qədər böyük qüdrət sahibidir. Müxtəlif maraqlarla Azərbaycana təzyiq göstərmək istəyən, öz niyyətlərini gerçəkləşdirməyə çalışan xarici qüvvələr bu qüdrət qarşısında nə qədər aciz və miskindirlər.

Məhz xalqdan aldığı bu mütləq dəstəyə görə cənab İlham Əliyev zəmanəmizin ən parlaq liderlərindəndir. Məhz xalqın maraqlarını ifadə etdiyinə görə Azərbaycanın dövlət rəhbərinin bütün məsələlərlə bağlı konkret mövqeyi var və onu mövqeyindən döndərmək mümkün deyil. Bu, mövqe ilk növbədə Azərbaycan xalqının milli maraqlarıdır. Ölkəmizdə, regionda, ümumən dünyada sülh və inkişafın təmin olunması üçün formalaşan, şərait yarandıqca yubanmadan həyata keçirilən strateji baxış sistemidir. Qarşıya qoyulmuş böyük hədəflərdir.

→ 4

## Azərbaycan-Çin dostluq və əməkdaşlıq münasibətləri yüksələn xətlə inkişaf edir

### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr!

Sizi və Sizin simanızda dost Çin xalqını qarşıdan gələn Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ay təqvimi ilə Yeni ilin gəlişini tərənnüm edən və təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsi olan qədim Çuntsze bayramı özünün tükənməz yeniləşdirici ruhu ilə səmimiyyət, xeyirxahlıq, başqalarına qayğı kimi duyğuları gücləndirir. Zəngin milli-mənəvi ənənələri yaşadan xalqınıza bu bayramın xoşbəxtlik, firavanlıq və yeni-yeni uğurlar bəxş etməsini diləyirəm.

Fürsətdən istifadə edərək Azərbaycan-Çin dostluq və əməkdaşlıq münasibətlərinin yüksələn xətlə inkişafından məmnunluğumu, dövlətlərarası əlaqələrimizin bundan sonra da birgə səylərimizlə möhkəmlənəcəyinə və genişlənəcəyinə dair əminliyimi ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Çin xalqına daim rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2024-cü il*

## Azərbaycan yeni seçki mədəniyyətini nümayiş etdirdi

2024-cü il fevralın 7-də keçirilən seçkilər zamanın sifarişi idi. 30 ildən sonra ilk dəfə dövlət bayrağımızın dalğalandığı bütöv Azərbaycanda ədalətli, şəffaf seçkilər keçirildi. Seçkilərin beynəlxalq standartlara uyğun, demokratik keçirilməsi üçün dövlət hər cür imkan və şəraiti yaratdı. İşğaldan azad olunan ərazilərdə 26 seçki məntəqəsi yaradılaraq internetlə təmin edildi. Azərbaycanlılar müstəqillik tariximizdə ilk dəfə Xankəndidə, Şuşada və azadlığa qovuşmuş digər ərazilərimizdə konstitusiya hüquqlarından azad və sərbəst şəkildə istifadə etdilər.

→ 6

## Qafqazın ən qüdrətli Zəfər Ordusu

### İlham Əliyev dünyanın modern silahlı qüvvələrindən birini yaradır



Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində bu gün mühüm işlər görülür. Silahlı Qüvvələrimizin arsenalı Azərbaycanın müdafiə sənayesinin istehsal etdiyi hərbi texnika və silah-sursatlarla yanaşı, dost ölkələrdən, xüsusilə qardaş Türkiyənin hərbi sənayesinin məhsulları, o cümlədən də silahlı pilotsuz uçuş aparatları ilə daha da zənginləşdirilir.

Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlıq təkcə iki qardaş ölkənin hərbi potensialının artırılması baxımından deyil, həm də bölgədə sülh və təhlükəsizliyin təmini baxımından da mühüm əhəmiyyət kəsb edir. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi zəfər nəticəsində Cənubi Qafqazda yaranan yeni geopolitik güc balansını təhlil edərkən Türkiyə-Azərbaycan ordularının hərbi əməkdaşlığının necə böyük rola sahib olduğuna hər kəs şahidlik etdi.

→ 5

## Demokratik, şəffaf, azad...

### Beynəlxalq müşahidəçilər vətəndaşlarımızın seçkidə öz iradələrini sərbəst ifadə etdiklərini təsdiqlədilər

Beynəlxalq müşahidəçilər də Azərbaycanda seçkilərin yüksək tələblərə cavab verən səviyyədə keçirildiyini təsdiq etdilər. "Exit-poll"un nəticələri açıqlandıqdan sonra prezidentə ünvanlanan təbriklər də bunu bir daha sübut etdi. İlham Əliyevin prezident seçiləcəyi gözlənilən idi, çünki Azərbaycanda daxili ictimai rəy haqqında beynəlxalq səviyyədə aydın təsəvvürlər mövcud idi. Azərbaycan xalqı öz liderinə olduqca böyük dəyər verir, ona böyük etimad göstərir.

→ 6

## İlham Əliyevin böyük qələbəsi

### Dünya mediası Azərbaycanda keçirilən prezident seçkilərini belə dəyərləndirdi

Azərbaycanın son 20 ildə əldə etdiyi və dünya miqyasında təqdir olunan nailiyyətləri prezident seçkilərində xalqın seçiminin yenə İlham Əliyev olacağına dair əvvəldən verilən proqnozları özünü tam doğrultdu. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan sürətli inkişaf yolu keçib, beynəlxalq mövqeyini möhkəmləndirib, Cənubi Qafqazın lider ölkəsinə çevrilib. 2003-cü ildən etibarən Azərbaycana rəhbərlik edən İlham Əliyev sabitlik və dayanıqlı inkişafı təmin etməklə yanaşı, ölkəni beynəlxalq müstəvidə də söz və nüfuz sahibinə çevirə bilib.

→ 7

## Rəsmi Paris Ermənistanı məhvə aparır

Azərbaycanın Fransaya qarşı nə ədavəti, nə qərəzi, nə də düşmənçiliyi var. Faktdır ki, bu iki ölkənin arasında münasibətlərin gərginləşməsinin səbəbkarı rəsmi Parisdir. Rəsmi Parisin İkinci Qarabağ müharibəsi zamanı da, ondan əvvəl də, sonra da haqqı, ədaləti görməzlikdən gəlməsində, verdiyi qərarlarda qərəzli olmasında, heç şübhəsiz ki, həmin ölkənin siyasi dairələrində erməniпərəst mövqenin üstünlük təşkil etməsi başlıca rol oynayır. Ancaq bu yanlış siyasət nə Fransaya, nə də Ermənistana xeyir gətirir. Rəsmi Paris verdiyi qərar və qətnamələrlə yalnız özünü gözdən salır, Fransanı dünyada beynəlxalq qanunlara hörmət etməyən, demokratiyaya zərbə vuran ölkə kimi tanıdır.

→ 8

## İlham Əliyevin enerji strategiyasının daha bir reallığı - ACE layihəsi



"Əsrin müqaviləsi"nin yeni mərhələsi başlayır

→ 11

## Fransa düşdüyü bataqlıqdan çıxa bilmir

Fransa öz ərazisində yaşayan fərqli etnik və dini mənsubiyyətdən olan millətlərin hüquqlarına qarşı açıq şəkildə dözümsüz münasibət göstərdiyi halda, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazilərində məskunlaşmış erməni azlığın "hüquq və təhlükəsizliyi" məsələsi ilə bağlı narahatlıq keçirir. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün əleyhinə olan sərsəm-sərsəm bəyanatlar səsləndirir. Ölkəmiz üçün heç bir hüquqi qüvvəsi olmayan qətnamə və qərarlar qəbul edir. Belə yaramaz, ikiüzlü siyasət yürüdən Fransanın heç söz deməyə haqqı və hüququ yoxdur. Azərbaycana qarşı Fransa Senatında qəbul olunan qərarlar kağız parçasından başqa bir şey deyil. Fransanın Senatı da, hakimiyyəti də özlərindən min kilometrlərlə uzaqda olan ermənilərin taleyindən narahat olmaqdansa, daxili problemlərini həll etsələr daha yaxşı olardı.

→ 8

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti kimi şərəfli vəzifəyə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycanda keçirilən prezident seçkilərini müşahidə etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) nümayəndə heyətinə rəhbərlik etmək şərəfinə nail olmuşam. Seçkilər zamanı nümayiş olunan mütəşəkkillik, ədalət və inklüzivlik bizim komandamızda dərin xoş təəssürat yaratmışdır.

Son iyirmi il ərzində Azərbaycanın bənzəri olmayan yüksəlişinin təmin edilməsində Sizin uzaqgörən rəhbərliyiniz mühüm rol oynamışdır. Sizin iqtisadi inkişaf, infrastruktur və sosial təminat sahələrində nailiyyətləriniz Azərbaycanı dünya arenasında yüksəltməklə yanaşı, digər ölkələr üçün ilhamverici nümunə olmuşdur. Əminəm ki, yeni prezidentliyiniz dövründə Sizin rəhbərliyinizlə Azərbaycan xalqı və dövləti daha çox uğur əldə edəcəkdir.

Azərbaycan Respublikası Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə tərəfdaşı və "ŞƏT ailəsi"nin vacib üzvüdür. Bu xüsusda, ŞƏT-in fəaliyyətində Azərbaycan Respublikasının fəal iştirakına, həmçinin Sizin təşkilatımızın fəaliyyətinə göstərdiyiniz şəxsi dəstəyə görə minnətdarlığımı ifadə edirəm.

Zati-aliləri, Sizinlə və Azərbaycan hökuməti ilə sıx əməkdaşlığa hazır olduğumuzu bəyan edirəm. Qoy, Şanxay Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında möhkəm və sarsılmaz tərəfdaşlıq qarşılıqlı anlayışı, sülhü və rifahı təşviq edərək daha da möhkəmlənsin!

Bizim Azərbaycana səfərimiz zamanı ŞƏT nümayəndə heyətinə göstərilən diqqət və qonaqpərvərliyə görə təşəkkür edirik.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm. Əminəm ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə yeni zirvələrə çatacaq.

*Dərin hörmətlə,*

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə br şirkəti adından Sizə səmimi təbriklərimi çatdırıram. Azərbaycan xalqının rifahının yaxşılaşması istiqamətində bütün səylərinizdə Sizə uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək bizim Azərbaycandakı enerji layihələrinə br-nin davamlı sadiqliyini bir daha vurğulamaq istəyirəm.

br şirkəti olaraq biz Azərbaycan hökuməti və SOCAR ilə uzunmüddətli tərəfdaşlığın daha da möhkəmlənəcəyinə ümidvarıq.

Zati-aliləri, Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Tezliklə Sizinlə Bakıda görüşməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Mürrey AUKİNKLOS,***
***br şirkətinin baş icraçı direktoru***

Zati-aliləri, hörmətli Prezident.

Bütün futbol ictimaiyyəti adından yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm. Bu, ölkənizin Sizin liderliyinizə olan etimadının göstəricisidir.

Azərbaycanın sabitliyinə və iqtisadi inkişafına olan sadiqliyiniz, liderlik məharətiniz və şəxsi keyfiyyətləriniz son illərdə ölkənizi irəliyə doğru aparmaqda çox mühüm rol oynayıb. Şübhə etmirəm ki, yeni Prezidentlik dövrünüzdə Siz ölkənizin sabit inkişafına və tərəqqisinə mühüm töhfələr verməkdə davam edəcəksiniz.

Mən həmçinin ölkənizdə futbolun inkişaf etdirilməsi və onun dəyərlərinin təşviqi istiqamətindəki bütün səylərinizə görə Sizə və hökumətinizə təşəkkürümü bildirmək istəyirəm. Sizin səyləriniz mədəni və ictimai maneələrin aradan qaldırılmasında futbolun əhəmiyyətini, eləcə də onun bütün sərhədləri aşan və inklüzivliyi qəbul edən bir idman növü olduğunu nümayiş etdirir.

Sizə yeni mandatınız dövründə fəaliyyətinizdə uğurlar və tükənməz enerji arzu edirəm. Cənab Prezident, tezliklə yenidən görüşüb Sizi şəxsən təbrik etməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Canni İNFANTİNO,***
***Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan xalqının geniş dəstəyi respublikanın firavanlığı və inkişafı istiqamətində həyata keçirdiyiniz kursun uğurlu olduğunu sübut edir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına isə sülh, rifah və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

***Maqomedsalam MAQOMEDOV,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

Hörmətli İlham Heydər oğlu.

Çoxmillətli Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz xalqınızın həqiqi lideri, müdrik rəhbərsiniz. Müasir və dinamik inkişaf edən Azərbaycanın uğurları haqlı olaraq Sizin adınızla əlaqələndirilir.

Əminəm ki, Azərbaycan ilə Qaraçay-Çərkəz Respublikasının ikitərəfli əməkdaşlığı gələcəkdə də möhkəmlənəcək və respublikalarımızın sosial-iqtisadi inkişafına imkan yaradacaq, xalqlarımızın maraqlarına xidmət edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən Azərbaycan Respublikasının Prezidenti vəzifəsində yeni-yeni uğurlar, səadət, möhkəm cansağlığı, doğmalarınıza və yaxınlarınıza əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

Möhtərəm İlham Heydər oğlu.

Müdrik xalqınızın Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçəcəyinə şübhə yox idi. Siz titanik səyləriniz və müdrik dövlət xadiminə məxsus şəxsi keyfiyyətləriniz sayəsində Ulu Öndər Heydər Əliyevin bütün vəsiyyətlərini həyata keçirməyi bacardınız. Hesab edirəm ki, digər ölkələrin liderlərinin Sizdən örnək götürmələrinə dəyər.

Sizi təbrik edirəm və işlərinizdə uğurlar arzulayıram.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

***Xızrı ŞIXSƏİDOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikası Xalq Məclisinin sabiq sədri***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan vətəndaşları xalqın əsl lideri, ölkənin sabit inkişafını təmin etməyə, onun suverenliyini qoruyub saxlamağa, dünyanın geosiyasi arenasında respublikanın mövqelərini möhkəmləndirməyə qadir olan güclü müdrik siyasi xadim kimi növbəti dəfə Sizi dəstəklədilər.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda seçkilərin nəticələri milli lider kimi xalqın Sizə göstərdiyi çox böyük etimadın bariz sübutu və son iyirmi ildə Sizin rəhbərliyinizlə dövlətinizin bir çox sahələrdə və beynəlxalq miqyasda əldə etdiyi uğurların əyani təsdiqidir.

Rusiya həmkarlar ittifaqları Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizi və həmkarlar ittifaqı hərəkatına dəstəyinizi yüksək qiymətləndirir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və ali dövləti vəzifədə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirik.

*Hörmətlə,*

***Mixail ŞMAKOV,***
***Rusiyanın Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri***

Möhtərəm Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu (İƏTGF) adından Zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf hissi duyuruq.

Siz İƏT ölkələri gənclərinin inkişafına və onların birliyinin möhkəmlənməsinə davamlı şəkildə diqqət göstərirsiniz. Bunun bariz nümunələrindən biri 2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Təsis Baş Assambleyasının keçirilməsi, həmçinin İƏTGF-nin Avrasiya Regional Mərkəzinin ofisinin Bakıda yerləşməsidir.

Bu, regionumuzun liderləri üçün bir nümunədir və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun İƏT-in nəzdində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilat kimi institutlaşmasına və inkişafına təkan verir. İƏTGF olaraq biz Zati-alinizin etimadı, dəstəyi və liderliyindən qürur hissi duyuruq, fədakarlığınızı yüksək qiymətləndiririk.

Biz Şuşanın yekdilliklə İƏT-in 2024-cü il üzrə Gənclər Paytaxtı seçilməsinin tarixi əhəmiyyətini böyük məmnunluq hissi ilə qeyd edirik. Bu mühüm nailiyyət Zati-aliniz tərəfindən nümayiş etdirilən müdrik və nümunəvi rəhbərliyin daha bir təsdiqidir. Şuşanın Sizin rəhbərliyinizlə işğaldan azad edilməsi cəsarətin, fədakarlığın, həmçinin sülh, birlik və tərəqqi prinsiplərinə davamlı sədaqətin təntənəsinin rəmzidir. Sizin uzaqgörən siyasətiniz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı mürəkkəb məsələlərin həllində çox mühüm rol oynayıb. Qazanılmış nailiyyətlər Zati-alinizin müdrikliyinin və strateji baxışının göstəricisidir. Bütün bunlar regionda sabitliyin və rifahın möhkəmləndirilməsinə böyük töhfə verir.

Qarabağ bölgəsinin, xüsusən də Xankəndi şəhərinin əhalisinə 30 ildən artıq müddətdə ilk dəfə seçkilərdə iştirak etmək üçün fundamental hüquqlarından istifadə imkanını təmin etdiyiniz üçün Zati-alinizə səmimi təşəkkürümüzü bildiririk. Demokratik prinsiplərin dəstəklənməsi və vətəndaşların cəmiyyətin həyatında fəal iştirakının təşviqi ilə bağlı gördüyünüz işlər bütün dünyada gənclər üçün ilham mənbəyidir.

Gənclərimiz üçün daha parlaq və firavan gələcəyə doğru addım atarkən üzv dövlətlərimiz arasında əməkdaşlığı dərinləşdirmək və dostluq əlaqələrini möhkəmləndirmək əzmimizə sadiq qalırıq. Sizin liderliyiniz, gənclərin inkişafına, onların arzularının reallaşmasına dəstəyiniz dayanıqlı inkişaf üçün birgə səylərimizdə bizi daha da ruhlandırır.

İƏT həmrəyliyinin təşviqi və Azərbaycan xalqının inkişafı istiqamətində nəcib səylərinizdə Zati-alinizə uğurlar arzu edirik.

Sizə və doğmalarınıza möhkəm cansağlığı, firavanlıq diləyirik.

Möhtərəm Prezident, ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

***Taha AYHAN,***
***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti***

Möhtərəm cənab Prezident.

Prezident seçkilərində möhtəşəm qələbəniz münasibətilə Sizi təbrik edirəm. Sizə artıq türk dünyasının Milli Qəhrəmanı deyə müraciət edə bilərik. Bu qələbə xalqın Sizə olan böyük hörmətinin, ehtiramının və inamının göstəricisidir.

Siz son 20 illik fəaliyyətinizlə dövlətinizi dünyada böyük nüfuz və söz sahibinə çevirdiniz. Siz on milyonlarla azərbaycanlının 30 illik Qarabağ həsrətinə elə bir ustalıqla son qoydunuz ki, bütün dünya buna heyran oldu, dostlar sevindilər, düşmənlər isə hikkələrindən boğuldular. Siz Ali Baş Komandan kimi bu möhtəşəm hərbi Qələbənizlə dünyaya separatizmin kökünü kəsməyin ən bariz nümunəsini göstərdiniz. Bu qələbələrinizi həzm edə bilməyən bəzi mənfur qüvvələr anlamalıdırlar ki, Sizin arxanızda dünyada yaşayan 50 milyondan çox azərbaycanlı dayanır. Sizə yeni prezidentlik dönəmində Azərbaycan naminə görəcəyiniz işlərdə uğurlar arzulayıram.

Möhtərəm cənab Prezident, mən bir müddət Azərbaycanda yaşamışam və bu ölkə mənə ikinci vətəndir. Dayanıqlı inkişafa və suverenliyin möhkəmlənməsinə söykənən bu qələbəniz hər birimizin uğurudur. Sizi bir daha təbrik edirəm. Nailiyyətləriniz hər zaman bol olsun, cənab Prezident!

*Hörmətlə,*

***Aleksandr Şapiro-SULİMAN,***
***"İsrailin Dostları" Xaricdə Yaşayan Həmvətənlər Federasiyasının prezidenti, sülh səfiri, Dünya Xalqları Alyansının baş katibi, fəlsəfə və humanitar elmlər doktoru***

Hörmətli cənab Prezident.

Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin adından Sizə və bütün Azərbaycan xalqına seçkilərdə qələbəniz münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan ilə İsrail arasında əməkdaşlıq inkişaf edir və möhkəmlənir. Bu istiqamət atanız, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilib, Siz isə bu yolu uğurla davam etdirərək, Azərbaycanın İsraildə səfirliyini açaraq münasibətləri daha da möhkəmləndirdiniz. Bütün yəhudilər, xüsusən dağ yəhudiləri sevincli və kədərli vaxtlarda həmişə azərbaycanlılar üçün qardaş xalq olublar.

Prezident seçkilərində Azərbaycan xalqının seçimi bizi çox sevindirir. Mütləq əksəriyyət növbəti dəfə sübut etdi ki, Sizə tam etimad göstərir. Onlar müəyyənləşdirilmiş yolun gələcəkdə də davam edəcəyinə inanırlar.

*Dərin hörmətlə və səmimi təbriklərlə,*

***Pavel YELİZAROV,***
***Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin sədri, Dağ yəhudilərinin parlament lobbisinin baş direktoru, xarici işlər nazirinin Qafqaz mənşəli yəhudilər üzrə müşaviri***

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, "Beynəlxalq İslam Missiyası" Mərkəzləşdirilmiş Dini Təşkilatı adından Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə təbrik edim.

Siz atanız Heydər Əlirza oğlunun kursunu davam etdirərək Rusiya və Azərbaycan xalqları arasında yaxınlığın davam etməsi üçün çox böyük işlər görürsünüz və bunun sayəsində rusiyalı müsəlmanların böyük ehtiramını qazanmısınız.

Cənab Prezident, əminəm ki, peşəkar təcrübəniz, enerjiniz, idarəçilik istedadınız və təşkilatçılıq bacarığınız Sizə bundan sonra da ölkəni və cəmiyyəti işıqlı gələcəyə aparmağa imkan verəcəkdir.

Bütün qəlbimlə Allaha dua edirəm ki, Sizə çətin və məsuliyyəti fəaliyyətinizdə uğurlar bəxş etsin.

*Hörmətlə,*

***Şafik PŞİXAÇEV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasındakı səlahiyyətli nümayəndəsi, "Beynəlxalq İslam Missiyası" Mərkəzləşdirilmiş Dini Təşkilatının sədri***

Hörmətli cənab Prezident.

Xalqın böyük dəstəyi ilə prezident seçkilərində qalib gəlməyiniz münasibətilə Sizi "Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri adından təbrik edirəm.

Bu seçkilərin Türkiyənin strateji müttəfiqi və yaxın qonşusu olan Azərbaycanın bütün ərazisində keçirilməsi milli birliyin təmin edilməsi baxımından böyük önəm daşıyır. Uzun müddətdən sonra işğaldan azad edilmiş bölgələrdə də seçkilərin keçirilməsi tarixi əhəmiyyət kəsb edib.

Azərbaycanda yaşanan bu mühüm dəyişikliklərin və təmin olunan ictimai həmrəyliyin Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının bundan sonrakı fəaliyyətinə müsbət təsir göstərəcəyinə, əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə inanırıq.

*Hörmətlə,*

***Ergün ATALAY,***
***"Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının baş direktoru***

Hörmətli Prezident.

Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının adından və şəxsən öz adımdan Sizi seçkilərdə qazandığınız qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə gələcək liderliyiniz dövründə uğurlar, Azərbaycan xalqına və ölkənizə əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Pevrul KAVLAK,***
***Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının prezidenti***

Hörmətli cənab Prezident.

Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyi adından yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırıram. Siz müdrik Lider olaraq regiona sülh və tərəqqi gətirmisiniz.

Demokratik standartlara riayət olunaraq keçirilən seçkilərdə tarixi qələbəniz, həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirik.

Yaşasın Azərbaycan!

Yaşasın Albaniya və Azərbaycan qardaşlığı!

*Dərin ehtiramla,*

***Gezim KALAYA,***
***Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyinin prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Prezidenti seçkilərində qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Uca Yaradan Sizə dahi rəhbərə xas olan möhkəm iradə, xalqına sədaqət və uzaqgörənlik nəsib edib.

Bu parlaq qələbə həmrəyliyi və azərbaycanlıların öz milli Liderinə inamını, Sizin rəhbərliyinizlə ölkənin nail olduğu möhtəşəm uğurların onlar tərəfindən yüksək qiymətləndirildiyini əks etdirir.

Bu gün Azərbaycan geniş beynəlxalq əlaqələrə və dinamik iqtisadiyyata malik müasir, inkişaf edən dövlət, türk dünyasının nüfuzlu liderlərindən biri və regionun hərəkətverici qüvvəsidir. Siz Prezident vəzifəsində ölkəni bütövləşdirməyə və möhkəmləndirməyə nail oldunuz, xalq isə bu səyləri layiqincə dəyərləndirdi.

*Dərin hörmətlə,*

***Alişer USMANOV,***
***rusiyalı sahibkar***

Möhtərəm cənab Prezident.

Müstəqil və bölünməz Azərbaycanın Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərin nəticəsi heç kimdə şübhə doğurmurdu. Xalq onu 30 illik natamamlıq kompleksindən xilas edən Liderə səs verdi.

Sizin regionda liderliyiniz cəmiyyət həyatının bütün sahələrində yüksək nəticələrə nail olmaq səylərində parlaq səmərəli idarəçilik örnəyinə çevrilib. Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadiyyatda, sosial sahədə, milli təhlükəsizlikdə və digər istiqamətlərdə böyük uğurlar qazanıb.

Sizin müasir geosiyasi çağırışlara istiqamətlənmiş strateji baxışınız ölkəyə davamlı iqtisadi artıma, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə və böyük investisiyalar cəlb edilməsinə nail olmağa imkan verib. Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan bir çox ölkələr üçün cəlbedici tərəfdaşa çevrilib. Demokratiyanın inkişafı, vətəndaşların hüquq və azadlıqlarının möhkəmləndirilməsi, həmçinin mədəniyyət və təhsilin, elm və səhiyyənin dəstəklənməsinə yönəlmiş səyləriniz Azərbaycan vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsinə kömək edir. Beynəlxalq hüquq prinsiplərinə əsaslanan müdrik xarici siyasətiniz regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf yolunu davam etdirəcəkdir.

İcazə verin, inamlı qələbə münasibətilə ən səmimi təbriklərimi bir daha bildirim və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, ölkəyə və xalqa xidmət üzrə fəaliyyətinizdə uğurlar diləyim.

*Dərin ehtiramla, həmişə Sizin,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan.

Azərbaycan Respublikasında keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Yenidən Prezident seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir təsdiqidir.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə bütün sahələrdə yüksək nəticələr qazanır, beynəlxalq arenada nüfuzunu möhkəmləndirir. Sizin uğurlu liderliyinizlə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf bizi daim sevindirir. Ali Baş Komandanlığınızla işğal altındakı torpaqlarımızın azad edilməsi və ölkəmizin beynəlxalq aləmdə getdikcə artan nüfuzu qəlbimizi qürur hissi ilə doldurur.

Heç şübhəsiz, Sizin bu ali vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə xidmət edəcək. Əminik ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcəkdir.

Cənab Prezident, Siz xaricdəki Azərbaycan diasporuna daim diqqət göstərirsiniz. Bu diqqət ölkəmizin xaricdə təbliği işində bizi hər zaman ruhlandırır. ABŞ-də yaşayan Azərbaycan diaspor nümayəndələri olaraq bundan sonra da Vətənimizi qürurla təbliğ edəcəyik.

Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Azərbaycan Amerika Alyansının İdarə Heyəti və üzv təşkilatları:***
***Minəvvər VAHABOVA, Nyu York Azərbaycan Amerika Qadınlar Assosiasiyasının sədri***
***Adika İQBAL, Azərbaycan Dostluq Təşkilatının sədri***
***Əsmər QARAYEVA, Yuta Azərbaycan İcmasının sədri***
***Aynur AĞAYEVA, Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədri***
***Əli ƏSGƏROV, "Birləşmiş Azərbaycan Evi"nin sədri***
***Esmira BAYRAMOVA, Florida Azərbaycan Amerika Cəmiyyətinin sədri***
***Ercan YERDELENLİ, Azərbaycan Nyu York Assosiasiyasının sədri***
***Fərid MƏMMƏDOV, Midvest Amerika Azərbaycan Mərkəzinin sədri***
***Günay MƏMMƏDOVA, Azərbaycan - Amerika Gənclər Federasiyasının sədri***
***İradə AXUNDOVA, Azərbaycan Mərkəzinin rəhbəri***
***Cəmilə CAVADOVA-SPİTZBERQ, Azərbaycan - Amerika Musiqi Fondunun rəhbəri***
***Nərgiz ƏLİYAROVA, Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin sədri***
***Nabat EMİNOVA, Azərbaycan - Amerika Gənclər Assosiasiyasının sədri***
***Rauf ŞAHBAZOV, Azərbaycan Amerika Tibb Assosiasiyasının həmtəsisçisi***
***Samir NOVRUZOV, ABŞ - Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri***
***Tərlan ƏHMƏDOV, Men Azərbaycan Cəmiyyətinin sədri***
***Telman CƏLİL, Azərbaycan Nyu York Mədəniyyət Mərkəzinin rəhbəri***
***Töhfə EMİNOVA, Florida Azərbaycan - Amerika Mədəniyyət Assosiasiyasının rəhbəri***
***Amerika Birləşmiş Ştatları***

Hörmətli cənab Prezident.

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının çoxsaylı üzvləri adından növbəti dəfə Prezident seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik.

Azərbaycanımızın dünya dövlətləri sırasında mövqeyinin daha da möhkəmlənməsi, işğaldan azad olunmuş torpaqlarımızın tezliklə bərpa olunması və xalqımızın rifah halının daha da yüksəldilməsi kimi çətin və mühüm işlərinizdə Sizə müvəffəqiyyətlər arzulayırıq.

Ulu Tanrı Sizi və dövlətimizi qorusun!

*Hörmətlə,*

***Ədalət TURAN,***
***Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası İdarə Heyətinin sədri***
***Türkiyə Respublikası, İstanbul şəhəri***

"Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evi adından prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq. Bu qələbə Azərbaycan xalqının birliyinin, haqq və ədalətin qələbəsidir.

Möhtərəm Prezident, ölkəmizin suverenliyinin bərpası, tarixi torpaqlarımızın geri qaytarılması, iqtisadiyyatımızın inkişafı, xalqın rifahı, əmin-amanlığı Sizin müdrik siyasətinizin və qətiyyətinizin nəticəsidir. Biz dünya azərbaycanlıları hansı ölkədə olmağımızdan asılı olmayaraq, hər birimiz azərbaycanlı olduğumuz üçün fəxr edirik. Bu qüruru bizə yaşatdığınıza görə Sizə hər zaman minnətdar olacağıq və daim Sizi dəstəkləyəcəyik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, Azərbaycanın rifahı naminə görəcəyiniz işlərdə yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Sevda BADALİOURİ,***
***"Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evinin sədri***
***Saur KADİRLİ,***
***Almaniya Azərbaycanlıları Alyansının İdarə heyətinin üzvü***
***Almaniya Federativ Respublikası, Berlin şəhəri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Fevralın 7-də xalqımız öz seçimini etdi, yenilməz, müzəffər Liderini seçdi. Siz bizim qürur mənbəyimizsiniz, daim bizə fəxarət hissləri yaşadırsınız. Bu seçkilərə də fəxr və qürur hissi ilə getdik.

Berlin şəhərində Sizə səs verərkən Almaniyada yaşayan azərbaycanlıların, bu ölkədə təhsil alan gənclərimizin səsvermədə necə fəxr hissi ilə iştirakını izlədikcə qəlbim dağa döndü. Belə gözəl hisslər yaşadığıma görə Sizə minnətdaram.

"Biz - Zəfər yoluna davam" təşəbbüs qrupunun üzvü, Dünya Azərbaycanlı Alimlər Birliyinin həmsədri kimi bütün həmkarlarımın adından və şəxsən öz adımdan Sizi inamlı qələbə münasibətilə təbrik edir, Azərbaycanımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə Sizə cansağlığı və uğurlar arzulayıram.

Allah müzəffər xalqımızı və Sizi qorusun!

*Hörmətlə,*

***Məsud ƏFƏNDİYEV,***
***Azərbaycanın Əməkdar elm xadimi,***
***"Aleksander fon Humboldt" mükafatını alan ilk azərbaycanlı professor***
***Almaniya Federativ Respublikası, Münxen şəhəri***

Hörmətli cənab Prezident.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Almaniyada yaşayan azərbaycanlılar adından Sizi səmimi-qəlbdən təbrik edirik. Namizədliyinizin təkcə Azərbaycanda deyil, həmçinin dünyada yaşayan azərbaycanlılar tərəfindən hərtərəfli dəstəklənməsi bu xalqın tək bir Liderinin olduğunun göstəricisidir. Biz çox şanslı xalqın nümayəndələriyik ki, Sizin kimi dövlət başçımız var.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, ölkəmizin tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Lalə MƏMMƏDLİ,***
***Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri.***
***Almaniya Federativ Respublikası, Hannover şəhəri***

Hörmətli cənab Prezident.

Prezident seçkilərində xalqımız bir daha Azərbaycan Respublikasının Prezidenti vəzifəsini Sizə etibar etdi. Sizin keçdiyiniz yolun, bütün sahələrdə yürütdüyünüz müdrik daxili və xarici siyasətin alternativinin olmadığını göstərdi.

Biz - "Azərbaycan Kültür Qarabağ Dərnəyi" cəmiyyətinin üzvləri, seçkilərin qalibi olan Sizi ürəkdən təbrik edirik.

Ümid edirik ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yol uğurla davam etdiriləcək və ardıcıl qələbələr davamlı olacaq.

Cənab Prezident, otuz il erməni tapdağında qalan torpaqlarımızın azad olunmasında əsl sərkərdəlik şücaəti nümayiş etdirdiniz. İqtidar-Xalq birliyi bu günümüzün və gələcəyimizin xoşbəxtliyinin təminatçısıdır.

Sizi bir daha ürəkdən təbrik edirik və müvəffəqiyyətlər arzulayırıq. Vətənimizə firavanlıq, sülh və əmin-amanlıq diləyirik.

*Hörmətlə,*

***Abdulla Amir HAŞİMİ (Cavanşir),***
***"Azərbaycan Kültür Qarabağ Dərnəyi"***
***İsveç Krallığı, Stokholm şəhəri***

Hörmətli cənab Prezident.

Müstəqillik dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı bildirməkdən sonsuz məmnunluq duyuram.

Sizin liderliyinizlə torpaqlarımızın işğaldan azad edilməsi, beynəlxalq aləmdə ölkəmizin getdikcə artan nüfuzu və əhəmiyyəti biz Norveç azərbaycanlıları üçün daim qürurverici olub.

Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, xalqımıza isə sülh və əmin-amanlıq arzulayırıq.

Bu arzularla zəfərinizin həm Azərbaycan xalqı, həm də bölgəmiz üçün xeyirli olmasını diləyirəm. Sizə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Ramil ƏLİYEV, Oslo Azərbaycan Evinin sədri***
***Norveç Krallığı, Oslo şəhəri***

Hörmətli cənab Prezident.

Biz Fransanın Nant şəhərində yaşayan azərbaycanlılar adından Sizi bu mühüm qələbə münasibətilə ürəkdən təbrik edirik.

Biz qürurluyuq, çünki 31 il sonra bütöv bir Azərbaycan olaraq bu möhtəşəm, tarixi seçkilərdə iştirak etdik və Qalib Xalq olaraq Qalib Prezidentimizi seçdik.

Cənab Prezident, Fransada həmvətənlərimizin ən çox yaşadığı Nant şəhərindən Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, xalqımıza isə sülh, əmin-amanlıq arzulayırıq.

*Hörmətlə,*

***Fransız-Azərbaycan Mədəniyyət Təşkilatı (ACAF)***
***Fransa, Nant şəhəri***

Hörmətli cənab Prezident.

Seçkilərdə qazandığınız inamlı və parlaq qələbə münasibətilə Meksikadakı Azərbaycan icması olaraq Sizi ürəkdən təbrik edirik. Bu seçkilər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bütöv respublikamızda keçirilən seçkilər Sizin müdrik və uzaqgörən siyasətinizin şah əsəridir.

Siz Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdiniz.

Cənab Prezident, Vətənimiz Azərbaycanın daha da qüdrətlənməsi naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirik və inanırıq ki, ölkəmizi daha uca zirvələrə qaldıracaqsınız.

***Yolunuz hər zaman açıq olsun!***
***Hörmətlə,***
***Meksikadakı Azərbaycan icmasının üzvləri:***
***Natiq ATAKİŞİYEV***
***Sevinc ATAKİŞİYEVA***
***Lalə QAFAROVA***
***Çingiz MƏMMƏDOV***
***Ulduz MƏMMƏDOVA***
***Fərhad QAFAROV***
***Sevda VERDİYEVA***
***Mehman VERDİYEV***
***Gülnarə MEHTİYEVA***
***Osman MARTİNEZ***
***Kristina SAADOVA***
***Nana BABAYEVA***
***Emil RZAYEV***
***Aysel VERDİYEVA***
***Meksika Birləşmiş Ştatları***

Hörmətli cənab Prezident.

2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində qalib gəlməyiniz münasibətilə "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin idarə heyəti və kollektivi adından, şəxsən öz adımdan səmimi təbriklərimi qəbul edin. Biz, Yunanıstanda yaşayan azərbaycanlılar öz vətənimizlə və liderimizlə fəxr edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan regionda sabitliyə və sülhün möhkəmlənməsinə misilsiz töhfə verir. Seçdiyiniz siyasi kurs həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda bizim vətəndaşların həyatının daim yaxşılaşdırılmasına yönəlib.

Cənab Prezident, Sizə dərin ehtiramımı bildirir, xoşbəxtlik, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, xalqımıza sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Rəşid MƏMMƏDOV,***
***"QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***
***Yunanıstan Respublikası, Saloniki şəhəri***

Hörmətli cənab Prezident.

Sizi Rostov vilayətində yaşayan azərbaycanlılar icması adından fevralın 7-də keçirilən prezident seçkilərində inamlı qələbə qazanmağınız münasibətilə ürəkdən təbrik edirəm. Sizin müdrik rəhbərliyinizlə ölkəmiz böyük uğurlar qazanmışdır.

Əminik ki, bundan sonra da Siz Azərbaycana yeni nailiyyətlər, qələbələr qazandıracaqsınız. Qüdrətli ölkəmizin gələcək inkişafı naminə şərəfli fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq!

Siz qalib ölkənin qalib Liderisiniz!

Biz hər zaman Sizinlə fəxr edirik!

*Hörmətlə,*

***Şakir ALLAHVERDİYEV,***
***Rusiyanın Rostov vilayətində yaşayan azərbaycanlılar icmasının sədri***
***Rusiya Federasiyası, Rostov şəhəri***

Çox hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbə qazanmağınız münasibətilə Sizi Solikamsk şəhərindəki Azərbaycan diasporunun üzvləri və şəxsən öz adımdan təbrik edirəm.

Bu uğur ölkə vətəndaşlarının Sizə böyük etimadının və dəstəyinin təsdiqidir. Səsvermənin nəticələri seçicilərin güclü və firavan Azərbaycan quruculuğu istiqamətində ardıcıl həyata keçirilən kursla yüksək həmrəyliyini göstərdi. Əminəm ki, Sizin dövlət başçısı kimi məsul vəzifədə fəaliyyətiniz ölkənin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun daha da güclənməsini təmin edəcəkdir.

Böyük siyasi təcrübəniz və yüksək peşəkarlığınız mürəkkəb problemləri Azərbaycan xalqının mənafeyinə uyğun olaraq qətiyyətlə və ardıcıl şəkildə həll etməyə imkan verir.

Sizə şərəfli işinizdə uğurlar arzulayırıq və səmərəli əməkdaşlığa ümid edirik. Biz ümumi məqsəd və məqsədlərə nail olmaq üçün birgə işləməyə hazırıq.

*Hörmətlə,*

***Uğur ƏFƏNDİYEV,***
***Solikamsk şəhərindəki Azərbaycan icmasının sədri***
***Rusiya Federasiyası, Perm diyarı, Solikamsk şəhəri***

Hörmətli cənab Prezident.

Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram. Bu ali dövlət vəzifəsinə yenidən seçilməyiniz tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının müstəqillik tarixində ilk dəfədir ki, prezident seçkiləri ölkənin bütün ərazisində keçirildi.

Cənab Prezident, son illər ərzində Sizin rəhbərliyinizlə Azərbaycan dünya miqyasında güc mərkəzinə çevrilib və irəliyə doğru inamla addımlayır. Sizin misilsiz rolunuz və əvəzsiz xidmətləriniz nəticəsində Azərbaycan beynəlxalq arenada özünü etibarlı tərəfdaş, sadiq dost ölkə kimi təsdiq edə bilib. Eyni zamanda regional və beynəlxalq münasibətlərdə də ölkəmizin nüfuzu artmaqdadır. Sosial-iqtisadi siyasətiniz, genişmiqyaslı islahatlar və böyük quruculuq işləri vətəndaşların hər bir sahədə rifahının yüksəlməsinə, iqtisadi tərəqqiyə səbəb olub. Azərbaycan xalqı Sizin müdrik və uzaqgörən siyasətinizi prezident seçkilərində seçimi ilə bir daha yüksək dəyərləndirdi, bu siyasətə dərin inamını ifadə etdi.

Şübhəsiz ki, Sizin liderliyinizlə Azərbaycan gələcəkdə də yeni uğurlara imza atacaq və şanlı zirvələri fəth edəcəkdir.

Sizə vətən, xalq naminə görəcəyiniz işlərdə müvəffəqiyyət arzulayır, ən dərin ehtiramımızı çatdırıram.

*Hörmətlə,*

***Nəriman QURBANOV,***
***Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin sədri***
***Gürcüstan, Tbilisi şəhəri***

Hörmətli cənab Prezident.

Sizi Tbilisidə fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin işçi və tələbə heyəti adından prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu zəfər dünya azərbaycanlılarının Zəfəridir. Siz bütün dünya azərbaycanlılarının Prezidentisiniz. Gürcüstan azərbaycanlıları milli Vətənimiz Azərbaycanın dəstəyini daim hiss edir. Bizə göstərdiyiniz qayğı və diqqət üçün Sizə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, Sizin prezidentliyiniz dövründə Azərbaycan uğurların və sabitliyin parlaq nümunəsinə çevrilmiş, regionda və onun hüdudlarından kənarda öz rolunu və əhəmiyyətini gücləndirmiş, ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Bundan sonrakı fəaliyyətinizdə də Sizə bol uğur, möhkəm cansağlığı və müvəffəqiyyət arzu edirik.

*Hörmətlə,*

***Tbilisi şəhər "Alyans" Gənclər Mərkəzinin idarə heyəti***
***Rəna HÜSEYNOVA və Leyla ƏMRAHOVA***
***Gürcüstan, Tbilisi şəhəri***

Möhtərəm cənab Prezident.

Fevralın 7-də keçirilmiş prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi şəxsən öz adımdan və Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin üzvləri adından ürəkdən təbrik edirəm. Sizin qələbəniz bütün Azərbaycan xalqının qələbəsidir. Əminik ki, bundan əvvəlki fəaliyyətiniz dövründə olduğu kimi, bundan sonra da Azərbaycan xalqına və dövlətinə böyük uğurlar, yeni-yeni zəfərlər qazandıracaqsınız.

Sizə və xalqımıza xoşbəxt günlər və işıqlı gələcək arzulayıram.

*Hörmətlə,*

***Murad MURADOV,***
***Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin İcraçı direktoru***
***Marneuli şəhəri, Gürcüstan***

Hörmətli cənab Prezident.

Fevralın 7-də keçirilən Azərbaycan Respublikası Prezidenti seçkilərinin müvəffəqiyyətlə başa çatması münasibətilə Xarici İqtisadi Əlaqələr Komitəsinin tərkibində fəaliyyət göstərən Dünya Türk İş Şurası adından Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ali Baş Komandan olaraq rəhbərliyinizlə şanlı Ordunuzun Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağı və ətraf rayonları 30 illik işğaldan azad etməsi, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması, uzaqgörən siyasətiniz və müdrik liderliyiniz sayəsində Azərbaycanın regionda, eləcə də beynəlxalq aləmdə nüfuzunun artması bizdə böyük məmnunluq doğurur.

Sizin qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində Azərbaycanın keçdiyi misilsiz inkişaf yoluna 20 ildən çoxdur şahid oluruq. Azərbaycan Respublikasının bu gün bütün sahələrdə mühüm uğurlara imza atması və hərtərəfli inkişaf yolu keçərək güclü və qüdrətli dövlət olması bizi səmimi-qəlbdən sevindirir və ruhlandırır.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı və ölkələrimizin dinamik inkişaf maraqlarına uyğun olaraq bundan sonra daha da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Zati-aliləri, bir daha Sizə qələbə münasibətilə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, yeni-yeni müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə daim tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Barış ALTIPARMAK,***
***Dünya Türk İş Şurasının Azərbaycandakı nümayəndəsi***
***Azərbaycan Respublikası, Bakı şəhəri***

Möhtərəm Prezident.

Qırğızıstanda yaşayan azərbaycanlılar, o cümlədən ötən əsrin 30-cu illərində repressiyaya məruz qalan azərbaycanlılar adından Sizi inamlı qələbəniz və xalqın mütləq etimadını qazanmağınız münasibətilə təbrik edirəm. Biz xoşbəxtik ki, Siz bizim Prezidentimiz, uzun illər düşmən işğalında olan torpaqlarımızı azad edən, qürurumuzu qaytaran Liderimizsiniz.

Cənab Prezident, Siz və atanız - Azərbaycanın Ulu Öndəri ölkənin və xalqın uğurlu taleyini müəyyənləşdirdiniz. Sizin adlarınız Azərbaycanın minillik tarixinə qızıl hərflərlə yazılıb.

Biz Qırğızıstanda yaşayan azərbaycanlılar ölkəmizdəki prosesləri diqqətlə izləyir, Sizin siyasətinizi dəstəkləyir və dünyadakı yüksək nüfuzunuzla fəxr edirik.

Biz Ulu Öndərimiz Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında səsləndirdiyi "Harada yaşamağınızdan asılı olmayaraq Azərbaycanı təmsil edirsiniz, yaşadığınız ölkənin layiqli vətəndaşı olun" vəsiyyətinə əməl edirik.

Qırğızıstan azərbaycanlıları Sizə və gözəl ailənizin üzvlərinə cansağlığı, xoşbəxtlik və uzun ömür arzulayır. Siz Azərbaycanın xoşbəxt gələcəyinin qarantısınız.

*Hörmətlə,*

***Akif ALAFERDOV,***
***"Qırğızıstan-Azərbaycan" Dostluq və Əməkdaşlıq Birliyinin sədri, Qırğız Respublikasının Əməkdar həkimi***
***Qırğız Respublikası, Bişkek şəhəri***

# İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha Prezident İlham Əliyevə zəng edib

Fevralın 10-da İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Baş katib İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

O, Prezident İlham Əliyevin İslam həmrəyliyi işinə verdiyi töhfəni xüsusi vurğulayıb, eyni zamanda işğaldan azad edilmiş torpaqlarımızda geniş abadlıq və quruculuq işlərinin həyata keçirilməsi ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirərək öz növbəsində Azərbaycanın bundan sonra da İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, təşkilatın inkişafı, üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi işinə töhfəsini verəcəyini qeyd edib.

Dövlətimizin başçısı Hissein Brahim Tahanı yenidən Azərbaycanda görmək istəyini ifadə edərək onu ölkəmizə səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Gürcüstanın Baş naziri zati-aliləri cənab İrakli Kobaxidzeyə

Hörmətli cənab Baş nazir.

Gürcüstanın Baş naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz tarixən bir-birinə dostluq və mehriban qonşuluq telləri ilə bağlı olan xalqlarımızın iradəsindən güc alan Azərbaycan-Gürcüstan münasibətlərinə xüsusi əhəmiyyət veririk. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin və əməkdaşlığımızın dinamik və hərtərəfli inkişaf edərək bugünkü səviyyəyə yüksəlməsi və yeni məzmun kəsb etməsi bizi sevindirir.

Əminəm ki, sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Gürcüstan ənənəvi dostluğu, qarşılıqlı faydalı əməkdaşlığı və strateji tərəfdaşlığı ölkələrimizin rifahı, regionumuzun çiçəklənməsi naminə birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının əmin-amanlığı və firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2024-cü il*

# Keniya Prezidenti dövlətimizin başçısı İlham Əliyevi seçkilərdə qələbəsi münasibətilə təbrik edib

Keniya Respublikasının Prezidenti Uillyam Samoei Ruto Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Keniya Prezidenti bununla bağlı "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ürəkdolusu təbriklərimi çatdırıram. Sizin inamlı qələbəniz uzun illər ərzində Azərbaycan xalqının məharətinizə və liderliyinizə inamını bir daha təsdiqlədi. 2004-cü ildən bəri diplomatik münasibətlərimizin əsası qoyulduqdan sonra uzun illər ərzində Keniya və Azərbaycan arasında güclü, davamlı, səmimi və dostluq münasibətlərindən məmnunluğumu bildirirəm. Biz diplomatik münasibətlərimizin 20-ci ilini qeyd edərkən razılaşdırılmış prioritetlər çərçivəsində ikitərəfli əlaqələrimizi daha da gücləndirmək və onları qarşılıqlı maraq doğuran yeni sahələrə də genişləndirmək üçün mükəmməl fürsətimiz olduğunu məmnunluqla bildirirəm.

Fürsətdən istifadə edərək əminliyimi bildirmək istəyirəm ki, Sizin rəhbərliyinizlə biz ticarət, investisiyalar, enerji, iqlim dəyişikliyi və turizm kimi müxtəlif sahələrdə səmərəli tərəfdaşlıq imkanlarını tədqiq edəcəyik.

Zati-aliləri, mənim və Keniya xalqının ən yüksək ehtiramını qəbul edin".

# Omanın Sultanı Prezident İlham Əliyevi seçkilərdə inamlı qələbəsi münasibətilə təbrik edib

Omanın Sultanı Heytəm bin Tariq Al Səid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Oman İnformasiya Agentliyi (ONA) məlumat yayıb.

Məlumatda qeyd olunub ki, Omanın Sultanı Azərbaycan Prezidentinə səmimi təbriklərini və ən xoş arzularını çatdırıb, ona möhkəm cansağlığı diləyib.

Heytəm bin Tariq Al Səid Prezident İlham Əliyevə dost Azərbaycan xalqını tərəqqi və firavanlığa aparan yolda uğurlar arzulayıb, iki ölkə arasında dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduğunu bildirib.

# "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 646 (Cild I) 1-ci hissəsi ləğv edilsin.
2. Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2024-cü il*

# Qalib xalq, güclü Lider

## Bu birlik Azərbaycanı daha işıqlı gələcəyə aparır



**Əsl liderlərin hər zaman güclü strateji hədəfləri olur. Böyük məqsədlər əldə edildikdən sonra dərhal qarşıya yeni vəzifələr qoyulur, bütün səylər həmin amallara doğru səfərbər edilir. Çünki dəyişiklik, inkişaf daim davam edən prosesdir və liderlər bunu hər kəsdən yaxşı duyaraq inkişaf proseslərinin ardıcıllığını, davamlılığını, dayanıqlılığını təmin etmiş olurlar.**

Güclü lider həm də insanların dövlətçilik arzularını milli amala çevirir. Xalqı bu amal, ümumi ideya ətrafında birləşdirir və düzgün hədəflərə çatdırır. 7 fevral prezident seçkilərində də ölkə vətəndaşları Azərbaycanı tarixinin ən güclü dövrünə yetişdirən, son 20 ildə görülən işlərin, əməli addımların bu günün və gələcəyin reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirən, hazırkı milli inkişafın əsaslarını təşkil edən qüdrətli Liderinə - cənab İlham Əliyevə səs verdi. Bu, xalqın ümummillı etimadı, ölkə vətəndaşlarının birmənalı ictimai rəyi idi. Prezident seçkisi xalq-hakimiyyət birliyinin, cəmiyyətimizdə getdikcə inkişaf edən siyasi mədəniyyətin, qədirbilən xalqımızın malik olduğu ali keyfiyyətlərin təntənəsi oldu.

İndiyə qədər də ölkəmizdə seçkilər, ümumxalq referendumları kifayət qədər fəallıq şəraitində keçib. Amma etiraf edək ki, seçki məntəqələrindəki budəfəki qələbəlik heç zaman müşahidə olunmamışdı. Bunu hətta hakimiyyətin qatı opponentləri də etiraf etməkdədirlər. Prezident seçkisi tam şəffaf, demokratik mühitdə, rəqabətli şəraitdə, beynəlxalq müşahidəçilərin iştirakı ilə həyata keçdi. İddiasını ortaya qoyan hər kəsə seçki marafonunda iştirak edib öz alternativ mövqeyini seçicilərə çatdırmaq, şansını sınamaq imkanı yaradıldı. Seçicilər fəal şəkildə məntəqələrə gələrək öz səslərini ən layiqli namizədə etibar etdilər. Azərbaycanda bütün parametrlər üzrə nümunəvi bir seçkinin keçirildiyi bir çox beynəlxalq müşahidəçilərin rəylərində də əksini tapdı. Belə məqamlardan ayrı-ayrı ölkələrə qarşı çirkin niyyətlərlə təzyiq məqsədilə istifadəyə öyrəşmiş bəzi beynəlxalq qurumlardan fərqli olaraq əsl niyyəti həqiqətən seçki prosesinə nəzarətdən ibarət olan əksər beynəlxalq təşkilatların müşahidəçiləri səsvermə prosesi ilə bağlı obyektiv mövqelərini, fikirlərini ortaya qoydular. Əslində real həqiqət, demokratik səsvermə üçün yaradılmış şərait, yüksək seçici fəallığı ortada idi və bunun əksini iddia etmək üçün yalnız obyektivlik hissini itirib qərəzli olmaq lazım gəlirdi.

### Ümumxalq minnətdarlığının ifadəsi

Belə bir yüksək fəallıq bizi son əsrlərin ən böyük problemindən birdəfəlik xilas edən, dövlətimizin ərazi bütövlüyünə, suverenliyinə nail olan, gələcək nəsillər üçün qansız-qadasız, inkişaf mənzərəli gözəl bir gələcəyin təməlini qoyan Liderə - cənab İlham Əliyevə xalqın minnətdarlığının ifadəsi idi. Bu, tarixinin ən qüdrətli çağlarına gəlib çıxmış Azərbaycan dövlətinə, uzun illərdən bəri apardığımız haqq savaşındakı möhtəşəm Zəfərimizə, keçmişin dəyərlərinə, bu günün nailiyyətlərinə, gələcəyin ümidlərinə verilən səs idi. 7 fevral prezident seçkisi ilə Azərbaycan xalqı milli vəhdətinin gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu seçki bir daha sübuta yetirdi ki, Azərbaycan xalqı dünyanın ən müdrik, uzaqgörən, mövcud reallıqları aydın qiymətləndirən, tarixin qazandırdığı təcrübələrdən dərs çıxarmağı bacaran, malik olduğu nailiyyətləri qoruyub daha da genişləndirən xalqlarındandır və belə bir toplumu addım-addım irəlilədiyi inkişaf yolundan kənarlaşdırmaq əsla mümkün deyil. 7 fevral seçkisinin nəticələri onu da bir daha sübuta yetirdi ki, hər addımında, hər qərarında xalqa arxalanan, vətəndaşların dəstəyindən güc alan Lider nə qədər böyük qüdrət sahibidir. Müxtəlif maraqlarla Azərbaycana təzyiq göstərmək istəyən, öz niyyətlərini gerçəkləşdirməyə çalışan xarici qüvvələr bu qüdrət qarşısında nə qədər aciz və miskindirlər.

Məhz xalqdan aldığı bu mütləq dəstəyə görə cənab İlham Əliyev zamanəmizin ən parlaq liderlərindəndir. Məhz xalqın maraqlarını ifadə etdiyinə görə Azərbaycanın dövlət rəhbərinin bütün məsələlərlə bağlı konkret mövqeyi var və onu mövqeyindən döndərmək mümkün deyil. Bu mövqe ilk növbədə Azərbaycan xalqının milli maraqlarıdır. Ölkəmizdə, regionda, ümumən dünyada sülh və inkişafın təmin olunması üçün formalaşan, şərait yarandıqca yubanmadan həyata keçirilən strateji baxış sistemidir. Qarşıya qoyulmuş böyük hədəflərdir.

Hər addımında xalqın dəstəyini, inam və güvənini hiss edən Lider insanları önümüzdəki bütün ali hədəflərə çatdıracaq. Necə ki, bir zamanlar xəyalımızdan belə keçirə bilmədiklərimizi gerçəkləşdirdi. Şuşada, Xankəndidə dövlət bayrağımızı ucaltdı. Onillərdən bəri qəlbimizdə köz bağlamış işğal yaramızı sağaltdı. Bizi yurdlarımıza qovuşdurdu. Milli qürurumuzu bərpa etdi. İşğal dövründə ermənilərin vandalcasına dağıtdıqları el-obamızı qurucu əlləri ilə yenidən gülüstana çevirməyə başladı.

### İnamın gücü

Müstəqilliyimizin ilk illərindəki təlatümlü zamanlarda Ümummilli Lider Heydər Əliyevi təkidlə hakimiyyət rəhbərliyinə çağıraraq dəstəyi, inamı, ümidləri ilə hər zaman bu böyük dövlət adamının yanında olan Azərbaycan xalqı bununla dövlətimizin çətin sınaqlardan çıxmasına, hüquqi dövlət quruculuğu yollarında tədricən irəliləməsinə, beynəlxalq aləmdə özünə layiqli yer tutmasına, müstəqil dövlət kimi mövcudluğunun ilkin zəruri əsaslarını formalaşdırmasına, sosial-iqtisadi çətinlikləri yavaş-yavaş geridə qoymasına şərait yaratmışdı. Ümummilli Liderin bütün bunlara nə qədər böyük fədakarlıq, əzm, siyasi iradə ilə nail olduğunu görən, Azərbaycanın əldə etdiyi nailiyyətlərin təsirini özünün gündəlik həyatında hiss edən xalqımız fərqində idi ki, ölkəmizin, dövlətimizin gələcəyi bu siyasətin ardıcıllığından asılıdır. Onda ən böyük dərdimiz Qarabağ problemi, Azərbaycan torpaqlarının işğalı acısı idi. Bu müşkülün həlli o qədər də asan görünmürdü. Amma Azərbaycan vətəndaşları ümidli idilər ki, Ulu Öndərin təməlini qoyduğu inkişaf prosesləri bu minvalla davam etsə, bəlkə nə vaxtsa torpaqlarımızın azad edildiyi günləri də görə bilərik.

Bu siyasətin növbəti onillərdə də davam etməsi üçün Azərbaycan xalqı 2003-cü ilin prezident seçkisində Ümummilli Liderin inandığı şəxsə - cənab İlham Əliyevə səs verdi. Müstəqil dövlətimizin strateji inkişaf kursunun davam etdirilməsi, Azərbaycana qarşı yönələn təhdidlərin aradan qaldırılması üçün verdiyi hər qərarda xalq öz Liderinin yanında oldu. Ona dəstəyini əsirgəmədi. İnamı ilə güc verdi. Bu inam, bu dəstək Azərbaycan üçün o qədər böyük tarixi nəticələr yaratdı ki, bütün bu nailiyyətlərin təxminən 20 il ərzində baş verdiyinə, bəzən inana belə bilmirsən.

### Əsrlərə bərabər 20 il

Dövlətimizin başçısı ötən 20 il ərzində əsrlərin hüduduna sığmayacaq qədər böyük uğurlara nail oldu. "Tarixin ən güclü Azərbaycanı" ifadəsi hazırda təkcə qürur doğuran kəlmələr deyil, əhatə olunduğumuz reallığın aynasıdır. Prezident İlham Əliyev Azərbaycanı regionda söz sahibinə, beynəlxalq proseslərin nüfuzlu iştirakçısına, qlobal məsələlərə güclü təsir imkanlarına malik olan ölkəyə çevirdi. Ölkəmizin təşəbbüskarı və fəal icraçısı olduğu irimiqyalı layihələrlə böyük bir coğrafiyanın enerji-kommunikasiya mənzərəsini yenidən müəyyənləşdirdi. Dövlətimizin mövqelərini gücləndirdi. Sosial-iqtisadi inkişaf proqramları ilə Azərbaycanın gerçək müstəqilliyinə nail oldu. Vətənimizin kiminsə asılılğında qalmasına imkan vermədi.

Cənab İlham Əliyev Azərbaycanı başdan-başa abadlıq məkanına çevirdi. Əsrlərlə rahat yol, işıqlı məktəb, tibb müəssisəsi, rabitə, kommunal təminat üzü görməyən ən ucqar yaşayış məntəqələrimizdə də ən müasir standartlara uyğun yaşayış şərtləri təmin olundu. Azərbaycan insanının rifahı yüksəldi. Vətəndaşlarımızın gündəlik dolanışıq qayğısı aradan qalxdı, inkişaf standartları yeni səviyyələrə yüksəldi, yaşayış tərzi dəyişdi.

Xalqın gücünə arxalanan Lider mərhələ-mərhələ köklü islahatlar həyata keçirdi. Bəziləri hətta sovet dövrünün mirası olan ziyanlı halları, cəmiyyətin inkişafını əngəlləyən problemləri aradan qaldırdı, inkişaf üçün bərabər imkanlar mühiti yaratdı. Çalışmaq, ölkəmiz və fərd olaraq özü üçün yeni dəyərlər yaratmaq istəyən hər kəsə meydan verdi. Cəmiyyətdə qanunun aliliyini təmin etdi. İctimai-siyasi sabitliyin daim qorunması üçün möhkəm təməllər formalaşdırdı.

### Güclü Azərbaycan

Prezident İlham Əliyev Azərbaycanın getdikcə genişlənən sosial-iqtisadi imkanları ilə güclü bir ordu qurdu. Təchizatına, döyüş qüdrətinə görə onu dünyanın ən öncül orduları sırasında qərarlaşdırdı. Yeni nəsillər üçün qüdrətli bir Azərbaycan yaratdı və gözünü açandan öz dövlətini, dövlətinin liderini belə vüqarlı, mətin görən gənclərimizin timsalında ölkəmizin bu günü və gələcəyi üçün güclü bir nəsil yetişdirdi. Bu nəslin təmsilçiləri Ali Baş Komandanın rəhbərliyi ilə misilsiz igidliklər, fədakarlıqlar göstərərək torpaqlarımızı işğaldan azad etdilər. Ölkəmizin ərazi bütövlüyünə nail oldular.

Azərbaycanın inkişafı, qüdrətlənməsi mühitində yetişən vətənpərvər gənclik bu gün Vətənimizin gələcəyi üçün böyük bir potensial qüvvədir. Bütün bunlar həyata keçirilən inkişaf proseslərinin, milli amallara doğru ardıcıl yolumuzun, ölkəmizin qüdrətlənməsinin gələcəkdə də davam edəcəyinə təminat yaradır. Azərbaycan malik olduğu təbii resursları biliklər iqtisadiyyatına, insan kapitalına çevirir. Gənc nəslin təmsilçiləri müasir dünyamızın bilik və bacarıqlarına, informasiya-kommunikasiya texnologiyaları ilə iş vərdişlərinə yiyələnir. Dünyanın mütərəqqi yenilikləri sürətlə Azəbaycana daxil olur. Bütün bunlar ölkəmizdə, cəmiyyətimizdə yeni inkişaf reallıqları formalaşdırır.

Azərbaycan xalqı 7 fevral prezident seçkisində yekdil şəkildə cənab İlham Əliyevə səs verməklə həm qüdrətli Liderin son iki onillikdə dövlətimizə, fərd olaraq hər bir vətəndaşımıza qazandırdığı uğurlara görə təşəkkür duyğularını ifadə etdi, eyni zamanda məqsədyönlü inkişaf siyasətinin növbəti illərdə də davam etdirilməsi arzusunu diqqətə çatdırdı. Yeni strateji dövrdə qarşıya qoyulmuş prioritetlərin davamlı şəkildə yerinə yetirilməsi üçün xalq güclü Liderinə etimad göstərdi və imkanlar yaratdı. Bu yolun hər addımında, hər qərarında dövlət rəhbərimizin yanında olduğunu, Azərbaycanın bugünkü və gələcək inkişafı üçün alternativsiz siyasətinin icrasına dəstək verdiyini bildirdi.

### Yeni dövr, yeni hədəflər

Yeni dövrün strateji məqsdləri aydındır. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın təmin olunmasını, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğunu, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olmağı, işğaldan azad edilmiş ərazilərə böyük qayıdışı, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmağı dövlətimiz yaxın illər üzrə əsas milli prioritetləri kimi müəyyənləşdirib. Bu prioritetlərin hər birinin reallaşdırılması istiqamətində mühüm tədbirlər görülməkdədir.

Hazırda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilən Qarabağın, Şərqi Zəngəzurun ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin genişlənməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər bu yeni strateji dövrdə də Azərbaycanı gücləndirməkdə davam edəcək. Ölkəmizin iqtisadi suverenliyi daha da möhkəmlənəcək, Azərbaycan müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə çevriləcək. Məcburi köçkünlərimizin doğma yurdlara qayıdışı təmin olunacaq. Dövlətin iqtisadiyyatdakı rolu bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunacaq. Özəl mülkiyyət institutları gücləndiriləcək, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışı artırılacaq. Ölkədə özəl təşəbbüslər yaradıcı və innovativ əsaslarla inkişaf etdiriləcək. Rəqəmsal iqtisadiyyat genişləndiriləcək. Azərbaycan müasir dünyamızın əsas çağırışlarından olan "yaşıl enerji" zonasına çevriləcək.

Xalqımız tam demokatik, şəffaf şəraitdə keçən 7 fevral prezident seçkisində artıq görünməkdə olan bu gələcəyə səs verdi. Prezident-Xalq birliyinin gücü ilə bu gələcək haqqında çox tezliklə reallıq kimi söhbət açacağıq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# TBMM Sədri Numan Kurtulmuş AŞPA-nın Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmaması ilə bağlı qəbul etdiyi qətnaməyə dair bəyanat verib

**Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmaması barədə qəbul etdiyi qətnaməyə dair bəyanat verib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bəyanatda AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin təsdiqlənməməsinə görə təəssüf bildirilir. Qeyd olunur ki, 2001-ci ildən bəri Avropa Şurasının üzvü olan Azərbaycan ötən dövrdə gördüyü işlər və əməkdaşlıqla bu təşkilatın əsas prinsiplərinin həyata keçirilməsinə əhəmiyyətli töhfələr verməklə yanaşı, mədəni müxtəlifliyin qorunub saxlanılması və mədəniyyətlərarası dialoqun təşviqi kimi günümüzün ən önəmli missiyalarının gerçəkləşdirilməsində də aparıcı rol oynayıb. Verilmiş qərar Avropa Şurası üzvü olan bir ölkənin AŞPA-nın fəaliyyətindən kənarlaşdırılması deməkdir.

Sənəddə deyilir ki, bütün dünyada geosiyasi gərginliklərin, siyasi qarşıdurmaların və münaqişələrin artmaqda olduğu bir dövrdə çoxtərəfli diplomatiya öz gücünü və mövqeyini itirməməlidir. AŞPA münaqişələrin deyil, dialoq və əməkdaşlığın əsasını təşkil etməlidir.

Bəyanatda TBMM olaraq AŞPA-nı dəstəklədiyi prinsipləri birmənalı şəkildə müdafiə etməyə, bölücü deyil, birləşdirici bir platforma olmağa və Azərbaycan Milli Məclisini təmsil edən nümayəndə heyətinin səlahiyyətlərini təsdiqləməyə çağırış edilir.

Bəyanatın sonunda Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin təsdiqlənməməsinə dair qərarın ən qısa zamanda nəzərdən keçiriləcəyinə inam ifadə olunur.

*"Azərbaycan"*

# Ombudsman mediada uşaq hüquqlarının pozulması ilə bağlı müraciət yayıb



**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatı tərəfindən aparılan araşdırmalara əsasən, mediada yetkinlik yaşına çatmayan şəxslərlə bağlı məlumatların, materialların media subyektləri və jurnalistlər tərəfindən yayılması zamanı qanunvericiliyin tələblərinin pozulması halları müşahidə edilir.**

Belə ki, bir çox media subyektləri tərəfindən yetkinlik yaşına çatmayan şəxslərlə bağlı dərc olunan və ya yayımlanan materiallarda həmin şəxslərin fotoşəkli, yaxud videogörüntüləri də daxil olmaqla, fərdi məlumatlarının aşkar surətdə verilməsi hallarına rast gəlinir. Bununla yanaşı, bəzi media subyektləri tərəfindən böyük izləyici kütləsini cəlb etmək məqsədilə uşaqların mənafeyinə, həyat və sağlamlığına zərər gətirməklə, onların iştirakı ilə sensasiya doğuran xəbər şəklində yayımlanan materiallar xüsusilə təəssüf doğurur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər ombudsman Səbinə Əliyevanın mediada uşaq hüquqlarının pozulması halları ilə bağlı müraciətində yer alıb.

Ombudsman qeyd edib ki, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinə əsasən, dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar.

"Media haqqında" qanunun 15-ci maddəsinə əsasən, media subyekti və jurnalist tərəfindən yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmasına yol verilmir.

Bununla yanaşı, həmin qanunda mediada informasiyanın dərc olunması və yayımlanması zamanı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə əməl edilməsinin vacibliyi təsbit edilib.

Media sahəsində fəaliyyət azadlığından və jurnalist hüququndan sui-istifadə edilməsi, yəni açıqlanması qanunla qadağan edilən informasiyanın yayılması və ya informasiya mənbəyinin qanunla yol verilməyən hallarda açıqlanması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Uşaqların həyat və sağlamlığı üçün təhlükə yaradacaq, onların özünə qəsd etməsinə səbəb ola biləcək materialların yayımlanması, belə materiallarda uşağa dair fərdi məlumatların yer alması yolverilməzdir.

Bu baxımdan, media subyektləri və jurnalistlər tərəfindən uşaqlarla bağlı hər hansı materialın yayılmasından öncə bunun səbəb ola biləcəyi nəticəyə mütləq diqqət yetirilməli və uşağın şəxsi və ailə həyatına, şərəf və ləyaqətinə hörmət edilməlidir.

Hazırlanan materialın məzmunu uşaqların hüquq və azadlıqlarına zidd olmamalı və onların qanuni mənafelərinə uyğun şəkildə istifadə edilməlidir. Bununla yanaşı, uşaqlar üçün təhlükəsiz olan, onların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şərait yaradılmalıdır.

"Qeyd edilənləri nəzərə alaraq, media subyektlərini və jurnalistləri peşə fəaliyyətlərini həyata keçirdikləri zaman uşaqların mənafelərini üstün tutmağa və uşaqlarla bağlı məlumatların yayılmasında həssas yanaşma nümayiş etdirməyə çağırıram", - deyə müraciətdə bildirilib.

# Mərakeşli jurnalistlər Ağdam, Əsgəran və Şuşaya səfər ediblər

**Azərbaycana səfər çərçivəsində bir qrup mərakeşli jurnalist Qarabağ iqtisadi rayonunun Ağdam, Əsgəran və Şuşa şəhərlərinə səfər edib.**



AZƏRTAC xəbər verir ki, jurnalistlər əvvəlcə Ağdam şəhərində Pənahəli xanın "İmarət" kompleksinə, Cümə məscidinə və Ağdam Dövlət Dram Teatrının qalıqlarına baxış keçirib, ermənilərin törətdikləri vandalizm aktlarının şahidi olublar. Qonaqlara tarixi abidələrimizin dağıdılması, Ağdamın baş planına uyğun olaraq aparılan bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilib.

Sonra Əsgərana yollanan nümayəndə heyəti burada aşkarlanmış kütləvi məzarlığa baxış keçirib, çəkilişlər aparıb.

Şuşa şəhəri ilə tanışlıq isə mərkəzi meydandan başlayıb. Burada jurnalistlər Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini, həmçinin Aşağı Gövhər ağa məscidini, Şuşa qalasını, Cıdır düzünü ziyarət ediblər.

Azərbaycan Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimovla görüşdə jurnalistlərə qədim şəhərin tarixi, işğal illərində məruz qaldığı vandalizm aktları, burada aparılan bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib. Xüsusi nümayəndə 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildiyini diqqətə çatdırıb.

Sonra mərakeşli jurnalistlərin sualları cavablandırılıb.

# Qafqazın ən qüdrətli Zəfər Ordusu

## İlham Əliyev dünyanın modern silahlı qüvvələrindən birini yaradır





**Qafqazda ən güclü orduya malik ölkə olan Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra da Silahlı Qüvvələrinin daha da modernləşməsi istiqamətində mühüm addımlar atır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, istehsal edilən yerli və xaricdən alınan hərbi texnikalar, silahlar Silahlı Qüvvələrimizin gücünə güc qatır.**

**Hazırda Azərbaycan, Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.**

### Dünya tarixində ilk "smart müharibə" aparan dövlətin yeni hədəfləri

Tarixinin ən qüdrətli Azərbaycanı İkinci Qarabağ müharibəsində öz hərbi gücünü dünyaya nümayiş etdirərək Silahlı Qüvvələrinin potensialını, nəyə qadir olduğunu göstərdi. Bəşər tarixində ilk "smart müharibə" aparan dövlət kimi dünya hərb salnaməsinə adını yazdıran Azərbaycan bu gün də silahlı qüvvələrini gücləndirir.

Müharibədən ötən müddət ərzində aparılan islahatlar və yeni silahlı birləşmələrin yaradılması, müasir silahlar və texnika ilə təchizat, ən nəhayət, hərbi təlimlər ordumuzun döyüş qabiliyyətini daha da yüksəltməkdədir.

Peşəkar ordunun formalaşdırılması çoxşaxəli prosesdir. Bunun üçün uzun illər, bəzən onilliklər tələb olunur. Zamanın reallıqları təsdiq edir ki, modernləşmə ən vacib şərtlərdən biridir.

Fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərində xalqdan yenidən etimad mandatı alaraq ölkə lideri seçilən İlham Əliyevin yüksəliş strategiyasının prioritetlərindən biri də ordu quruculuğu, dövlətin hərbi gücünün daha da qüdrətlənməsidir. Bu, hələ seçkidən öncə İlham Əliyevin elan etdiyi seçki platformasında da öz əksini tapmışdı. Qeyd edilirdi ki, dəyişən qlobal və regional təhlükəsizlik mühitinə müxtəlif amillərin artan təsiri ilə əlaqədar Azərbaycanın milli maraqlarına mümkün təhdidlərin adekvat cavablandırılması və ölkənin davamlı inkişafı üçün zəruri şəraitin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. İlham Əliyev tərəfindən həyata keçirilən siyasət bu sahədə qarşıda duran vəzifələrin yüksək səviyyədə həllini təmin edib, Azərbaycan qlobal və regional təhlükəsizliyə, sülhün, ədalətin qorunmasına, davamlı inkişaf üçün əməkdaşlığa mühüm töhfə verən ölkəyə çevrilib. Bu gün milli təhlükəsizlik siyasətinin bütün istiqamətləri üzrə - xarici siyasət, hərbi, ictimai, iqtisadi, sosial, ekoloji, informasiya, milli, dini və digər sferalarda vəzifələrin tam yerinə yetirilməsi dövlətimizin və cəmiyyətimizin mümkün təhdidlərdən etibarlı müdafiəsini təmin edir. Buna görə də Azərbaycanda daxili təhlükə mənbələri mövcud deyil, əsas təhdid və təhlükələr ölkə sərhədləri xaricində formalaşır.

Ona görə də 2024-2031-ci illərdə, yəni qarşıdakı 7 il ərzində milli təhlükəsizlik və müasir ordu quruculuğu sahəsində yeni hədəflər müəyyənləşdirilib. Bunlar - Azərbaycanın bütün sahələrdə təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün və konstitusiya quruluşunun hər cür təsirlərdən qorunması, müasir müdafiə sənayesi və infrastrukturun davamlı inkişaf etdirilməsi, milli təhlükəsizlik potensialının artırılması, dövlətin müdafiə qabiliyyətinin daha da gücləndirilməsidir.

Eyni zamanda hərbi quruculuq işlərinin və müasir ordu quruculuğu prosesinin davam etdirilməsi, ölkədə ictimai-siyasi sabitliyin, qanunun aliliyinin, vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin hər cür təsirlərdən qorunması, təhlükəsiz informasiya məkanının inkişaf etdirilməsi, ölkənin kibertəhlükəsizlik potensialının gücləndirilməsi, regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə bağlı tədbirlərin davam etdirilməsi və bu istiqamətdə səylərin dəstəklənməsi məsələsi də yeni hədəflərə daxildir.





### Silahlanmaya qəbul edilən "Akıncı" və artan güc

Vətən savaşında böyük döyüş təcrübəsi toplayan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində bu gün mühüm işlər görülür. Silahlı Qüvvələrimizin arsenalı Azərbaycanın müdafiə sənayesinin istehsal etdiyi hərbi texnika və silah-sursatlarla yanaşı, dost ölkələrdən, xüsusilə qardaş Türkiyənin hərbi sənayesinin məhsulları, o cümlədən də silahlı pilotsuz uçuş aparatları ilə daha da zənginləşdirilir.

Ümumiyyətlə, Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlıq təkcə iki qardaş ölkənin hərbi potensialının artırılması baxımından deyil, həm də bölgədə sülh və təhlükəsizliyin təmini baxımından da mühüm əhəmiyyət kəsb edir. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi zəfər nəticəsində Cənubi Qafqazda yaranan yeni geopolitik güc balansını təhlil edərkən Türkiyə-Azərbaycan ordularının hərbi əməkdaşlığının necə böyük rola sahib olduğuna hər kəs şahidlik etdi. Əlbəttə ki, iki qardaş ölkə arasında hərbi əməkdaşlığın dərinləşdirilməsi regionda davamlı sülhün təminatı deməkdir.

Fevralın 9-da bu istiqamətdə daha bir uğurlu addım atıldı. Türkiyənin "Baykar" şirkətinin "Akıncı" hücum PUA-sı Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya qəbul edildi. Bununla bağlı keçirilən mərasimdə İlham Əliyev və oğlu Heydər Əliyev, "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "Akıncı" hücum PUA-larının uçuşunu izlədilər. "Akıncı" hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn İlham Əliyev PUA-nın idarəolunmasını praktiki həyata keçirdi. PUA-nın yerə enməsini izləyən Prezident uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkdi.

Hər kəs yaxşı xatırlayır ki, 44 günlük Vətən müharibəsində məhz "Baykar" şirkətinin pilotsuz uçuş aparatları (PUA) vasitəsilə düşmənin komanda müşahidə məntəqələri, silah-sursat anbarları, hərəkətdə olan hərbi texnika və canlı qüvvəsi, ölkəmizin ərazisinə atılması hədəflənən "S 300" və digər raket kompleksləri məhv edilmişdir. Yəni əldə etdiyimiz şanlı zəfərdə "Bayraktar TB1", "Bayraktar TB2" PUA-larının əvəzsiz xidmətləri olub.

"Akıncı" hücum PUA-sı ilə iki il öncə, 2022-ci ilin may ayının 26-29-da Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan" festivalında tanış olmuşduq. Həmin zaman adıçəkilən PUA Türkiyədən təxminən 2 min kilometr məsafəni uğurla qət edərək Azərbaycana eniş etmişdi.

Bu pilotsuz uçuş aparatının inkişaf etdirilməsinə 2017-ci ilin may ayında başlanılıb. İlk uçuşu 2019-cu ilin dekabr ayının 6-da həyata keçirilib. İlk uçuş zamanı PUA 16 dəqiqə havada qalıb. Prototipin ikinci uçuşu isə 2020-ci ilin yanvar ayının 10-da reallaşıb. Həmin uçuş zamanı PUA 1 saatdan artıq havada qalıb. Hazırda isə "Baykar Holdinq" tərəfindən istehsal edilən "Akıncı" havada azı 24 saat fasiləsiz qala bilir. 12 min metrdən çox yüksəklikdə uçur və bazadan 150 kilometr uzaqda, tam avtonom rejimdə əməliyyatlar həyata keçirə bilir. Göyərtəsində 3 ədəd süni intellekt kompüteri olan "Akıncı" dronları eyni zamanda yerüstü kəşfiyyat aparır, sensorlar və yüksək həssaslığa malik kameralar vasitəsilə məlumatları toplayıb avtonom rejimdə analiz edə, habelə komanda mərkəzinə ötürə bilir. Digər mühüm özəlliyi isə odur ki, həmin pilotsuz sistemlər bütöv eskadrilya halında, avtonom rejimdə döyüşdə tətbiq edilə bilir, bu zaman dronlar süni intellekt vasitəsilə bir-biriləri ilə koordinasiya içərisində olur. "Akıncı" qiyməti 4-5 milyon dollar olan bir və ya bir neçə tankı asanlıqla məhv etmək iqtidarındadır.

"Akıncı" daxili yükü 450 kq və xarici yükü 900 kq olmaqla, 1350 kq ümumi yükdaşıma qabiliyyətinə malikdir. Hər biri 450 at gücündə (340 kVt) iki turbovintli mühərriklə işləyən PUA-nın maksimal havaya qalxma kütləsi 5,5 tondur. Bükülü qanad quruluşu ilə 20 metr qanad genişliyinə sahib olan təyyarə platforması, eyni zamanda tam avtomatik uçuş nəzarəti və 3 ehtiyat avtopilot sistemi sayəsində yüksək uçuş təhlükəsizliyi təmin edir. Faydalı yük tutumu sayəsində daşıyacağı milli sursatlarla əməliyyatlar icra edə biləcək "Akıncı" qanadlı raketlər atmaq qabiliyyətinə də malikdir. "F-16" döyüş təyyarələrinin icra etdiyi bəzi tapşırıqları da yerinə yetirən "Akıncı", burun hissəsində yerləşən ASLESAN istehsalı olan AESA radarı sayəsində yüksək vəziyyət sezmə bacarığına sahibdir.

### Hərbi sənayesinin inqilabi yenilikləri ilə dünyada tanınan Türkiyə

Dünyanın yalnız dörd ölkəsində istehsal olunan bu "Akıncı" PUA-ları Azərbaycan və Türkiyəyə qarşı olan qüvvələrə açıq-aşkar göndərilmiş mesajdır.

Ona görə də "Akıncı" PUA-larını Azərbaycanın bəzi ölkələri çəkindirməsi silahı kimi də dəyərləndirmək olar. Bu PUA-lar digər vasitələrlə birlikdə döyüş əməliyyatlarında vəziyyətə radikal təsiretmə imkanlarına malikdir. "Bayraktar TB2" PUA-larının sonrakı nəsli hesab edilən "Akıncı" həm də Türkiyənin hərbi sənayesinin sürətli inkişafının göstəricisidir. Əgər "Bayraktar TB2"-lər taktiki PUA hesab edilirsə, "Akıncı" PUA-ları operativ, taktiki və strateji vəzifələrin yerinə yetirilməsi üçün nəzərdə tutulur.

Ümumiyyətlə, siyasi-iqtisadi və hərbi gücünə görə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilən Türkiyə müasir dünyanın reallıqları fonunda gündən-günə gücünə güc qatır. Buna baxmayaraq, qardaş ölkə dördüncü sənaye inqilabının tələblərinə uyğun müasir texnologiyaların yaradılması və hərbi sənayenin potensialının daha da modernləşməsi, gücləndirilməsi istiqamətində mühüm addımlar atır. Xüsusən də hərbi gücünü daha da qüdrətləndirən Türkiyə bu sahədə inqilabi yeniliklərlə imza atır.

Türkiyə hərbi sənayesinin inkişafını görmək üçün son 5 ilə nəzər sala bilərik. Ölkəmizin İkinci Qarabağ müharibəsində öz sözünü deməsi Türkiyə hərbi sənayesinin inkişafının göstəricisidir. Türkiyə NATO üzvü olan ölkələr arasında ABŞ Silahlı Qüvvələrindən sonra ən böyük ikinci hərbi gücdür və NATO-nun nüvə paylaşma siyasətinin bir hissəsi olan beş ölkədən biridir.

Bu gün Türkiyə ölkənin müdafiə sənayesinin inkişafı, hərbi qüdrətinin artırılması istiqamətində mühüm proqramlar həyata keçirməkdədir. Hazırda qardaş ölkə müdafiə imkanlarını 80 faiz öz məhsulları ilə təmin edir. Türkiyə öz SİHA-ları (silahlı pilotsuz uçuş aparatlar) ilə dünyada ilk üç dövlətdən biridir. Son 5 ildə qardaş ölkənin müdafiə sənayesinin istehsal etdiyi hərbi texnikalara nəzər yetirək: "Bayraktar TB2"; "Akıncı", "Qızıl Alma" İnsansız qırıcı Təyyarəsi, "KAAN" Milli Döyüş Təyyarəsi, "Yeni Altay" tankı, "Super Şimşək" təyyarəsi, "TCG Anadolu" hərbi gəmisi, "ANKA-3" Qırıcı Pilotsuz Təyyarə Sistemi, "ATAK-2" 2500 at gücündə mühərrikə sahib olan helikopter.

Türkiyədə hər il keçirilən TEKNOFEST festivalında müdafiə sənayesi yeni silahlar, texnikalar təqdim edir. İstanbul şəhərində, Atatürk Hava Limanında Türkiyənin Havaçılıq, Kosmos və Texnologiya Festivalı - "TEKNOFEST-2023"-də də bunun şahidi olduq. 102 fərqli kateqoriyalarda 41 yarış üzrə 1 milyondan çox layihənin iştirak etdiyi festivalda "Qızıl Alma", "Akıncı" və ilk dəfə olaraq "Bayraktar-TB3" pilotsuz uçuş aparatları da ziyarətçilərə təqdim olundu.

Göründüyü kimi, Türkiyə yerli və milli müdafiə sənayesi tarixində demək olar ki, hər gün yeniliyə imza atır. Əlbəttə ki, Türkiyənin yeni-yeni pilotsuz uçuş aparatları, bu sahədəki uğurları Azərbaycanı da sevindirir.



### Fransanın regionda yeni savaş ocağı yaratmaq cəhdi...

Türkiyənin hərbi qüdrətinin artması Azərbaycanın güclənməsi deməkdir. Dost və qardaş ölkə ilə müdafiə sənayesi sahəsindəki əməkdaşlıq keçmişdə olduğu kimi, indi də yüksək səviyyədədir. Azərbyacanla Türkiyə arasında bu günə qədər keçirilən birgə hərbi təlimlərin sayı yüzlərlə ölçülür ki, buna da hər hansı bir digər ölkənin nümunəsində rast gəlmək mümkün deyil.

Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq təkcə iki qardaş ölkənin hərbi potensialının artırılması baxımından deyil, həm də bölgədə sülh və təhlükəsizliyin təmini baxımından da mühüm əhəmiyyət kəsb edir.

Amma görünən odur ki, İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni reallıqlar bəzi dairələri "narahat" edir. Son zamanlar Azərbaycana qarşı həyata keçirilən çirkin oyunlara əsaslanıb deyə bilərik ki, Cənubi Qafqazda sülhün təminatı bəzi Qərb dövlətlərinin "maraqlarına" zidd imiş. Bu xüsusda Fransanın timsalında bəzi Qərb dövlətlərinin sərgilədikləri mövqe onu göstərir ki, bu qüvvələr Cənubi Qafqazda sülhün bərqərar olmasını istəmirlər. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmaması üçün hər cür oyunlara əl atan rəsmi Paris regionu yenidən "qan çanağına" çevirmək xülyasındadır.

Ancaq bu qüvvələr onu da yaxşı bilirlər ki, Azərbaycanın qüdrətli Ordusu istənilən döyüş tapşırığını icra etməyə qadirdi. Bunu İkinci Qarabağ müharibəsi təsdiqləyib. Ordumuzun istənilən hərbi qüvvə ilə savaşmaq üçün həm gücü, qətiyyəti, həm də hərbi arsenalı var.

İlham Əliyevin həyata keçirdiyi islahatlar onu deməyə əsas verir ki, bu gün Silahlı Qüvvələrimiz vahid proqram əsasında inkişaf etdirilir. Prezidentin söylədiyi kimi, görülən işlərə, aparılan islahatların real nəticəsinə əsasən deyə bilərik ki, hazırda Azərbaycan Silahl Qüvvələri müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş ordumuzdan daha da güclüdür. Yəni Cənubi Qazqazda o ən güclü Zəfər Ordusu Azərbaycana məxsusdur.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# İlham Əliyevə ən böyük dəstək Qarabağ və Şərqi Zəngəzurdan gəldi

## Azad olunmuş ərazilərin sakinləri öz xilaskarlarına minnətdarlıqlarını yüksək etimadla ifadə etdilər

**2024-cü il fevralın 7-si salnamələrimizə bütöv Azərbaycanda keçirilən bayram coşqulu seçki tarixi kimi qızıl hərflərlə həkk olundu. Bu gün 30 il ərzində gəldiyimiz və çox çətinliklərdən, sınaqlardan keçdiyimiz, milli mənafeyimiz uğrunda mübarizə apararaq Zəfər qazandığımız möhtəşəm bir dövrün siyasi zirvəsi oldu. Necə ki Azərbaycan xalqı Vətən müharibəsində, 23 saatlıq antiterror tədbirlərində bir yumruğa dönərək erməni təcavüzkarlarına, bütün qərəzli beynəlxalq güclərə qarşı savaş apararaq Zəfər çaldı, eləcə də fevralın 7-də həmrəylik nümayiş etdirərək Vətənin bütövlüyünə, suverenliyinə, işıqlı və parlaq sabahlarına səs verdi.**



Vətəndaşlarımızın hər biri son 20 il ərzində Azərbaycanı yüksəltdiyi inkişaf mərhələsinə, eləcə də qarşıda ölkəni yeni-yeni uğurlara aparacağına doğan inam və güvənlə növbəti dəfə Prezidentliyə məhz İlham Əliyevi layiq gördülər.

Bu seçkilərdə İlham Əliyevə ən böyük dəstəyin Qarabağ və Şərqi Zəngəzurdan gəlməsi isə həm keçmiş məcburi köçkünlərin xilaskarlarına minnətdarlıq borclarını ödəməsi, həm də Azərbaycanı, onun zəfər və uğurlarını həzm edə bilməyən düşmənlərə verilən ibrətamiz və qürurverici dərs kimi yaddaşlara silinməz izlərlə yazıldı.

### Zəfər qürurunun təcəssümü

Bütöv Azərbaycanda baş tutan ilk seçki kimi Azərbaycan tarixinə yazılan 7 fevral prezident seçkiləri rekord göstəriciləri ilə də əlamətdar oldu. Son 20 il ərzində keçirilən prezident seçkilərində qalib namizədin qazandığı səslərin və seçici fəallığının möhtəşəmliyinə görə də rekord nəticə qeydə alındı. Belə ki, 2003-cü ilin 15 oktyabrında baş tutan və seçicilərin 71,23 faizinin iştirak etdiyi seçkilərdə prezidentliyə namizəd İlham Əliyev 76,84 faizlik etimadla qalib gəlmişdi. 2008-ci ilin 15 oktyabrında İlham Əliyevin 88,73 faizlə qalib gəldiyi seçkilərdə əhali fəallığı 75,66 faiz olmuşdu. 2013-cü ilin 9 oktyabrında keçirilən seçkilərdə İlham Əliyev 84,54 faizlə qalib gəlmiş, seçici fəallığı 72,31 faiz olmuşdu. 2018-ci ilin 11 aprelində isə nəticələr belə idi: İlham Əliyev - 86,02 faiz, seçici fəallığı 74,3 faiz. Bu il fevralın 7-də keçirilən seçkilərdə isə seçici fəallığı 76,73 faiz təşkil etdi. İlham Əliyev seçicilərin 92 faizindən çoxunun səsini qazandı.

Bu göstəricilər Azərbaycanı dinamik inkişaf mərhələsinə yüksəldən, beynəlxalq aləmdə söz sahibi edən, Zəfərlər ölkəsinə çevirən Müzəffər Lider İlham Əliyevə ümumxalq dəstəyinin möhtəşəm təcəssümü oldu.

### İlham Əliyev sözü

Ötən illər ərzində bir Prezident, vətəndaş olaraq İlham Əliyevin qarşısında duran ən prioritet məsələ heç şübhəsiz torpaqlarımızın işğaldan azad edilməsi, suverenliyimizin bərpası, keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarına qayıdışı idi. Buna görə də İlham Əliyev ötən prezidentlik fəaliyyəti dövrlərində bu milli məsələlərin həllini tapması üçün siyasi, diplomatik sahədə hərtərəfli iş apardı, ölkənin iqtisadi gücünün, hərbi qüdrətinin artırılması istiqamətində mühüm işlər həyata keçirdi. Görülən işlərin nəticəsi olaraq Azərbaycan xalqı son üç il ərzində ard-arda parlaq qələbələrə imza atdı.

44 günlük Vətən müharibəsində Şuşa Zəfəri ilə xalqımıza illərdir arzusunda olduğu möhtəşəm qələbə yaşadan Prezident İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda, Xocavənddə, Ağdərədə Azərbaycan bayrağını dalğalandıraraq ölkəmizin suverenliyini tam təmin etdi. Xalqımıza düşmən kəsilərək ona qarşı qətliamlar, soyqırımlar törədən erməni separatizminin kökünü kəsdi, Qarabağdakı yuvasını darmadağın etdi, onlardan Xocalının, bütün şəhidlərimizin qisasını aldı.

Düşmənin 30 il ərzində viran qoyduğu, bir həyat nişanəsi belə tapmaq mümkün olmayan Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuğa başlayan Qalib Lider İlham Əliyev dünyada bənzərinə rastlanmayan nəhəng layihələrə başladı, dağıdılmış yaşayış məntəqələrinin yerində təməllər qoydu. Böyük Qayıdışa uğurlu start verən İlham Əliyev söz verdiyi kimi, keçmiş məcburi köçkünləri öz doğma torpaqlarına qovuşdurmağa başladı. Bu gün artıq Qarabağ və Şərqi Zəngəzurda 5 yaşayış məntəqəsində - Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Zabux kəndlərində, eləcə də Füzuli və Laçın şəhərlərində minlərlə insan yeni və xoşbəxt həyata başlayıblar. Tezliklə bütün keçmiş məcburi köçkünlərimiz də qayıdış karvanları ilə yurdlarına dönəcəklər.

### Zəfər seçkisinin Müzəffər qalibi

Bütün bu sadalananların fonunda fevralın 7-də keçirilən prezident seçkilərində əhalinin işğaldan azad edilmiş ərazilərdəki məntəqələrdə seçkilərə daha mütəşəkkil qatılması da təəccüb doğurmadı. Keçmiş məcburi köçkünlərin Zəfər seçkisinə tamamilə ayrı ovqatda, yurdlarının azadlığının yaratdığı sevinc göz yaşları ilə qatılması xalqımızın hər bir üzvü üçün bir ayrı kövrək məqam oldu.

Azad edilmiş əraziləri əhatə edən seçki dairələri üzrə ən yüksək fəallıq 83,28 faizlə 122 saylı Xankəndi Seçki Dairəsində qeydə alındı. Qarabağ və Şərqi Zəngəzur əhalisini təşkil edən dairələrdə seçki fəallığı ölkə üzrə orta göstəricidən yüksək oldu.

Mərkəzi Seçki Komissiyasına daxil olan ilkin protokollara əsasən, İlham Əliyevin 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində 100 faiz səs topladığı məntəqələr də var. Həmin məntəqələr arasında Qarabağ və Şərqi Zəngəzurdan olan məntəqələrin sayının çox olması isə təbiidir. Belə ki, 84 saylı Füzuli və 85 saylı Füzuli-Ağcabədi seçki dairələri üzrə 4, 118 saylı Ağdam şəhər Seçki Dairəsi üzrə 3, 120 saylı Cəbrayıl-Qubadlı Seçki Dairəsi üzrə 3, 121 saylı Laçın və 122 saylı Xankəndi seçki dairələri üzrə 2, 123 saylı Kəlbəcər Seçki Dairəsi üzrə 6, 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd Seçki Dairəsi üzrə 5 seçki məntəqəsində İlham Əliyev 100 faiz səs toplayıb.

Göründüyü kimi, keçmiş məcburi köçkünlər onları illərdir həsrət qaldıqları Qarabağ və Şərqi Zəngəzura qovuşduran Zəfər Komandanına - İlham Əliyevə yekdilliklə səs verərək liderlərinə təşəkkürlərini, minnətdarlıqlarını bir daha nümayiş etdirdilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Demokratik, şəffaf, azad...

## Beynəlxalq müşahidəçilər vətəndaşlarımızın seçkidə öz iradələrini sərbəst ifadə etdiklərini təsdiqlədilər

**"Ölkədə keçirilmiş prezident seçkilərinə böyük beynəlxalq diqqət oldu. Bu, sözsüz ki, Azərbaycan dövlətinin hazırkı beynəlxalq münasibətlər və əməkdaşlıq sistemində kifayət qədər ciddi yeri və rolu ilə bağlıdır".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. O bildirib ki, müşahidə edilən reaksiyalardan İlham Əliyevin prezident seçiləcəyi ilə bağlı ciddi gözləntilər olduğu bəlli idi. Çünki məhz onun rəhbərliyi dövründə Azərbaycan çox etibarlı tərəfdaş obrazını formalaşdırmışdı. Azərbaycanın təşəbbüsləri bir çox istiqamətlərdə ümumi qlobal vəziyyətə təsir göstərdi. Bu baxımdan İlham Əliyevin növbəti dəfə prezident seçilməsi, tərəfdaşlarımızda çox ciddi müəyyənlik yaratdı. Ümumiyyətlə, ümumi ictimai rəy ondan ibarət oldu ki, seçkilər tam şəffaf, insanların sərbəst şəkildə öz hüquqlarını ifadə etmək imkanlarına malik şəraitdə keçirildi.

Deputat hesab edir ki, seçkilər mühüm siyasi hadisə olmaqla yanaşı, Azərbaycan xalqının ölkəmizin ərazi bütövlüyünü təmin edən liderə minnətdarlıq hissini ifadə etmə imkanı kimi qəbul edildi: "Hər bir vətəndaşımız içində minnətdarlıq hissi daşımaqdadır və seçkilər yolu ilə bunu ifadə edə bildi. Seçki hüququ olan vətəndaşlarımızın 76 faizindən çoxunun səsvermədə iştirakı bir daha onu deməyə əsas verir ki, bu, ümumxalq minnətdarlıq hissini ifadə etmə prosesi idi. Yəni prezident seçkiləri bu mənada unikal siyasi hadisə idi və tarixdə çox nadir hallarda müşahidə olunurdu".

E.Mirbəşiroğlu bildirib ki, beynəlxalq müşahidəçilər də Azərbaycanda seçkilərin yüksək tələblərə cavab verən səviyyədə keçirildiyini təsdiq etdilər. "Exit-poll"un nəticələri açıqlandıqdan sonra prezidentə ünvanlanan təbriklər də bunu bir daha sübut etdi. İlham Əliyevin prezident seçiləcəyi gözlənilən idi, çünki Azərbaycanda daxili ictimai rəy haqqında beynəlxalq səviyyədə aydın təsəvvürlər mövcud idi. Azərbaycan xalqı öz liderinə olduqca böyük dəyər verir, ona böyük etimad göstərir. "Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, Azərbaycanda artıq 16-cı ildir ki, seçki məntəqələrində vebkameralardan istifadə olunur. Prezident seçkiləri zamanı da 1000 seçki məntəqəsində ən müasir texnoloji üstünlüklərə malik veb kamera quraşdırılmışdı. Mərkəzi Seçki Komissiyasının rəsmi veb səhifəsi üzərindən daxil olaraq seçki prosesini dünyanın istənilən nöqtəsindən izləmək mümkün idi", - deyə o əlavə edib.

Bunun dünya üçün örnək olduğunu deyən deputat qeyd edib ki, Azərbaycan nə dərəcədə şəffaf seçkilər keçirdiyini nümayiş etdirdi. O hesab edir ki, Azərbaycanın bu təcrübəsindən demokratiyadan dünyaya dərs keçmək istəyən ölkələrdə də tətbiq olunsa, yaxşı olar. Ayrıca olaraq dünyanın ən nüfuzlu media strukturlarının təmsilçiləri də seçki prosesini izlədilər. Onlar hər şeydən əvvəl seçici aktivliyini qeyd etdilər. Bütün məntəqələrdə səs vermək üçün növbə var idi. Beynəlxalq mediada önə çəkilən məqam ondan ibarət idi ki, insanlar növbəyə duraraq öz seçki hüquqlarından istifadə etməyə tələsirdilər. Bunun özü elə şəffaflığın, demokratiyanın göstəricisidir. Əgər vətəndaş seçkilərin şəffaflığı ilə bağlı hər hansı şübhəyə malik olsaydı, bu dərəcədə aktivlik nümayiş etdirməzdi.

Deputat vurğulayıb ki, seçkilərin demokratik tələblərə və şəffaflıq prinsiplərinə uyğun keçirildiyini sübut edən əsas göstərici seçici aktivliyidir: "Hesab edirəm ki, beynəlxalq müşahidəçilər də əsasən məhz bu reallıqdan çıxış ediblər. Məsələnin ikinci tərəfi isə ondan ibarətdir ki, 800-ə yaxın beynəlxalq müşahidəçi seçki prosesini yaxından izlədikdən sonra mətbuat üçün brifinqlər keçirdilər. Demək olar ki, beynəlxalq təşkilatlarda təmsil olunan nümayəndələrin hamısı bunu etdilər. Onlar seçkilərin yüksək standartlara uyğun keçirildiyini vurğuladılar və medianın suallarına cavab verməyə hazır olduqlarını bildirdilər. Demək olar ki, praktiki olaraq suallar yox idi. Çünki media təmsilçiləri də seçkilərin necə şəffaf, demokratik prinsiplərə uyğun keçirildiyini gözləri ilə görmüşdülər. Dünya mediası Azərbaycandakı seçkiləri yüksək qiymətləndirdi".

Deputat qeyd edib ki, bütün bunlar Azərbaycanda siyasi sistemin effektivliyinin göstəricisidir. Yəni bir ölkədəki seçki kimi mühüm siyasi proses tam demokratik və şəffaf şəraitdə başlayıb, sona çatırsa, deməli, o ölkənin siyasi sistemi kifayət qədər effektivdir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə ölkəmizin siyasi sistemi olduqca yüksək keyfiyyət elementlərini özündə ifadə edə bilib. Bu baxımdan Azərbaycanda xalq öz iradəsini sərbəst şəkildə ifadə etmək imkanına sahibdir. Azərbaycan dövlətinin, liderinin xalqına münasibətini ifadə edən əsas məqam da məhz bundan ibarətdir. Beynəlxalq müşahidəçilərin də əsas vurğuladığı o idi ki, Azərbaycan vətəndaşı sərbəst şəkildə öz iradəsini ifadə edərək səs hüququndan istifadə etdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Beynəlxalq müşahidəçilərin rəyi reallığı əks etdirir

## Azərbaycanın seçki təcrübəsi bir çox ölkələr üçün nümunə ola bilər

**Ölkəmizdə keçirilən prezident seçkiləri və beynəlxalq təşkilatların, müşahidəçilərin seçki prosesi ilə bağlı rəyləri bu gün də müzakirə mövzusudur. Siyasi ekspertlər hesab edirlər ki, Azərbaycan həmişə olduğu kimi, bu dəfə də seçkiyə beynəlxalq müşahidəçiləri dəvət edib və onlar həm uzunmüddətli, həm də qısamüddətli müşahidələr vasitəsilə prezident seçkilərinə qiymət veriblər.**



Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, xarici müşahidəçilərin ümumi qənaəti ölkəmizdə seçki prosesinin yaxşı təşkil edildiyi ilə bağlı olub. Müşahidəçilər insanların seçim etməsi üçün bütün şəraitin yaradıldığını və seçki prosesinin demokratik, şəffaf şəraitdə keçdiyini vurğulayıblar: "Bu, ümumilikdə bütün beynəlxalq müşahidəçilərin rəyi idi. Onlar tək paytaxt Bakıda deyil, respublikamızın regionlarında da müxtəlif seçki məntəqələrinə baş çəkmişdilər. Müşahidəçilər seçkidən əvvəl keçirilmiş tədbirlərdə də iştirak etmiş, seçki təbliğat vasitələrinin yayılmasını müşahidə etmək imkanı qazanmışdılar. Ümumən, beynəlxalq müşahidəçilərin Azərbaycanda prezident seçkiləri ilə bağlı yekun rəyi yüksək və müsbətdir", - deyə o əlavə edib.

Prezident seçkilərinin ilk dəfə olaraq bütün Azərbaycan ərazisində keçirildiyini xatırladan deputat bildirib ki, Prezident İlham Əliyevin ailə üzvləri ilə birlikdə Xankəndidə səs verməsi də Azərbaycanın ərazi bütövlüyünü təmin etdiyini, suverenliyini tam bərpa etdiyini göstərdi.

Ümumiyyətlə, prezident seçkilərinin yüksək səviyyədə, tam şəffaf və demokratik prinsiplərə uyğun keçirilməsinin səbəbi, əlbəttə ki, Azərbaycanın seçki təcrübəsi və mükəmməl qanunvericilik bazasının mövcudluğudur. Suverenliyimizin bərpası ilə həyatında yeni dövr başlayan Azərbaycan 7 fevral prezident seçkilərini azad, şəffaf, beynəlxalq standartlara uyğun keçirməklə özünün demokratik inkişaf tarixinə yeni parlaq səhifəni yazdı.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan yeni seçki mədəniyyətini nümayiş etdirdi

**Müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisində keçirilən prezident seçkiləri əvvəlki seçkilərdən həm fəallığı, həm təşkilati, həm də seçicilərin münasibəti baxımından olduqca fərqli oldu. Fevralın 7-də keçirilən prezident seçkilərini cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi möhtəşəm 20 ilin hesabatı, yeni dövrün başlanğıcı da adlandırmaq olar.**



Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən xalqa verdiyi bütün sözləri yerinə yetirib. Ən başlıcası isə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Qarabağ münaqişəsini birdəfəlik həll, işğalda olan torpaqlarımızı azad etməklə möcüzəvi bir uğura imza atdı. Azərbaycan xalqının xəyallarını gerçəkləşdirdi. Ermənistanın xarabazara çevirdiyi kəndlərimizi, şəhərlərimizi yenidən bərpa edərək Qarabağı gülüstana çevirməkdədir.

2024-cü il fevralın 7-də keçirilən seçkilər zamanın sifarişi idi. 30 ildən sonra ilk dəfə dövlət bayrağımızın dalğalandığı bütöv Azərbaycanda ədalətli, şəffaf seçkilər keçirildi. Seçkilərin beynəlxalq standartlara uyğun, demokratik keçirilməsi üçün dövlət hər cür imkan və şəraiti yaratdı. İşğaldan azad olunan ərazilərdə 26 seçki məntəqəsi yaradılaraq internetlə təmin edildi. Azərbaycanlılar müstəqillik tariximizdə ilk dəfə Xankəndidə, Şuşada və azadlığa qovuşmuş digər ərazilərimizdə konstitusiya hüquqlarından azad və sərbəst şəkildə istifadə etdilər.

Seçkilərdə əsas diqqət şəffaflığın təmin edilməsinə yönəlmişdi. Mərkəzi Seçki Komissiyasının (MSK) Azərbaycan, rus, ingilis dillərində fəaliyyət göstərən "Seçki-2024" Müstəqil Media Mərkəzi fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkilərinin müxtəlif mərhələlərini, səsvermə prosesini, seçki institutlarının, müşahidə missiyalarının, ekzitpol (exit-poll) keçirən təşkilatların fəaliyyətlərini dolğun şəkildə Azərbaycan ictimaiyyətinə, yerli və xarici media nümayəndələrinə operativ şəkildə çatdırmaqla seçki tariximizdə uğurlu fəaliyyət göstərdi.

Seçki prosesi ilə bağlı səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatları, eyni zamanda seçkilərlə bağlı foto və videomateriallar vasitəsilə məlumatlar vaxtaşırı respublika və dünya ictimaiyyətinə çatdırıldı.

Seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən istifadə etməklə səsvermə günü məntəqələrdə quraşdırılan veb-kameralar vasitəsilə seçki prosesi əvvəldən axıradək fasiləsiz olaraq işlıqlandırıldı.

İstər ölkə daxilində, istərsə də xaricdə internet istifadəçiləri səsvermə günü Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini fasiləsiz müşahidə etdilər.

Çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, media mənsublarının və müxtəlif aşkarlıq institutlarının seçki kampaniyasında heç bir maneə olmadan azad və sərbəst şəkildə iştirakları təmin edildi.

Prezident seçkilərini müşahidə edən Parlamentlərarası Assambleyanın, Asiya Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının Gənclər Təşkilatının, TÜRKPA-nın Beynəlxalq Münasibətlər və hüquq komissiyasının, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Xəzər Strateji Araşdırmalar İnstitutunun, o cümlədən Türkiyə, Pakistan, Özbəkistan, Bosniya və Herseqovina, Meksika, Belarus, Mərakeş, Kamboca, İordaniya, İraq və Ərəb parlamentinin nümayəndə heyətlərinin yaydıqları bəyanatlarda, hesabatlarda seçkilərin rahat, dinc şəraitdə keçməsi barədə açıqlamaları, seçkiləri müşahidə edən ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı, "Rəy" Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzinin keçirdiyi "exit-pol"ların nəticəsi ilə MSK-nın açıqladığı rəqəmlərin üst-üstə düşməsi vətəndaşlarda əsl bayram ovqatı yaratdı. Prezident seçkiləri beynəlxalq KİV-in diqqət mərkəzində oldu. Dünyanın aparıcı mətbu orqanlarında yayımlanan məqalə və reportajlarda, məntəqələrdə birbaşa edilən canlı yayımlarda beynəlxalq medianın nümayəndələri səsvermə prosesinin şəffaf və demokratik şəraitdə keçdiyi barədə məlumat verdilər. Dünyanın nüfuzlu "Associated Press" agentliyi seçki məntəqələrindən canlı yayımında seçicilərin fəallıqla səs verdiklərini, seçki prosesinin sərbəst, maneəsiz şəkildə davam etdiyini vurğuladı.

Seçkilərin gedişi, nəticələri, yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə səsvermə prosesi barədə Almaniyanın "ZDF" telekanalı, Argentinanın "realpolitik.com.ar", İndoneziyanın "Radio Republik İndoneziya" radiosu, Rusiyanın "Vedomosti", Bəhreynin "Newsofbahrain.com" portalı, Çilinin "el periodista" saytı və digər media orqanları da yazıblar. Xüsusi vurğulanıb ki, seçkilərdə müşahidə aparmaq üçün 790 nəfər beynəlxalq müşahidəçi, eyni zamanda siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının çoxminli müşahidəçilər qrupu seçkiləri anbaan izləyiblər. Beynəlxalq KİV-də prosesin azad, şəffaf və demokratik şəraitdə keçməsi haqqında materiallar dərc edilib, məlumatlar verilib.

7 fevral prezident seçkiləri yeni dövrün başlanğıcı olduğu kimi, Azərbaycanda yeni seçki mədəniyyətinin yarandığını da bütün dünyaya göstərdi. Ölkəmizdə fəaliyyətdə olan əksər siyasi partiyalar seçkilərdə qazandağı inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İlham Əliyevin böyük qələbəsi

## Dünya mediası Azərbaycanda keçirilən prezident seçkilərini belə dəyərləndirdi

**Fevralın 7-də keçirilən prezident seçkiləri bir daha təsdiq etdi ki, ölkəmiz demokratiya yolu ilə inamla irəliləyir. Ona görə də bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın siyasi tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü. Seçkinin nəticələri dünyanın nüfuzlu siyasi dairələri, o cümlədən də xarici KİV tərəfindən yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı.**






















































Azərbaycanın son 20 ildə əldə etdiyi və dünya miqyasında təqdir olunan nailiyyətləri prezident seçkilərində xalqın seçiminin yenə İlham Əliyev olacağına dair əvvəldən verilən proqnozları özünü tam doğrultdu. Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan sürətli inkişaf yolu keçib, beynəlxalq mövqeyini möhkəmləndirib, Cənubi Qafqazın lider ölkəsinə çevrilib. 2003-cü ildən etibarən Azərbaycana rəhbərlik edən İlham Əliyev sabitlik və dayanıqlı inkişafı təmin etməklə yanaşı, ölkəni beynəlxalq müstəvidə də söz və nüfuz sahibinə çevirə bilib.

Bu fonda İtaliyanın əsas mətbu orqanları prezident seçkilərində İlham Əliyevin qazandığı inamlı qələbəni diqqət mərkəzində saxlamaqda davam edir. "İl Sole 24 Ore", "Quotidiano Nazionale", "il Dolomiti", "Internazionale", "Tiscali", "Corriere del Ticino", "Tag24", "Destra", "L`osservatore Romano" kimi media orqanlarının yaydıqları məlumatlarda İlham Əliyevin seçkilərdə səslərin 92 faizdən çoxunu toplayaraq böyük üstünlüklə qalib gəldiyi vurğulanır. Müxtəlif dövlət və hökumət başçılarının Prezident İlham Əliyevi inamlı qələbəsi münasibətilə təbrik etdikləri diqqətə çatdırılır.

Dünya mediasında əraziləri üzərində suverenliyini tam bərpa edən Azərbaycanın bundan sonra da inkişafını möhkəmləndirəcəyinə və Ermənistanla sülh sazişi imzalamağı qarşısına məqsəd qoyduğu bildirilir. İnformasiyalarda seçki prosesi barədə də məlumatlar verilir, Azərbaycan Prezidenti İlham Əliyev və ailə üzvlərinin Xankəndi şəhərindəki seçki məntəqəsində səs verdikləri qeyd olunur. İşğaldan azad edilmiş ərazilərimizdə 26 seçki məntəqəsinin qurulduğu, 30 ildən sonra Azərbaycanın bütün ərazisində ilk seçkilərin keçirildiyi diqqətə çatdırılır.

Rusiyanın "Ria Novosti" nəşri isə yazıb ki, Azərbaycanda prezident seçkilərinin əsas özəlliyi səsvermənin Qarabağda ilk dəfə baş tutması idi: "Seçki günü Rusiya nümayəndə heyəti Qarabağa yollanıb. Azərbaycanın hər bir kəndinin girişində şəhidlərin - 2020-ci il müharibəsi zamanı həlak olan hərbi qulluqçuların fotoşəkilləri olan stendlər var. Kənd qəbiristanlıqlarında ayrıca xiyabanlar var, orada qəbirlər xüsusi dam örtükləri altındadır, məkan dövlət bayraqları ilə bəzədilib. Qarabağa daxil olarkən təhlükəsizlik qüvvələri pasportları yoxlayır, sonra ayrı-ayrı rayonların sərhədlərində qurulmuş nəzarət-buraxılış məntəqələrindən keçir. Regionda yolların kənarında minalanmış ərazilərin olduğuna dair xəbərdarlıq lövhələri var. 2020-ci il müharibəsindən sonra 350 nəfər partlayıcı qurğuların qurbanı olub. Yol kənarlarında dağılmış və tərk edilmiş evlər görünür. Eyni zamanda minalardan təmizlənmiş ərazilərdə tikinti texnikası işləyir, yeni yollar, körpülər tikilir. İlk dayanacağımız Laçın rayonunun Zabux kəndidir. Burada seçki məntəqəsi məktəb binasında yerləşir, yerli sakinlər girişdə sıxlıq yaratmışdılar. Onlardan biri jurnalistlərlə danışmağa razılaşır. "Bu gün tarixi gündür! 1992-ci ildə, 30 yaşım olanda buradan ayrılmışdım. Keçən ilin payızında bura qayıtdım. Dövlət bizə pulsuz evlər tikib verib, işıq, qaz, rabitə xətləri çəkilib. Ölkə rəhbərliyinə yalnız təşəkkür edə bilərəm", - Şakir adlı sakin deyir. Ardından Laçın şəhərinə gedirik, burada da seçki məntəqəsinin ətrafında qələbəlikdir. Kütlə arasında tələbələr də var. Onlardan biri "İzvestiya"ya bildirib ki, hazırda iki şəhərdə - Bakı və Laçında yaşayır. "Paytaxtda Dövlət Bədən Tərbiyəsi İnstitutunda oxuyuram. Amma ali məktəbi bitirdikdən sonra tamamilə Qarabağa köçməyi planlaşdırıram və məktəb müəllimi kimi işə düzəlmək istəyirəm", - o deyib. Maraqlıdır ki, həmsöhbətimiz rus dilində də yaxşı danışır".

"Rossiyskaya qazeta" isə yazır ki, Azərbaycanda prezident seçkiləri başa çatıb. Heç bir təsadüf olmayıb: qalib rekord seçici fəallığının qeydə alındığı prezident seçkilərində 92 faizdən çox səs toplayan hazırkı dövlət başçısı İlham Əliyev olub. Bildirilib ki, Azərbaycan cəmiyyətində misli görünməmiş konsensus hökm sürür: "İnsanlar əmindirlər ki, indi ölkə iqtisadiyyatının inkişafı, eləcə də dost ölkələrlə əlaqələrin möhkəmləndirilməsi ilə daha da intensiv məşğul olmalıdır".

Qeyd edilib ki, fevralın 7-də keçirilən prezident seçkilərində maraqlı yeniliklər də var idi: "Məsələn, qeyri-qanuni təkrar səsvermə ehtimalını aradan qaldırmaq üçün seçki məntəqələrinin girişində hər bir seçicinin baş barmağı skan edilərək onun biometrik məlumatları xüsusi məlumat bazasına daxil edilib. Buna görə də hər hansı seçki məntəqəsinə yenidən daxil olub ikinci dəfə səs vermək mümkün deyildi".

"Lenta.ru" portalı isə yazıb ki, Azərbaycanda 7 namizədin iştirak etdiyi prezident seçkiləri əvvəlkilərdən fərqlənib. Qarabağın azad edilməsindən sonra ilk dəfə olaraq prezident seçkiləri ölkənin bütün ərazisini əhatə edib, 125 seçki dairəsi üzrə 6537 seçki məntəqəsində 6,5 milyondan çox seçici iştirak edib. Beynəlxalq ekspertlərin fikrincə, Qarabağ probleminin həllindən sonra İlham Əliyevin populyarlığı xeyli artıb: "Bunu nəşrimizin müxbirinin seçkilərə bir neçə gün qalmış Bakı küçələrində keçirdiyi sorğular da təsdiqləyib. Yerli sakin Sahib Məmmədov "Lenta.ru"ya açıqlamasında qalan altı namizədin zəif olduğunu deyib: "O, çox balanslaşdırılmış daxili və xarici siyasət yürüdür. Onun Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya dövlət başçısı Vladimir Putinlə çox yaxşı dostluq münasibətləri var. Onun sözlərinə görə, bu məsələdə azərbaycanlıların ən ağır probleminə çevrilən Qarabağı azad etməsi mühüm rol oynayıb: "Dünyada hər hansı prezidentin öz torpaqlarını işğaldan azad etməsi ilə bağlı başqa nümunə yoxdur. Bunu heç kim edə bilməz, amma bizim prezidentimiz, Ali Baş Komandanımız bunu edə bilib".

Portal daha sonra yazır ki, bir qrup rusiyalı jurnalist azad edilmiş ərazilərdə üç seçki məntəqəsinə baş çəkib və heç birində qanun pozuntusu qeydə almayıblar: "Bütün seçicilər bir nəfər kimi İlham Əliyevi açıq şəkildə dəstəkləyərək doğma torpaqlarına qayıtmaq imkanına, yeni evlərə görə ona təşəkkürlərini bildirirdilər".

Digər Rusiya nəşri "gazeta.ru" yazır ki, hazırkı prezident İlham Əliyev inamlı qələbə qazanaraq digər namizədləri xeyli geridə qoydu: "MDB-nin baş katibi Sergey Lebedev bundan əvvəl bildirib ki, seçicilərin çoxluğu respublika sakinlərinin seçkiyə yüksək marağından xəbər verir. O, həmçinin bunu Azərbaycan vətəndaşlarının sülhün, sabitliyin və əmin-amanlığın qorunması üçün əlindən gələni etməyə hazır olmalarının nümayişi hesab edib. Rusiya prezidenti Vladimir Putin artıq İlham Əliyevə zəng edərək onu prezident seçkisində inamlı qələbəsi münasibətilə ürəkdən təbrik edib və ona yüksək dövlət vəzifəsində fəaliyyətində yeni uğurlar arzulayıb".

Almaniyanın "ZDF" telekanalı da seçkilərin gedişi, nəticələri, yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə səsvermə prosesi barədə yazıb. Qeyd edilib ki, seçkilərdə müşahidə aparmaq üçün 790 nəfəri beynəlxalq müşahidəçi olmaqla, minlərlə müşahidəçi, siyasi partiyaların təmsilçiləri və qeyri-hökumət təşkilatlarının üzvləri prosesin azad, şəffaf və demokratik şəraitdə keçdiyinə şahid olublar. Xüsusilə diqqətə çatdırılıb ki, bu seçkilər Azərbaycan müstəqilliyinin bərpasından sonra bütün ölkə ərazisində baş tutan ilk seçkilər kimi ölkə tarixinə düşüb.

"ZDF" telekanalı Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müsahibəsini yayımlayıb. Müsahibədə Azərbaycan Prezidentinin bəzi fikirlərinin xarici mətbu orqanlarda təhrif olunmasına da aydınlıq gətirilib, Azərbaycanın heç bir ölkəyə qarşı ərazi iddialarında olmadığı bildirilib. Bununla yanaşı, azərbaycanlıların tarixən indiki Ermənistan ərazilərində yaşamalarının danılmaz fakt olması, həmin insanların dədə-baba torpaqlarını ziyarət etmək hüququna malik olmalarının vacibliyi vurğulanıb. Qeyd edilib ki, Ermənistan üçtərəfli Bəyanatın müddəalarına sadiqlik nümayiş etdirməli, kommunikasiyaların açılması ilə bağlı öhdəliklərini yerinə yetirməli, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz hərəkətin təmin olunmasına şərait yaratmalıdır.

Prezident seçkilərinin nəticələri Gürcüstan mediasının da diqqət mərkəzində olub. "İnterpressnews.ge", "sputnik-georgia.ru", "qafqazturk.com", "newsday.ge", "ambebi.ge", "adjaratv.ge", "accentnews.ge", "24news.ge", "realnews.ge", "aktual.ge", "kavkasia.net" informasiya portalları, "imedi", "1tv.ge", "rustavi2" televiziya kanalları seçkilərin ilkin nəticələrinə dair "exit-poll"arın hesabatlarını, eləcə də Azərbaycan Mərkəzi Seçki Komissiyasının ilkin nəticələri barədə ətraflı məlumat yayıblar. Azərbaycan, rus, gürcü və ingilis dillərində yayımlanan materiallarda İlham Əliyevin seçicilərin 92 faizdən çoxunun səsini toplamaqla yenidən Azərbaycan Prezidenti seçildiyi qeyd olunub.

Avropa, ABŞ, həmçinin Yaxın Şərq və Asiyanın, o cümlədən Çin və Pakistanın media orqanları qeyd ediblər ki, seçkilər ilk dəfə Azərbaycanın müasir tarixində ölkənin öz ərazisi üzərində tam nəzarəti əldə etməsi şəraitində keçirilib. Ölkə ərazisinin təxminən 20 faizi 30 il ərzində işğal altında olub. "Associated Press", "The Washington Post", "Euronews" kimi nüfuzlu media orqanları səsvermə günü seçicilərin yüksək fəallığını və əhvali-ruhiyyəsini qeyd ediblər.

Bəhreynin "The Daily Tribune" qəzeti Azərbaycandakı seçkiləri sabitliyə və inkişafa sədaqətin nümunəsi olan mühüm hadisə adlandırıb, Pakistanın "The Express Tribune" nəşri isə seçkiləri ölkə tarixində dönüş nöqtəsi, hər bir vətəndaşın respublikanın taleyinin müəyyən edilməsinə cəlb olunmasının rəmzi kimi xarakterizə edib.

Dünyanın digər mətbu orqanlarında da Azərbaycanın son illərdə yürütdüyü uğurlu siyasətinin, dövlət başçısının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində fəaliyyətinin əhalinin seçkilərdə aydın qərar verməsinə və Prezident İlham Əliyevin qalib gəlməsinə aparıb çıxardığı vurğulanıb. Səsvermənin nəticələri elan olunduqdan sonra paytaxt Bakıda və regionlarda insanların böyük coşqu və sevinclə bayram etməsi, səsvermədən öncəki sorğuların seçkilərin nəticələri ilə üst-üstə düşdüyü diqqətə çatdırılıb.

***Hazırladı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## "Makron Fransa tarixinə ən uğursuz prezident kimi düşəcək"

**"Fransa beynəlxalq münasibətlər sistemində xüsusi çəkisi olan dövlətdir. Lakin dövlətə rəhbərlik edən şəxsin beynəlxalq aləmdə heç bir hörməti yoxdur. Bakı və Paris arasındakı mövcud gərginliyin əsas səbəbkarlarından biri də məhz prezident Emmanuel Makrondur. Makron hakimiyyətinin beynəlxalq hüquqa və ümumbəşəri dəyərlərə zidd mövqeyi ölkənin reytinqini son dərəcə aşağı salıb. Fransızlar Makronu 2022-ci ildə ikinci dəfə ölkəyə rəhbər seçdiklərinə görə peşman olublar".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Makron Fransası Afrikadan qovulmuş, iqtisadiyyatı zəifləmiş, sosial ehtiyacları ödənməmiş Fransadır: "Bu gün ölkədə xalq etirazları baş alıb gedir, əhalinin əksər hissəsinin gəlirləri azalıb. Fransalıların böyük əksəriyyəti Makronun fəaliyyətindən çox narazıdır, çünki o, təpədən dırnağa qədər ermənipərəst siyasət həyata keçirməklə ölkəsinin problemlərini və vətəndaşlarının ehtiyaclarını unudub".

Elman Nəsirov bildirib ki, Makrondan əvvəlki 24 prezidentin heç biri onun qədər ermənipərəst olmayıb: "Ona görə də Makronu, əslində, fransızların yox, Fransadakı erməni lobbisinin rəhbəri adlandırmaq olar. Fransa Vətən müharibəsində açıq şəkildə Ermənistanın tərəfini tutub. Nəticədə məğlubiyyətə uğrayan Makron bu gün Azərbaycanın yeni hərbi-siyasi reallıq yaratması ilə barışa bilmir və regionun daxili işlərinə müdaxilə etməyə cəhd göstərir".

Deputat vurğulayıb ki, bu gün Fransanın özünün maraqlarını kənara qoyaraq ermənilərin cılız maraqlarına xidmət edirmiş kimi görünməsi aldadıcı görünə bilər: "Aydındır ki, Makron heç də ermənilərin maraqlarını təmin etmək məqsədilə onları müdafiəyə qalxmır. Burada əsas səbəb Cənubi Qafqazda möhkəmlənmək istəyidir. Ona görə də Fransa regiona sülh və əmin-amanlığın deyil, əksinə, növbəti bir müharibənin gəlməsinin tərəfdarıdır. Bu çirkin niyyətlərini həyata keçirmək üçün də Ermənistanı silahlandırır və revanşizmi dəstəkləyir. Təsadüfi deyil ki, AŞPA-dan Azərbaycana qarşı göstərilən təzyiqlərin də dirijoru məhz Yelisey sarayıdır. Amma yəqin ki, 2027-ci ildə onun prezidentliyinə son qoyulacaq və Makron Fransa tarixinə ən uğursuz prezident kimi düşəcək".

Makronun siyasətinin ilk növbədə Fransanın öz maraqlarına zidd olduğunu vurğulayan Elman Nəsirov əlavə edib: "Bu prezident ölkəsinin gələcəyini böyük sual altında qoyur. Öz hakimiyyətini qoruyub saxlamaq üçün Fransadakı erməni lobbisinin əlində bir alətə çevrilib. Bu, Fransa siyasətinin biabırçılığıdır".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

## Rəsmi Paris Ermənistanı məhvə aparır

**Fransa illərdir ki, Azərbaycana qarşı açıq-aşkar məkrli mövqe nümayiş etdirir, davamlı olaraq təxribatlara əl atır, qərəzli planlar qurur. Halbuki buna heç bir əsaslı səbəbi də yoxdur.**

Azərbaycan dünyada daim sülhü, sabitliyi dəstəkləyən, hər zaman ədalətli mövqe nümayiş etdirən bir dövlətdir. Heç zaman özgə ölkələrin ərazilərində gözü, təmənnası olmayıb. Əgər Fransa iddia etdiyi kimi demokratik dövlət olsaydı, ölkələrarası münasibətlərdə bunları daim diqqət mərkəzində saxlayar, işğalçıların deyil, işğala qarşı çıxanların, münaqişə ocağı yaradanların deyil, sülhün bərqərar olmasına çalışanların, terror törədənlərin, dinc günahsız insanları qətlə yetirənlərin və ya əlil qoyanların deyil, bütün xalqların, millətlərin nümayəndələrinə humanist yanaşanların yanında dayanardı. Ancaq rəsmi Paris atdığı addımlarla hər an Farnsanın özünün də müstəmləkəçi dövlət olduğunu, işğal etdiyi ərazilərdə əhaliyə divan tutduğunu, faciələr yaşatdığını xatırladır.

Ermənistanın növbəti təxribatı nəticəsində 2020-ci ilin payızında başlayan və Azərbaycanın Zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsində də, təəssüf ki, Fransa bədxahlığını bir daha göstərdi. Təcavüzkar, qəsbkar Ermənistanı açıq və birmənalı şəkildə dəstəklədi.

Öz vətəninin torpaqlarını azad etmək uğrunda döyüşən Azərbaycan Ordusu tərəfindən işğalçı ölkənin silahlı qüvvələrinin ard-arda məğlubiyyətə uğradılması ilə barışa bilməyən rəsmi Paris beynəlxalq təşkilatlar, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı (BMT) Təhlükəsizlik Şurası çərçivəsində dəfələrlə ölkəmizə qarşı müxtəlif sənədlərin qəbul edilməsinə səy göstərdi.

Müharibənin davam etdiyi günlərdə Fransa prezidenti Emmanuel Makron dönə-dönə Prezident İlham Əliyevə zəng edərək Azərbaycandan hərbi əməliyyatları dayandırmasını istədi. Buna nail olmadıqda guya ordumuzun sıralarında xarici muzdluların olduğunu, Azərbaycanın Qarabağdakı mülki erməniləri hədəfə aldığını iddia etdi. Ancaq Fransa rəhbərliyi yalan ittihamlar, təhdidlərlə işğalçı Ermənistanı məğlubiyyətdən qurtara bilmədi. Azərbaycan Ordusu otuz ilə yaxın erməni vandallarının əsarətində qalmış doğma torpaqlarına - Qarabağa və Şərqi Zəngəzura azadlıq bəxş etdi. Bununla da tarixi ədalət bərpa olundu, haqq qalib gəldi.

Fransa çirkin niyyətindən yenə əl çəkmədi. 2020-ci ilin oktyabrında BMT Təhlükəsizlik Şurası səviyyəsində Azərbaycana qarşı təzyiq göstərməyə çalışdı. Təhlükəsizlik Şurasının qapalı iclasından sonra Minsk qrupunun həmsədr ölkələri tərəfindən bəyanat layihəsi hazırlandı, razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı. Ancaq layihədə Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən qətnamələrinə istinad olunmamışdı. Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv dövlətlər təkid etdilər ki, həmin qətnamələrdə istinad yer alsın. Layihənin müəllifi olan həmsədr ölkələr məcburiyyət qarşısında qalaraq onu geri götürdülər. Həmin ilin noyabrında Fransa parlamentində Dağlıq Qarabağdakı separatçı rejimin tanınmasına çağırışla bağlı heç bir hüquqi dəyəri olmayan qətnamə qəbul edildi. Rəsmi Paris bundan sonra da özünü gülünc vəziyyətə qoymaqdan çəkinmədi.

2022-ci ilin dekabr ayından başlayaraq Azərbaycanın ekofəalları Laçın yolunda aksiya keçirəndə Fransa Azərbaycanı Qarabağdakı erməniləri guya blokada vəziyyətinə salmaqda ittiham etdi. Bu dəfə də BMT-ni öz məkrli planına tərəfdaş edə bilmədi. Rəsmi Paris Avropa İttifaqında da eyni uğursuzluqla qarşılaşdı.

Azərbaycanın İkinci Qarabağ müharibəsindən üç il sonra apardığı lokal xarakterli antiterror əməliyyatları nəticəsində ərazilərindən hələ də tamamilə çəkilib getməmiş Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini məğlub, separatçı rejimi məhv etməsi, suverenliyinin tam bərpasına nail olması rəsmi Parisin qanını yenidən qaraltdı. Ölkəmizin bu möhtəşəm qələbələrindən sonra Fransa hökuməti öz məkrini, qərəzkarlığını göstərməkdə davam etdi. Emmanuel Makronun 2023-cü ilin oktyabrında Avropa Siyasi İcmasının Qranada görüşü çərçivəsində keçirilən mətbuat konfransında Azərbaycana qarşı əsassız iddialar səsləndirməsi də bundan irəli gəlirdi.

Bu ilin yanvarında heç bir hüquqi dəyəri olmayan daha bir qətnamənin AŞPA-da qəbul edilməsi də eyni münasibətin təzahürü idi. Ancaq Fransa senatının Azərbaycana qarşı sanksiya tətbiq olunmasıyla bağlı həmin qərəzli qətnaməsi də kin-küdurətlərinin yenidən nümayiş etdirilməsindən başqa heç nə ifadə etmirdi.

Azərbaycanın Fransaya qarşı nə ədavəti, nə qərəzi, nə də düşmənçiliyi var. Faktdır ki, bu iki ölkənin arasında münasibətlərin gərginləşməsinin səbəbkarı rəsmi Parisdir. Rəsmi Parisin İkinci Qarabağ müharibəsi zamanı da, ondan əvvəl də, sonra da haqqı, ədaləti görməzlikdən gəlməsində, verdiyi qərarlarda qərəzli olmasında, heç şübhəsiz ki, həmin ölkənin siyasi dairələrində ermənipərəst mövqenin üstünlük təşkil etməsi başlıca rol oynayır.

Ancaq bu yanlış siyasət nə Fransaya, nə də Ermənistana xeyir gətirir. Rəsmi Paris verdiyi qərar və qətnamələrlə yalnız özünü gözdən salır, Fransanı dünyada beynəlxalq qanunlara hörmət etməyən, demokratiyaya zərbə vuran ölkə kimi tanıdır. Fransa hökumətinin davamlı şəkildə Ermənistan vasitəsilə Cənubi Qafqazdakı proseslərə müdaxilə etmək cəhdləri uğursuzluqla nəticələnir. Ermənistan isə rəsmi Parisin havadarlığından nəinki qazanmır, əksinə, yalnız Azərbaycanla deyil, regionun digər ölkələri ilə münaqişə vəziyyətinə çatdırılır. Bununla da Fransa Ermənistanı daha da səfalətə salır, məhvə sürükləyir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***





## Fransanın iqtisadi və siyasi problemləri pik həddə çatıb

**"Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Bunun əsas səbəblərindən biri də Ermənistandan istifadə etmək niyyətidir. Ermənilərə havadarlıq etmək həm də Parisin müstəmləkəçilik siyasətini davam etdirməsi üçün vacib amildir. Fransanın digər məqsədi isə Rusiyanı Cənubi Qafqazdan uzaqlaşdırmaqdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Fransanın Azərbaycana münasibəti qərəzli və məkrlidir: "Vaxtilə işğalda olan ərazilərimizdə iqtisadi, siyasi, hətta hərbi gəlirlər əldə edən Paris indi çarəsiz qalıb. Azərbaycanın öz əzəli torpaqlarını geri qaytarması ilə Fransa, əslində, çox şey itirib. Ona görə də yenidən regiona qayıtmaq üçün ermənilərə dəstək verir, onları silahlandırır, vizual kəşfiyyatçılarla təmin edir. Qısası, Fransa Cənubi Qafqaza qayıtmaq və öz siyasətini reallaşdırmaq üçün cidd-cəhdlə çalışır".

Deputat qeyd edib ki, Fransa prezidenti Makronun burada öz marağı var: "O düşünür ki, növbəti seçkilərdə qalib gəlmək üçün erməni lobbisindən istifadə faydalı ola bilər. Lakin bu səbəbin nə qədər önəmli olduğu qeyri-müəyyəndir. Sözsüz ki, əsas məqsədləri itirdiklərini yenidən bərpa etmək istəkləridir. Bundan başqa, Makron hakimiyyətinin Azərbaycanın apardığı müstəqil xarici siyasəti gözə ala bilməməsi də məlum məsələdir. Fransa elə başa düşür ki, guya Azərbaycan nə qərar verirsə-versin, mütləq bunlarla razılaşdırmalıdır. Bu isə tamamilə absurddur".

Arzu Nağıyevin sözlərinə görə, Fransanın Qarabağla bağlı yalan məlumatlar yayması, Azərbaycana təhdidlər yağdırması qəbuledilməzdir. "Dünyaya bəllidir ki, Azərbaycan Qarabağda yaşayan erməniləri "etnik təmizləmə"yə məruz qoymayıb. Bunu bir sıra xarici dövlətlər və beynəlxalq təşkilatlar da etiraf ediblər. Lakin bütün bunlara baxmayaraq, Fransa hər dəfə bu məsələni gündəmə gətirməyə çalışır və ölkəmizə qara yaxır. Ermənistan və onun Paris kimi saxta havadarları başa düşməlidirlər ki, onların belə cəhdləri heç bir nəticə verməyəcək.

"Heç bir hüquqi əsası olmayan məsələləri aktuallaşdırmaq kimə və nəyə lazımdır?! Görünür, Fransanın regionda möhkəmlənmək üçün başqa fürsəti qalmayıb. Ona görə də belə ucuz bəhanələr uydurmaqla guya Azərbaycanın beynəlxalq imicini zədələmək istəyir. Parisin Cənubi Qafqaz və Azərbaycanla bağlı siyasəti tamamilə fiaskoya uğrayıb", - deyən Arzu Nağıyev vurğulayıb ki, bu gün Fransanın iqtisadi və siyasi problemləri pik həddə çatıb: "Yaxşı olardı ki, onlar öz problemlərini həll etməyə çalışsınlar. Fransa birmənalı olaraq nə istədiyini bilmir. Lakin bir həqiqət var ki, ölkəmizə qarşı riyakar mövqe ortaya qoyur. İstənilən halda fiaskoya uğrayan və ifşa olunan Fransa bundan sonra da eyni taleyi yaşayacaq. Fevralın 7-də prezident seçkiləri zamanı dövlət başçısı İlham Əliyevin öz ailəsi ilə birgə məhz Xankəndidə səsverməsi də dosta və düşmənə verilən mesajdır. Ermənistanın "böyük bacısı" da bundan nəticə çıxarmalıdır".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Fransa düşdüyü bataqlıqdan çıxa bilmir

**Ermənistanın ən yaxın havadarlarından biri də Fransadır. Atəşkəs dövründə bu ölkə maskalanaraq özünü guya neytral göstərməyə çalışırdı. Amma Azərbaycan 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğalda qalmış torpaqlarını azad etdikdən sonra Fransanın maskası cırıldı, gizli siyasətinin üstü açıldı.**

Sanki Qarabağda erməni işğalçılarına qarşı atılan güllələrdən biri də rəsmi Parisin maskasına dəyib yırtdı. Bundan sonra Fransa gizlin yox, açıq şəkildə birtərəfli mövqe tutaraq beynəlxalq qanunlara arxa çevirib Ermənistana havadarlıq etməyə başladı.

Bu addımı ilə Fransa Azərbaycanla olan əvvəlki xoş münasibətinin üstündən xətt çəkdi. Bütün bunlar isə Makronun yarıtmaz siyasətinin nəticəsində baş verdi. Azərbaycan gücü, qüdrəti ilə Fransanı Cənubi Qafqazdan vurub çıxardı. İndi Fransa hakimiyyəti başını itirib, necə deyərlər, düşdüyü bataqlıqdan çıxa bilmir. Parisin səhvi reallığı anlamamağında, vəziyyəti düzgün qiymətləndirə bilməməyindədir. Anlamamaq isə böyük dərddir. Nəhayət, Fransa gec-tez başa düşməlidir ki, indi zaman o zaman deyil. Azərbaycan da o Azərbaycan deyil. Artıq bölgədə yeni tarixi şərait yaranıb. Azərbaycan qalib ölkədir və onunla diktə dilində danışmaq yolverilməzdir.

Azərbaycan daim Fransanın ədalətsiz, haqsız və qərəzli mövqeyi ilə qarşılaşıb. Fransa parlamentinin hər iki palatası, hətta Ermənistanın belə tanımadığı qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımağa çağıran sənədlər qəbul edib. Azərbaycanın münasibətlərin normallaşmasına doğru atdığı addımlarına Parisin cavabı belə olub.

Paris ATƏT-in üç həmsədr dövlətindən biri kimi İrəvanın işğalçılıq siyasətini təsdiq edən, qəsbdə saxladığı Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxmağa çağıran BMT-nin məlum qətnamələrinin icra olunması üçün heç bir addım atmadı. Hamımızın yaxşı xatırladığı kimi, həm Qarabağın işğalı dövründə, həm də sonrakı zamanlarda Fransa tərəfi Ermənistandan yüzlərlə azərbaycanlı əsir və girovun azadlığa buraxılmasını tələb etmədi. Halbuki bu barədə danılmaz faktlar, sübutlar və sənədli dəlillər təqdim olunmuşdu. Fransa indiyə qədər mina xəritələrinin verilməsi ilə bağlı Ermənistana qarşı bir dəfə də olsun aydın və dəqiq bir tələblə çıxış etməyib.




Fransa öz ərazisində yaşayan fərqli etnik və dini mənsubiyyətdən olan millətlərin hüquqlarına qarşı açıq şəkildə dözümsüz münasibət göstərdiyi halda, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazilərində məskunlaşmış erməni azlığın "hüquq və təhlükəsizliyi" məsələsi ilə bağlı narahatlıq keçirir. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün əleyhinə olan sərsəm-sərsəm bəyanatlar səsləndirir. Ölkəmiz üçün heç bir hüquqi qüvvəsi olmayan qətnamə və qərarlar qəbul edir. Belə yaramaz, ikiüzlü siyasət yürüdən Fransanın heç söz deməyə haqqı və hüququ yoxdur. Azərbaycana qarşı Fransa Senatında qəbul olunan qərarlar kağız parçasından başqa bir şey deyil. Fransanın Senatı da, hakimiyyəti də özlərindən min kilometrlərlə uzaqda olan ermənilərin taleyindən narahat olmaqdansa, daxili problemlərini həll etsələr daha yaxşı olardı.

Son vaxtlar Fransa Azərbaycana qarşı iqtisadi-siyasi, hərbi, geosiyasi və mədəniyyət sahələrində çox qərəzli addımlar atır. Fransa Senatının qəbul etdiyi bitərəf və əsassız qətnamələr bir daha açıq-aydın göstərir ki, Azərbaycan artıq onlara layiq olduqları cavabı, layiq olduğu şəkildə verməlidir. Məlumdur ki, Paris siyasi cəhətdən hörmətsizlik nümayiş etdirərək ərazi bütövlüyümüzə və suverenliyimizə qarşı qərəzli addımlar atır. Fransa Milli Assambleyasının və senatının bu addımları atmaqda da əsas məqsədi Cənubi Qafqaz regionunda vəziyyəti süni surətdə gərginləşdirməkdir. Ermənistana silah-sursat verməklə Azərbaycanla olan münasibətlərin üstünə kölgə salmaqdır. Açıq-aydın hiss olunur ki, Fransa Cənubi Qafqazda sülhün bərqərar olunmasında maraqlı deyil. Buna görə də Ermənistandan istifadə edərək bütün gücü ilə Cənubi Qafqazda suları bulandırmağa çalışır.

Təəssüflər olsun ki, Fransa tutduğu səhv yoldan geri dönmək istəmir. Düşünür ki, bu addımı Ermənistana xoş getməz, ermənilərin xətrinə dəyər. Sanki rəsmi Paris Ermənistandan qorxur. Siyasətini də bu qorxu üstündə qurmağa çalışır. Elə ona görə də həm ölkə xaricində, həm də ölkə daxilində öhdəsindən gələ bilməyəcəyi problemlərlə üzləşir. Azərbaycanın dünyada sıx əməkdaşlıq etdiyi dostları çoxdur. Bizim ölkəmizə qarşı ikiüzlü, qərəzli siyasət yürüdən Fransaya heç ehtiyacımız da yoxdur.

Azərbaycana qarşı məkrli siyasət yürüdən Fransa AŞPA-dan da bir vasitə kimi istifadə edir. Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında Azərbaycan nümayəndə heyətinə qarşı göstərilən qərəzli davranış Fransanın və ermənipərəst dairələrin məkrli siyasətinin açıq ifadəsidir. Ümumiyyətlə, bu qurum özü birmənalı şəkildə ermənipərəst siyasət yürüdərək reallıqdan uzaq heç bir məntiqə sığmayan qərarlar qəbul edir. Ermənipərəst mövqeyin arxasında isə Fransanın qərəzli siyasəti dayanır. AŞPA-nın Azərbaycana qarşı qəbul etdiyi qərəzli qərarların hamısından Fransanın qoxusu gəlir. AŞPA-nın da, Fransa parlamentinin də anti-Azərbaycan xarakterli qərəzli qərarlarının heç bir hüquqi əsası yoxdur. Bütün bunlar anti-Azərbaycan kampaniyasının tərkib hissəsidir.

Tarixən həmişə görmüşük ki, məqsədli şəkildə qərəzli siyasət yürüdənlər sonda uğursuzluğa düçar olur, necə deyərlər, "mat" vəziyyətinə düşürlər. Fransanı da yaxın günlərdə həmin acı aqibət gözləyir. Azərbaycan Respublikasının Prezidenti, Qalib xalqın Qalib Lideri İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində həmişə qalib Azərbaycan olacaq. Azərbaycan uğurlara ünvanlanmış siyasəti ilə Fransanı "mat" qoyacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 76 **QƏRAR** Bakı şəhəri, 8 fevral 2024-cü il

# "Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373 (Cild I) ilə təsdiq edilmiş "Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4-cü hissəsinin birinci abzasına "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556 (Cild I) ilə təsdiq edilmiş "Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları"nın 15-ci hissəsinə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və" sözləri əlavə edilsin və həmin hissədən "və Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I) ilə təsdiq edilmiş "Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası"nın 8-ci hissəsinin ikinci cümləsinə "xüsusi hallarda" sözlərindən sonra "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 564 (Cild I) ilə təsdiq edilmiş "Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi Limitləri"nin III bölməsinin 6-cı hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli125 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 572 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının "Qırmızı Kitabı" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. I bölmənin 3-cü hissəsində və V bölmənin 1-ci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyası"sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.2. I bölmənin 4-cü hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 15 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 141 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitə dair alınması məhdudlaşdırılan informasiya üzrə müraciət və ya sorğunun göndərildiyi dövlət hakimiyyəti orqanlarının təsnifatı"nın 3-cü hissəsinin altıncı abzasında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

7. "Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları" və "Heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasına gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 100 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 591) aşağıdakı dəyişikliklər edilsin:

7.1. həmin Qərarla təsdiq edilmiş "Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları" üzrə:

7.1.1. I bölmənin 2-ci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.1.2. III bölmənin 5-ci hissəsinə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və" sözləri əlavə edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "Heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasına gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydaları" üzrə:

7.2.1. 1.4-cü bəndə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri əlavə edilsin;

7.2.2. 2.2-ci bəndin "ç)" abzasında "Kənd Təsərrüfatı Nazirliyinin və Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

7.2.3. 2.9-cu bəndə "Milli Elmlər Akademiyasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan" sözləri əlavə edilsin və həmin bənddə "rəyi" sözü "rəyləri" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 759 (Cild I) ilə təsdiq edilmiş "Vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. II bölmənin 18-ci abzasında "Milli Elmlər Akademiyasının" sözləri "Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

8.2. 3.1-ci və 3.6-cı bəndlərdə "Milli Elmlər Akademiyasının" sözləri "Elm və Təhsil Nazirliyinin aidiyyəti elmi müəssisəsinin və təşkilatlarının" sözləri ilə əvəz edilsin.

9. "Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 206 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1066 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2-ci hissədə "Milli Elmlər Akademiyasına" sözləri "Elm və Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin;

9.2. həmin Qərarla təsdiq edilmiş "Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın 2.1-ci bəndinin altıncı abzasında "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı"nın "1D; 1E" bölməsinin 3-cü sütununda "Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyul tarixli1 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 637) ilə təsdiq edilmiş "Təbiət abidələrinin və onların yerləşdiyi ərazilərin təşkili Qaydaları"nın 5-ci hissəsinin ikinci cümləsinə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və" sözləri əlavə edilsin və həmin cümlədə "rəyi" sözü "rəyləri" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 17 sentyabr tarixli 138 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 915 (Cild I) ilə təsdiq edilmiş "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti arasında Elektrik enerjisinin satınalınma Müqaviləsi"nin 13.3-cü bəndinə "İqtisadiyyat Nazirliyi," sözlərindən sonra "Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 669 (Cild I) ilə təsdiq edilmiş "Rayonlaşdırılmamış arı cinslərinin Azərbaycan Respublikasının ərazisinə gətirilməsi Qaydası"nın 5-ci hissəsində "Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 avqust tarixli 159 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 768 (Cild I) ilə təsdiq edilmiş "Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları"nın 2.1-ci bəndində və 2.4-cü bəndinin birinci abzasında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 oktyabr tarixli 293 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1212) 2-ci hissəsindən ", Bioresurslar İnstitutunun, Nəbatat Bağının, Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun və Aqrar Problemlər İnstitutunun" sözləri çıxarılsın.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 203 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 974 (Cild I) ilə təsdiq edilmiş "Təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması halları və Qaydası"nın 3.3-cü bəndinə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyini," sözlərindən sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyini və" sözləri əlavə edilsin və həmin bənddən ", Azərbaycan Milli Elmlər Akademiyasını" sözləri çıxarılsın.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 975 (Cild I) ilə təsdiq edilmiş "Balıq və digər su bioresurslarının iqlimləşdirilməsi və iqlimləşdirilmə obyektlərinin daşınması Qaydaları"nın 2.3-cü bəndində "Azərbaycan Milli Elmlər Akademiyasını" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyini" sözləri ilə əvəz edilsin.

18. "Azərbaycan Milli Elmlər Akademiyasında elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı AMEA-nın İqtisadiyyat İnstitutunda 2021-2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 oktyabr tarixli 375 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1264) aşağıdakı dəyişikliklər edilsin:

18.1. adında və 1-ci hissədə "Azərbaycan Milli Elmlər Akademiyasında elmi" sözləri "Elmi" sözü ilə, "AMEA-nın" sözləri isə "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin;

18.2. preambulada və 2-ci hissədə ismin müvafiq hallarında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

18.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasında elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı AMEA-nın İqtisadiyyat İnstitutunda 2021-2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası" üzrə:

18.3.1. adında "Azərbaycan Milli Elmlər Akademiyasında elmi" sözləri "Elmi" sözü ilə, "AMEA-nın" sözləri isə "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin;

18.3.2. 1.1-ci bənddə "Azərbaycan Milli Elmlər Akademiyasında elmi" sözləri "Elmi" sözü ilə, "AMEA-nın İqtisadiyyat İnstitutunda" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunda (bundan sonra - İnstitut)" sözləri ilə, "Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İqtisadiyyat İnstitutunun (bundan sonra - İnstitut) və" sözləri isə "İnstitutun, habelə" sözləri ilə əvəz edilsin;

18.3.3. 3.1-ci bənddə "AMEA" akronimi "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

18.3.4. 3.2-ci bənddə "AMEA-nın Rəyasət Heyəti" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla İnstitut" sözləri ilə əvəz edilsin;

18.3.5. 3.4-cü bənddə "AMEA" akronimi "dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatların" sözləri ilə əvəz edilsin;

18.3.6. 3.6-cı bənddə "AMEA-nın Rəyasət Heyətinə" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin;

18.3.7. 4.6-cı bənddə "Elm haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə uyğun olaraq öz əməkdaşlarından, AMEA-nın digər elmi müəssisələrinin" sözləri "öz əməkdaşlarından, digər elmi müəssisələrin" sözləri ilə əvəz edilsin;

18.3.8. 4.7-ci bənddə "AMEA-nın Rəyasət Heyətinə" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 103 (Cild I) ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

19.1. aşağıdakı məzmunda 3.9.2-1-ci yarımbənd əlavə edilsin:

"3.9.2-1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyindən - 2 nəfər;";

19.2. 3.9.5-ci yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 78 **QƏRAR** Bakı şəhəri, 8 fevral 2024-cü il

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 931-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 931-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.1-1-ci və 5.1-2-ci bəndlər əlavə edilsin:

"5.1-1. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Bu məqsədlə nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulmuş orqanlara müraciət edilir. Müraciət qəbul edildikdən sonra 3 (üç) iş günü müddətində həmin orqan tərəfindən araşdırma aparılaraq nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması və ya aşağıdakı hallardan hər hansı biri mövcud olduqda səbəbləri göstərilməklə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasından imtina barədə qərar qəbul edilir və müraciət edən şəxsə bu barədə yazılı məlumat verilir:

1) nəqliyyat vasitəsinin inzibati tənbeh etmə qismində müsadirə edilməsi və ya cinayət-hüquqi tədbir qismində xüsusi müsadirə edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

2) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında iş üzrə səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;

3) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər üzrə cəza və ya digər cinayət-hüquqi tədbirlər qismində cərimənin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;

4) nəqliyyat vasitəsi üzərində həbs və ya yüklülük olduqda;

5) dövlət müəssisə, idarə və təşkilatlarına, habelə nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərə məxsus olan nəqliyyat vasitələrinin silinməsinə dair normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda və qaydada rəy verilmədikdə.

5.1-2. Nəqliyyat vasitələri utilizasiyaya "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq dövlət qeydiyyatını həyata keçirən orqan tərəfindən verildikdə, bu Əsasnamənin 5.1-1-ci bəndinin 1-ci, 4-cü və 5-ci yarımbəndlərinin tələblərinə əməl olunmaqla, həmin dövlət qeydiyyat orqanının qərarı ilə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılır. Bu zaman bu Əsasnamənin 5.1-1-ci bəndinin 2-ci və 3-cü yarımbəndlərində nəzərdə tutulan ödənilməmiş cərimələrin olması nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasına mane olmur.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bəndin beşinci abzasına və 3.2-ci bəndin 4-cü yarımbəndinə "dövlət rüsumunun" sözlərindən sonra "və "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən utilizasiya haqqının" sözləri əlavə edilsin;

2.2. 1.6-cı bəndə "dövlət rüsumu," sözlərindən sonra "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən utilizasiya haqqı," sözləri əlavə edilsin.

3. Bu Qərarın 1-ci hissəsi 2024-cü il sentyabrın 1-dən, 2-ci hissəsi isə 2024-cü il fevralın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 79 **QƏRAR** Bakı şəhəri, 9 fevral 2024-cü il

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının 11-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 3.2-ci bəndində "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 81 **QƏRAR** Bakı şəhəri, 9 fevral 2024-cü il

# "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın təsdiq edilməsi barədə"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda ümumi adla göstərilmiş peşələrdə və vəzifələrdə işləyən bütün adlardan (kiçik, böyük, baş, köməkçi və s.) olan işçilər güzəştli pensiya hüququna malikdirlər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı" üzrə:

1.2.1.10.2-ci bənd üzrə:

1.2.1.1. "a) fəhlələr:" abzasının:

1.2.1.1.1. "susuzlaşdırıcı və duzlaşdırıcı qurğuların operatorları" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| susuzlaşdırma və duzsuzlaşdırma qurğusunun operatorları |

1.2.1.1.2. "mədənlərdə tərkibində kükürdlü hidrogen olan (1,5%-dən çox) qazın kompleks qurğularının hazırlanması ilə məşğul olan nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingərlər" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| neft mədənlərində, neftin saxlanılması və ötürülməsi sahəsində nəzarət-ölçü cihazları və avtomatika qurğularının təmiri və xidməti işləri ilə məşğul olan nəzarət-ölçü cihazları və avtomatika üzrə çilingərlər |

1.2.1.1.3. "neft, qaz və qaz kondensatı hasilatı obyektlərində bilavasitə məşğul olan təmirçi-çilingərlər" sətri aşağıdakı redaksiyada verilsin:

| |
|---|
| əsas istehsalat sahələrində neft-mədən avadanlıqlarının, kompressor qurğularının təmiri ilə bilavasitə məşğul olan təmirçi çilingərlər |

1.2.1.1.4. "kompressor qurğularının maşinistləri" sətrindən sonra aşağıdakı məzmunda yeni sətirlər əlavə edilsin:

| |
|---|
| əmtəə operatorları |
| nasos qurğularının maşinistləri |
| dəniz özüllərində, estakadalarda stasionar kranların kran maşinistləri |
| qazın yığılması üzrə operatorlar |
| qazpaylayıcı stansiyanın operatorları |

1.2.2. 21.2-ci bənd üzrə:

1.2.2.1. "a) fəhlələr:" abzası ləğv edilsin;

1.2.2.2. "b) üzən heyət:" abzasının "dəniz, çay donanmasının və balıqçılar sənayesi donanmasının gəmi heyəti (daim liman akvatoriyasında işləyən liman gəmiçiləri, yardımçı-xidmət gəmiləri, xidmət, şəhərətrafı və şəhərdaxili yol gəmiləri istisna olmaqla)" sətrində "gəmiçiləri" sözü "gəmiləri" sözü ilə əvəz edilsin;

1.2.2.3. "c) sahil heyəti" abzasından "partladıcılar" və "tryum motorçuları" sətirləri çıxarılsın;

1.2.3. 21.4-cü bənd üzrə:

1.2.3.1. "dəmiryol xətləri hərəkətində parovozların və buxar kranlarının ocaqçıları", "dəmiryol xətləri hərəkətində parovozların və buxar kranlarının maşinistləri" və "dəmiryol xətləri hərəkətində parovozların və buxar kranlarının maşinist köməkçiləri" sətirləri çıxarılsın;

1.2.3.2. "a) fəhlələr:" abzasından "parovozların qazanlarının isti yuyulması ilə məşğul olan qazançılar", "parovozların depo ocaqçıları", "kükürdlü nefti və aşındırıcı maddələri töküb-axıtma məntəqələrində məşğul olan yük və baqajı qəbul edib və təhvil verənlər" və "parovozların qazan yuyucuları" sətirləri çıxarılsın;

1.2.4. 29-cu hissənin "a) fəhlələr:" abzasına"5 m-dən yuxarı yüksəklikdə işləyən (gərginliyi 35 kV və artıq olan) elektrik keçirici hava xətlərinin təmiri üzrə elektrik montyorları" sətrindən sonra aşağıdakı məzmunda yeni sətir əlavə edilsin:

| |
|---|
| texnoloji boru kəmərlərinin quraşdırıcıları |

1.2.5. 31.1-ci bəndin "a) fəhlələr:" abzasından"xüsusi geyimin yuyulması və təmiri üzrə maşinistlər" və "texniki məhsulun ələyiciləri" sətirləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tarif-ixtisas sorğu kitabçalarının altı ay müddətində bu Qərara uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Keçid müddəaları

3.1. Bu Qərarın 1.1-ci bəndi bu Qərarın qüvvəyə mindiyi tarixdən əvvəlki dövr üçün güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının təyin edilməsi və ya yenidən hesablanması hallarına münasibətdə nəzərə alınır.

3.2. Bu Qərarın qüvvəyə mindiyi tarixədək bu Qərarın 1.2.2-ci (1.2.2.2-ci abzas istisna olmaqla), 1.2.3-cü və 1.2.5-ci yarımbəndlərində nəzərdə tutulan peşə və vəzifələr güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən peşə və vəzifələr hesab edilir.

3.3. Bu Qərarın 1.2.1-ci (1.2.1.1.1-1.2.1.1.3-cü abzaslar istisna olmaqla) və 1.2.4-cü yarımbəndlərində nəzərdə tutulmuş yeni peşə və vəzifələr bu Qərarın qüvvəyə mindiyi tarixdən əvvəlki dövr üçün güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının təyin edilməsi və ya yenidən hesablanması hallarına münasibətdə nəzərə alınmır.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 77

QƏRAR

Bakı şəhəri, 8 fevral 2024-cü il

## “Media haqqında” Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılması üçün razılığın verilməsi Qaydası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 64 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 12 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi"nin 28-ci hissəsində "mətbuatda və digər kütləvi məlumat vasitələrində" sözləri "mediada, o cümlədən mətbuatda" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 23 mart tarixli 47 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 202 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Əsasnaməsi"nin 4.6-cı bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada dərc etməklə (yayımlamaqla)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123 (Cild I) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"nın 2.2-ci bəndinin beşinci abzasının ikinci cümləsində "verilişlərindən" sözü "proqramlarından" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "XXXI. Rabitə" bölməsinin 5-ci bəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

4.2. "XXXIII. Mədəniyyət müəssisələri, təşkilatları və idarələri" bölməsi üzrə:

4.2.1. "Kinostudiyalar, kinosurətiçıxaran istehsalat, kinofikasiya, kinoprokat, televiziya, radio və teatr-tamaşa müəssisələri" hissəsi üzrə:

4.2.1.1. 24-cü bənddə "Televerilişlərdə" sözü "Televiziya proqramlarında" sözləri ilə əvəz edilsin;

4.2.1.2. 47-ci bənddə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin;

4.2.1.3. 54-cü bənddə "Radiotelemərkəz (telemərkəzlər) və teleradio şirkətlərində radioverilişlərin" sözləri "Televiziya və radio proqramlarında" sözləri ilə əvəz edilsin;

4.2.1.4. 68-ci bənddə "Televiziya və radioverilişləri üzrə televiziya və radioverilişləri diktoru" sözləri "Televiziya və radio proqramları üzrə diktor" sözləri ilə əvəz edilsin;

4.2.1.5. 69-cu bənddə "radioverilişlərində" sözü "radio proqramlarında" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununun "XXIX. MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİ, TƏŞKİLATLARl VƏ İDARƏLƏRİ" bölməsinin "Kinostudiyalar, kino surəti çıxaran istehsalat, kinofikasiya, kinoprokat, televiziya, radio və teatr-tamaşa müəssisələri. Bədii istehsal heyəti" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci bənddə "verilişləri üzrə televiziya və radio verilişləri" sözləri "proqramları üzrə" sözləri ilə əvəz edilsin;

5.2. 2-ci bənddə "verilişlərində" sözü "proqramlarında" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 254 (Cild I) ilə təsdiq edilmiş "Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası"nın 3-cü hissəsinin ikinci abzasında, 5-ci hissəsinin birinci abzasında və 6-cı hissəsinin birinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyun tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 537 (Cild I) ilə təsdiq edilmiş "Şəkərli diabet üzrə Dövlət Proqramı"nın "Giriş" bölməsinin beşinci abzasında "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

8. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 542 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-1-ci hissə ləğv edilsin;

8.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi" üzrə:

8.2.1. 2.1.2-ci yarımbənddə "teleradio" sözü "audiovizual rəqəmli yayım" sözləri ilə əvəz edilsin;

8.2.2. 2.1.5-ci yarımbənddə "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

8.2.3. 2.1.6-cı və 4.1.5-ci yarımbəndlərdən "(verilişlərin)" sözü çıxarılsın;

8.2.4. 2.1.8-ci yarımbənddə "Televiziya və radio yayımı haqqında" sözləri "Media haqqında" sözləri ilə əvəz edilsin;

8.2.5. 3.1.1-ci yarımbənddə "verilişlərini" sözü "proqramlarını" sözü ilə əvəz edilsin;

8.2.6. 3.1.5-ci yarımbənddə "verilişləri fondu üçün proqramların çəkilişini" sözləri "proqramları fondu üçün çəkilişi" sözləri ilə əvəz edilsin;

8.2.7. 3.1.9-cu və 4.1.3-cü yarımbəndlərdə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin;

8.2.8. 3.1.15-ci yarımbənddə "verilişlər" sözü "proqramlar" sözü ilə əvəz edilsin;

8.2.9. 3.1.17-ci və 4.1.7-ci yarımbəndlərdə "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

8.2.10. 3.1.18-ci və 4.1.2-ci yarımbəndlərdə "teleradio verilişlərinin" sözləri "televiziya və radio proqramlarının" sözləri ilə əvəz edilsin;

8.2.11. 4.1.17-ci yarımbənddə "verilişlərinin proqramının" sözləri "proqramlarının" sözü ilə əvəz edilsin;

8.2.12. 4.1.18-ci yarımbənddə "teleradio məhsullarını" sözləri "audiovizual məhsullar" sözləri ilə əvəz edilsin;

8.2.13. 4.1.22-ci yarımbənddə "teleradio məhsulları" sözləri "audiovizual məhsullar" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 39 (Cild I) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.3-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

9.2. 5.2-ci bəndin ikinci cümləsində "kütləvi informasiya vasitələrinə" sözləri "media subyektlərinə" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 47) ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı"nın "Dövlət Proqramı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər" bölməsinin "III. Qanın və qan komponentlərinin donorluğunun təbliği" hissəsinin 8-ci sətrinin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 fevral tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 198 (Cild I) ilə təsdiq edilmiş "Təbii fəlakət, qəza və digər fövqəladə vəziyyətlər zamanı qanın, qan komponentlərinin donorluğunun təşkili Qaydası"nın 3-cü hissəsində "kütləvi və digər informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 19 iyul tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 644 (Cild I) ilə təsdiq edilmiş "Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın "Tədbirlər Proqramının həyata keçirilməsi Planı" bölməsinin 7-ci sətrinin "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə, "İcraçılar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın "33. İncəsənətin xüsusi sahələri" hissəsinin yeddinci abzasında "teleradio verilişlərinin" sözləri "televiziya və radio proqramlarının" sözləri ilə, səkkizinci abzasında "teleradionun" sözü "televiziya və radionun" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 1.9-cu bəndində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 8 oktyabr tarixli 160 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1020 (Cild I) ilə təsdiq edilmiş "Atçılığın inkişafı üzrə Proqram"ın "5. Proqramın icrasının monitorinqi və qiymətləndirilməsi" hissəsinin ikinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 29 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1189 (Cild I) ilə təsdiq edilmiş "Dövlət əmlakının (mənzil fondundan başqa) icarəyə verilməsi üçün icarə haqqının minimum məbləği"nin 2-ci hissəsinin "Qeyri-yaşayış sahələrinin təyinatı" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 590 (Cild I) ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə"nin 2.1.2-ci yarımbəndində "kütləvi informasiya vasitələ-rində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 20 sentyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 870 (Cild I) ilə təsdiq edilmiş "Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram"ın "5. Kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlanmasına dair Proqram üzrə Tədbirlər Planı" hissəsinin 5-ci sətrinin "Tədbirlərin adı" sütununda "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 735 (Cild I) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)"nın 4.4.1-ci yarımbəndinin yeddinci abzasında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 6 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 935 (Cild I) ilə təsdiq edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyətinin həyata keçirilməsi ilə bağlı podratçılara və subpodratçılara xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi, müddətinin uzadılması və ləğv edilməsi Qaydaları"nın 2.15-ci bəndinin ikinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə, 4.3-cü bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 3.4-cü bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 829 (Cild I) ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın 3.2.3-cü yarımbəndində "kütləvi informasiya vasitələ-rində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 223 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1050 (Cild I) ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı"nın "4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər"in 4.2-ci bəndinin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələri ilə" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli 225 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1052) ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın "4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər"in 5.3-cü bəndinin "Tədbirlərin adı" sütununda "Kütləvi informasiya vasitələri ilə" sözləri "Mediada" sözü ilə, "İcraçılar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 dekabr tarixli 233 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1115) ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın "4. Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər"in 1.3-cü bəndinin "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələri ilə" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 816 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nın 2.4-cü bəndində "digər kütləvi informasiya vasitələrinin köməyi ilə" sözləri "media ilə" sözləri ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 820 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 16 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

27.1. "II. Təhsil müəssisələrinin maddi-texniki təchizatına dair vahid normalar"ın 1.19-cu bəndinin birinci və üçüncü cümlələrində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

27.2. "III. Təhsil müəssisələrində ümumi sanitariya-gigiyena tələbləri" üzrə:

27.2.1. 1.6.22-ci yarımbəndin birinci cümləsində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə, ikinci cümləsində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə, dördüncü cümləsində "veriliş" sözü "proqram" sözü ilə əvəz edilsin;

27.2.2. 1.6.23-cü yarımbəndin birinci cümləsində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin;

27.3. 31 nömrəli cədvəldə "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 19 oktyabr tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1018 (Cild I) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

28.1. 2.3-cü bəndin birinci cümləsində və 3.3-cü bənddə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

28.2. "Qeyd" ləğv edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 3 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları"nın 4.48-ci bəndinin üçüncü cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 mart tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 337 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi Qaydaları"nın 3.5-ci bəndində "digər kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 2 sentyabr tarixli 245 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1125 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 7 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Malların müvəqqəti idxal xüsusi gömrük proseduru altında yerləşdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. 7.2.2.1-ci yarımbənddə "proqramlar üçün verilişlərin" sözləri "proqramların" sözü ilə əvəz edilsin;

31.2. "Qeyd" ləğv edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 192) ilə təsdiq edilmiş "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram"ın "4. İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqramın həyata keçirilməsi ilə bağlı 2014-2016-cı illər üçün Tədbirlər Planı"nın 4.3.1-ci yarımbəndinin "Tədbirlərin adı" sütununda "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 7 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın 1.29.4-cü yarımbəndində "verilişlərinin" sözü "proqramlarının" sözü ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 dekabr tarixli 377 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1575 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Toxum Fonduna toxumun tədarükü, saxlanılması və istifadəsi Qaydaları"nın 2.2-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 28 yanvar tarixli 15 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 358 (Cild I) ilə təsdiq edilmiş "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı" bölməsinin 4.4.1-ci yarımbəndinin "İcraçı təşkilatlar" sütununda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 mart tarixli 100 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 773 (Cild I) ilə təsdiq edilmiş "Qaçan sətirlə yayımlanan reklamın təqdimolunma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

36.1. 1.2-ci bənddən, 2-ci hissənin adından, 2.1-ci və 2.10-cu bəndlərdən "(verilişlərində)" sözü çıxarılsın;

36.2. 2.2-ci bənddən "(verilişinin)" sözü çıxarılsın;

36.3. 2.8-ci bənddən "verilişlərdə" sözü çıxarılsın;

36.4. 2.9-cu bənddə "verilişlərində" sözü "proqramlarında" sözü ilə əvəz edilsin və həmin bənddən "(verilişlərdə)" sözü çıxarılsın.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 10 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın 14-cü hissəsi ləğv edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 23 may tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 989) ilə təsdiq edilmiş "Mühüm balıqçılıq su obyektlərinin siyahısı və sudan istifadənin məhdudlaşdırılması Qaydası"nın 2.7-ci bəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli 258 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1233 (Cild I) ilə təsdiq edilmiş "Təhsildə inkişaf və innovasiyalar üzrə qrantların məbləği və ayrılması şərtləri, o cümlədən vəsaitlərin verilmə prosedurları, monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər"in 1.3-cü bəndinin ikinci cümləsində və 3.1-ci bəndində "digər kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 442 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1904 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və elmi-texniki potensialının artırılması məqsədilə, habelə dövlət və ictimai əhəmiyyətli məqsədlərlə əlaqədar Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 3.2.7-ci yarımbəndindən "təsisçisi olduğu və ya idarəetməsində olan kütləvi informasiya vasitələrinə, o cümlədən" sözləri çıxarılsın.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 may tarixli 192 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1103) ilə təsdiq edilmiş "Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsinin əsas istiqamətləri və üsulları"nın 3.1.3-cü yarımbəndində "kütləvi informasiya vasitələrində, o cümlədən" sözləri "mediada, habelə" sözləri ilə əvəz edilsin.

42. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 yanvar tarixli 17 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"də aşağıdakı dəyişikliklər edilsin:

42.1. "222410. "İcarə və muzdlu xidmətlər" maddəsində "verilişlərin" sözü "proqramların" sözü ilə əvəz edilsin;

42.2. "222920. "İstehlakyönlü müxtəlif xidmətlər" maddəsində "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 31 oktyabr tarixli 470 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2183) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin təşkili və keçirilmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

43.1. 2.9-cu və 2.11-ci bəndlərdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

43.2. həmin Qaydaya 10 nömrəli əlavə - "Dəstək tədbirlərində iştirak edəcək ixracatçıların seçilməsi üçün müsabiqənin nəticələri haqqında müsabiqə komissiyasının Protokolu"nun 3-cü hissəsində "kütləvi informasiya vasitəsinin" sözləri "media subyektinin" sözləri ilə əvəz edilsin.

44. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 536 (Cild I) ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın 1.9-cu bəndində və 4.6-cı bəndinin birinci cümləsində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 9 iyul tarixli 293 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1316) ilə təsdiq edilmiş "Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin Əsasnaməsi"nin 3.1.9-cu yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

46. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 yanvar tarixli 41 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

46.1. 1.1-ci bənddə "kütləvi informasiya vasitələrində" sözləri "media məhsullarında" sözləri ilə əvəz edilsin;

46.2. 2.2.2-ci yarımbənddə "verilişlərdə" sözü "proqramlarda" sözü ilə, "elektron kütləvi informasiya vasitələrində" sözləri "onlayn media məhsullarında" sözləri ilə əvəz edilsin;

46.3. 2.2.3-cü yarımbənddə "elektron kütləvi informasiya vasitələrində" sözləri "onlayn media məhsullarında" sözləri ilə əvəz edilsin;

46.4. 3.1.3-cü yarımbənddə "kütləvi informasiya vasitələrində" sözləri "media subyektlərində" sözləri ilə əvəz edilsin.

47. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 avqust tarixli 343 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1450 (Cild I) ilə təsdiq edilmiş "Özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın 3.1-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

48. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 sentyabr tarixli 418 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1572 (Cild I) ilə təsdiq edilmiş "Kitabxanaların çap məhsullarının pulsuz məcburi nüsxələri ilə təchizatı Qaydası"nın 1.2-ci bəndində "Kütləvi informasiya vasitələri haqqında" sözləri "Media haqqında" sözləri ilə əvəz edilsin.

49. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 oktyabr tarixli 425 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1672 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 4.2.2-ci yarımbəndində "kütləvi informasiya vasitələri" sözləri "media" sözü ilə əvəz edilsin.

50. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 aprel tarixli 140 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 487 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 fevral tarixli 66 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Orta ixtisas təhsili üzrə ixtisasların Təsnifatı"nın "5. Texniki və texnoloji ixtisaslar qrupu" hissəsinin 5.68-ci bəndinin "İxtisasların şifri və adı" sütununda "Teleradioyayım" sözü "Televiziya və radio yayımı" sözləri ilə əvəz edilsin.

51. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyun tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 816) ilə təsdiq edilmiş "Məhkəmə ekspertinin etik davranış kodeksi"nin 2.13.1-ci yarımbəndində "kütləvi informasiya vasitələrində, o cümlədən" sözləri "mediada," sözü ilə əvəz edilsin.

52. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 364 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1236) ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"nın 1.5-ci bəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

53. "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə yaradılmış Dövlət Komissiyasının fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 oktyabr tarixli 390 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1217) 2.2.6-cı yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

54. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 251 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1090) ilə təsdiq edilmiş "Ödənişli arxiv xidmətlərinin siyahısı və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin 2.3.11-ci yarımbəndinin "Xidmətin adı" sütununda "verilişləri" sözü "proqramları" sözü ilə əvəz edilsin.

55. "Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılması üçün razılığın verilməsi Qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 aprel tarixli 64 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 310 (Cild I) ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

İŞİMİZ, GÜZƏRANIMIZ

# İlham Əliyevin enerji strategiyasının daha bir reallığı - ACE layihəsi

## "Əsrin müqaviləsi"nin yeni mərhələsi başlayır



**Azərbaycan iqtisadiyyatı şaxələnərək inkişaf edir. Neft-qaz sənayesi ilə yanaşı, digər sahələrdə də ildən-ilə daha çox irəliləyiş əldə olunur. Bununla belə, karbohidrogenlərin hasilatı və ixracı ölkə iqtisadiyyatının əsas hissəsi olaraq qalır. Bu bir daha təsdiq edir ki, Azərbaycanın təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.**

1994-cü ilin sentyabrında imzalanan, müəllifi Ümummilli Lider olan "Əsrin müqaviləsi" - "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları üzrə Hasilatın Pay Bölgüsü Sazişi ölkəmizin yüksəlişinə təkan verdi. 2017-ci ilin sentyabrında sazişə dəyişiklik edilərək yenidən işlənməsi və müddətinin 2050-ci ilin əvvəlinədək uzadılması isə "Yeni əsrin müqaviləsi" adını aldı. Bu dəyərli layihə Prezident İlham Əliyevin enerji stategiyasının mühüm bir hissəsinə çevrildi. Belə ki, yenidən işlənmiş saziş AÇG-nin Azərbaycan və səhmdarlar üçün iqtisadi faydasının maksimuma çatdırılmasını nəzərdə tutur.

AÇG Azərbaycanın nəhəng neft yataqları blokudur. Onun uğurla işlənməsi isə yalnız mükəmməl iqtisadi idarəetmə, zəngin bilik və təcrübə, etibarlı tərəfdaşlıq sayəsində mümkün olub.

Son illər Azərbaycan dövləti möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Bu da müxtəlif təyinatlı yeni, daha qlobal layihələrin həyata keçirilməsinə imkan verir. Təbiətin xalqımıza bəxş etdiyi təbii sərvətlərdən böyük səriştə və uzaqgörənliklə istifadə olunur və onların istismarından əldə edilən gəlirlər ölkənin inkişafına, xalqın rifahına yönəldilir. Azərbaycan xalqı qazanılan nailiyyətlərlə fəxr edir və onları daha da artırmağa çalışır. Bir neçə gün əvvəl keçirilən prezident seçkilərində bunu bütün dünya gördü. Xalq hər sahədə onu irəliyə aparan, o cümlədən neft kapitalını insan kapitalına çevirən liderinə səs verdi.

Qısa arayış: İndiyədək AÇG yataqlarından 4,3 milyard bareldən artıq (581 milyon ton) neft hasil olunub. Neftin əksəriyyəti dünya bazarlarına Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri və Qərb İxrac Boru Kəməri ilə çıxarılır.

2023-cü ilin üçüncü rübünün sonunadək AÇG yataqlar blokunun işlənməsinə ümumilikdə 43 milyard dollardan artıq sərmayə qoyulub. AÇG platformalarından əldə olunan neft və qaz Bakı yaxınlığında quruda yerləşən və dünyanın ən böyük neft-qaz terminallarından olan Səngəçal terminalına ötürülür.

Blokun işlənməsi mərhələlərlə həyata keçirilib. Belə ki, 1997-ci ilin noyabrında "Çıraq" yatağından hasilat İlk Neft Layihəsi çərçivəsində başlanıb. "Azəri" yatağının işlənməsini nəzərdə tutan Mərhələ 1-də hasilat 2005-ci ildə "Mərkəzi Azəri"dən, Mərhələ 2-də isə 2006-cı ilin yanvar ayında "Qərbi Azəri"dən və həmin ilin oktyabrında "Şərqi Azəri"dən başlanıb. 3-cü mərhələdə "Günəşli" yatağının dərinsulu hissəsindən hasilat 2008-ci ilin aprelində əldə edilib. Növbəti mərhələdə isə "Qərbi Çıraq" platformasından hasilat 2014-cü ilin yanvarında başlanıb. Ən son mərhələ olan "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində isə hasilatın yolunu gözləyirik.

Zəfər seçkisinin sevincini yaşadığımız bir dövrdə bu bizə əsl müjdə olacaq. Beləliklə, bu il "Azəri Mərkəzi Şərqi" layihəsi çərçivəsində ilk hasilatın əldə olunması nəzərdə tutulub. Ötən ilin dekabrında layihə üzrə eyniadlı platformadan ilk hasilat quyusunun qazılmasına başlanıb. 2019-cu ildə yeni layihə üzrə tikinti işlərinə start verilib. Bununla da AÇG-nin işlənilməsində yeni dövr başlanıb.

ACE sazişinin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmayıb. O cümlədən bp şirkəti layihənin operatoru olaraq qalıb. Bu da Prezident İlham Əliyevin yaratdığı beynəlxalq tərəfdaşlıq platformasının daha bir aydın təzahürüdür.

ACE-nin qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində 300 milyon barelədək neftin hasil olunacağı proqnozlaşdırılır. İşlərin pik dövründə Azərbaycanda ACE-nin tikinti işlərinə 8500 nəfərdən çox fəhlə, texnik, mütəxəssis cəlb edilmişdi.

Layihənin reallaşması daim dövlət başçısının diqqətində olub. Belə ki, yeni platformanın dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) tikilib və üç il çəkən inşaat işləri 2022-ci ilin sonunda təhlükəsiz şəkildə tamamlanıb. Həmin il dekabrın 13-də Prezident İlham Əliyev BDÖZ sahəsinə baş çəkərək dayaq blokunun dənizə yola salınması prosesinə start verib. Blokun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, ikincisi neft, sonuncusu qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir.

Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində aparılıb. Üst modullara neft və qaz emalı qurğuları, inteqrasiya edilmiş qazma qurğusu, qaz kompressoru və yaşayış blokları daxildir. Modulların layihələndirilmiş çəkisi 19 min 600 tondur.

Bu qurğu "Azfen" şirkəti tərəfindən yerli infrastruktur və resurslardan istifadə olunmaqla inşa edilib. Quruda aparılması planlaşdırılan əsas istismar sınaqları uğurla yekunlaşıb və STB-1 daşıma barjı qurğunu dənizə - mənzil başına çatdırıb. 2023-cü il aprel ayının 4-də Prezident İlham Əliyev üst modulların inşa edildiyi sahəyə gələrək, tikintisi artıq sona çatmış qurğu dənizə, öz daimi yerinə yola salınmazdan əvvəl onun hazırlıq vəziyyəti ilə tanış olub və öz xeyir-duasını verib.

Xatırladaq ki, ACE "Azəri-Çıraq-Günəşli"nin yeddinci hasilat platforması olacaq. Hazırda bu yataqlar blokunda "Çıraq", "Mərkəzi Azəri", "Şərqi Azəri", "Qərbi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq" platformaları fəaliyyətdədir. Beləliklə, yaxın bir zamanda onların sırasına "Mərkəzi Azəri Şərqi" də qoşulacaq.

***Flora SADIQLI, "Azərbaycan"***

## Naxçıvan MR-də genişmiqyaslı sosial islahatlar həyata keçirilir

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq ölkəmizdə aparılan ardıcıl və genişmiqyaslı sosial islahatlar bu gün 100 illiyini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən ildən Naxçıvan Muxtar Respublikasında da sosial ödənişlərin e-sistemlər üzərindən proaktiv təyinatı mexanizmləri qurulub. Nəticədə həmin sosial ödənişlərə hüququ yaranmış şəxslərin müraciətinə və sənəd təqdim etməsinə ehtiyac qalmadan proaktiv qaydada bu ödənişlərin təyinatı həyata keçirilir. Muxtar Respublikada artıq 3,4 min nəfərə pensiya, müavinət və təqaüd təyinatı e-sistemlər üzərindən proaktiv qaydada aparılıb.

Eyni zamanda DOST mərkəzləri şəbəkəsinin ölkə boyu genişləndirilməsi işləri çərçivəsində Naxçıvan şəhərində də Regional DOST Mərkəzi yaradılır. 4 mərtəbədən ibarət mərkəzin bu il istifadəyə verilməsi planlaşdırılır. Mərkəzdə vətəndaşlara sosial sahələr üzrə 159 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunacaq. Muxtar Respublikanın rayon mərkəzlərində Naxçıvan Regional DOST mərkəzinin filiallarının yaradılması üçün layihələndirmə işləri də aparılır.

Habelə Naxçıvan şəhərində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin, Kəngərli rayonunda sosial reabilitasiya və Şərur rayonunda psixonevroloji sosial xidmət mərkəzlərinin yaradılması nəzərdə tutulur. Şahbuz və Ordubad rayonlarında 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslər üçün günərzi qayğı mərkəzlərinin, Culfa rayonunda məişət zorakılığından zərərçəkənlər üçün sosial reabilitasiya mərkəzinin, Sədərəkdə insan alveri qurbanları üçün yardım mərkəzinin qurulması da planlaşdırılır.

Həmçinin şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı proqramı Naxçıvan MR-də də uğurla davam edir. Ötən dövrdə Muxtar Respublikada bu kateqoriyalardan olan yüzlərlə şəxs mənzil və fərdi evlə, avtomobillə təmin edilib.

Naxçıvan MR-də də aktiv məşğulluq proqramları daim genişlənir. Son bir ildə Muxtar Respublikada 5,7 min nəfər bu proqramlara cəlb edilib. Ötən il Naxçıvan şəhərində ilk dəfə Karyera Forumu keçirilib. "Qədim diyarda yeni fürsətlər" devizi ilə keçirilən forumda əmək bazarı və məşğulluğa dair aktual mövzularda peşəkar müzakirələr aparılıb.

Muxtar Respublikada mütəmadi əmək yarmarkaları da təşkil olunaraq dövlət təşkilatları və özəl şirkətlərdəki vakant iş yerləri işsiz və işaxtaran vətəndaşlara təqdim edilir. Habelə əmək yarmarkalarında iştirakçıların peşə hazırlığı kurslarına və özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılır.

## Ötən ay 8,6 min şəxsə reabilitasiya xidməti göstərilib

**Bu ilin yanvar ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 3,9 min şəxsə əlillik təyin edilib.**

Onlardan 1,9 mininə ilkin, 2 mininə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin olunub.

Son bir ayda agentliyin reabilitasiya müəssisələrində əlilliyi olan 8,6 min şəxsə reabilitasiya xidməti göstərilib.

## Paytaxtın üç rayonunda yeni sosial xidmət müəssisələri açılacaq

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən bu il Bakının Sabunçu, Suraxanı və Qaradağ rayonlarında yeni sosial xidmət müəssisələrinin açılması nəzərdə tutulur.**

Bu müəssisələrdə həssas əhali qruplarından olan, xüsusi qayğıya ehtiyac duyan şəxslərə sosial-tibbi, sosial-hüquqi, sosial-psixoloji və digər xidmətlər göstəriləcək. Məqsəd sosial xidmət infrastrukturunun genişləndirilməsi, həssas qrupların sosial xidmətlərə əlçatanlığının artırılmasıdır.

Sosial Xidmətlər Agentliyi tərəfindən bu kateqoriyadan olan şəxslərin ailə mühitində yaşamasının təmin edilməsi məqsədilə müəssisələrdə müvafiq sosial-reabilitasiya və reinteqrasiya işləri də davam etdirilir.

## Əmək qanunvericiliyinə əməl olunmasına nəzarət sahəsində e-texnologiyaların tətbiqi genişləndirilir

**Sosial sahədə icra olunan elektronlaşdırma proqramı əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sistemini də əhatə edir. 2022-ci ildə istifadəyə verilən "Əmək və Məşğulluq" altsistemi bu istiqamətdə mühüm addımdır və hazırda həmin altsistemə bir sıra əlavə və yeni funksionallıqların daxil edilməsi işləri aparılır.**

Bu barədə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sahəsində görülən işlər və gələcək hədəflərə dair keçirilən iclasda bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev əmək münasibətləri sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində son illər atılan addımları qeyd edib.

Əmək hüquqlarının təminatına nəzarət sistemində innovativ həllərin geniş tətbiqinin əsas prioritetlərdən olduğu diqqətə çatdırılıb. İşəgötürənlər və işçilər üçün vahid əmək münasibətləri platforması olan ƏMAS-ın əmək münasibətləri üzrə kadr uçotu sisteminin, habelə əmək müqavilələrinin bağlanmasının kağız üzərindən rəqəmsal müstəviyə keçidini təmin etdiyi vurğulanıb. Habelə nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən əmək münasibətlərinə dövlət nəzarətinin çevik və effektiv, daha səmərəli həyata keçirilməsinə imkan yaratdığı bildirilib.

ƏMAS-ın təkmilləşdirilməsi üçün altsistemə daxil edilmiş yeni əlavə və yeni funksionallıqlar "İşəgötürənlər üçün "Müraciətlər " bölməsi", "Əmək müqaviləsində "Əmək funksiyası" bölməsinin məcburiliyi", "Məzuniyyət əmrlərinin formalaşdırılması", "E-qanunvericilik toplusu", "Kollektiv əmək müqavilələri" və s.) diqqətə çatdırılıb.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyət istiqamətləri üzrə aparılan işlərə və hədəflərə dair təqdimatlar edilib. Həmçinin qeyd olunub ki, son bir ildə işəgötürənlər tərəfindən 471,6 min manat sosial xarakterli ödənişlərin işçilərə ödənilməsinin gecikdirildiyi müəyyən edilib. Xidmətin gördüyü tədbirlər nəticəsində işəgötürənlər tərəfindən həmin vəsait işçilərə ödənilib, habelə əmək müqavilələrinə qanunsuz xitam verildiyi müəyyən olunan 107 işçi əvvəlki iş yerlərinə bərpa edilib.

İclasda əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi sahəsində görülən işlər, əmək müfəttişliyi sisteminin, Əməyin Mühafizəsi Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar, tətbiq olunan innovativ yeniliklər, işəgötürənlər və işçilər arasında əmək qanunvericiliyinin tətbiqinə dair maarifləndirmə və s. sahələrdə görülən işlər və gələcək hədəflər müzakirə olunub.

# Ötən il qeyri-neft-qaz məhsullarının ixracı 9,8 faiz artıb

**Azərbaycanın ötənilki xarici ticarət əməliyyatlarında ixrac üzrə göstəriciləri açıqlanıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, 2023-cü ilin yanvar-dekabr ayları ərzində ölkə üzrə ümumi ixracın dəyəri 33,9 milyard dollar, o cümlədən qeyri-neft sektorunda 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,8 faiz artaraq 3,3 milyard dollar təşkil edib.**

İl ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri 928,2 milyon dollara bərabər olub. Bu dövr elektrik enerjisinin ixracı 3,3, spirtli və spirtsiz içkilərin ixracı 1,9 dəfə, plastmas və ondan hazırlanan məmulatların ixracı 19,3, qara metallardan məmulatların ixracı 13,3, meyvə-tərəvəz ixracı isə 8,7 faiz artıb. Aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri də 6,2 faiz artaraq 969,2 milyon dollara çatıb. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz yüksələrək 201 milyon dollar olub.

Keçən il ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi birinci, qızıl ikinci, pomidor (tomat) üçüncü yerdə qərarlaşıb. İl ərzində qeyri-neft sektoruna aid ən çox mal və məhsul Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrə Konfederasiyasına, Qazaxıstana ixrac edilib.

Ötən ilin dekabrına gəldikdə, həmin ay qeyri-neft məhsullarının ixracının dəyəri 3,8 faiz artaraq 314,3 milyon dollar olub. Yeyinti məhsulları üzrə ixrac 0,9, qeyri-yeyinti məhsulları üzrə ixrac 5,4 faiz artımla 207,7 milyon dollar təşkil edib. Ötən ilin dekabr ayında ən çox mal ixrac edilən ölkələrin siyahısında yenə də Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Gürcüstan üçüncü, ixrac edilən məhsulların siyahısında isə xurma birinci, elektrik enerjisi ikinci, pomidor (tomat) üçüncü olub.

2023-cü il Azərbaycan Respublikası Kosmik Agentliyi tərəfindən ("Azərkosmos") 19,8 milyon dollar dəyərində telekommunikasiya xidməti də ixrac edilib. Onu da vurğulayaq ki, yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. İl ərzində "Azərkosmos" tərəfindən dünyanın 48 ölkəsinə 19,8 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri göstərilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizinə bərabər olub. Təkcə dekabr ayında "Azərkosmos" dünyanın 45 ölkəsinə 1,8 milyon dollar dəyərində xidmət ixrac edib. Ötən il ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, BƏƏ, Almaniya və Nigeriya olub.

Cari ilin yanvar ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 11,5 milyon dollar dəyərində qeyri-neft ixracı həyata keçirilib. Mərkəzə ötən ay 146 müraciət daxil olub, 291




sertifikat (169 mənşə, 1 baytarlıq, 111 fitosanitar, 10 CİTES) təqdim edilib. Keçən il isə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən qeyri-neft ixracının dəyəri 242,9 milyon dollar olub. Bu dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi yağı, pomidor, dondurma, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar, alma, albalı, qarışıq şirələr, dondurulmuş Xəzər kilkəsi, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, tibbi zəli, tullantı qida yağları, su nasosu, fasad örtükləri, klinker, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib. Həmin məhsullar arasında pambıq mahlıcı, polad boru, süd məhsulları, meyvə şirələri, akvakultur üsulu ilə yetişdirilmiş balıq kürüsünün ixracı daha yüksək olub. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, Ukrayna, Monqolustan, Almaniya, Səudiyyə Ərəbistanı, Əfqanıstan, Suriya, Livan, Türkmənistan, Seneqal, ABŞ, Kanada, Polşa, Qırğızıstan, BƏƏ, Bolqarıstan, Belarus kimi ölkələr var.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Dünya olduğu kimi

## Qədim qara dəlik

**Böyük Britaniyanın Kembric Universitetinin alimləri elmə məlum ən qədim və uzaq qara dəliyi kəşf ediblər. Onun yaşının kainatın yaşına yaxın olduğu bildirilir.**

Mütəxəssislər əlavə analizlər apararaq bu qara dəliyin elmə məlum ən qədim qara dəlik olduğunu təsdiqləyiblər. Yeni obyekt planetimizdən 13,4 milyard işıq ili uzaqlıqda yerləşən "GN-z11" qalaktikasının mərkəzində yerləşir.

"James Webb" kosmik teleskopu vasitəsilə kəşf edilən qara dəlik əvvəlkilərlə bağlı fərziyyələri sual altında qoyur. Belə ki, yeni kəşf Böyük partlayışdan



təqribi olaraq 400 milyon il sonra formalaşıb. Bu isə o deməkdir ki, sözügedən obyektin yaşı 13 milyard ildən bir qədər çoxdur. Həmin vaxtda isə "GN-z11" qalaktikası cavan idi.

Mövcud fərziyyəyə əsasən, qalaktikaların mərkəzlərində yerləşən yüksək kütləli qara dəliklərin sahib olduqları böyük ölçüləri əldə etmələri üçün milyardlarla il zaman lazımdır. Lakin "GN-z11" qalaktikasının mərkəzində yerləşən yüksəkkütləli qara dəlik ona işarə edir ki, bu qara dəliklər ya böyük ölçüdə formalaşa, ya da onlar ətraflarındakı materiyanı 5 dəfə daha sürətlə uda bilərlər. Bildirilir ki, bu qara dəlik də digərləri kimi öz ölçüsünü stimullaşdırmaq üçün qalaktikasının materialını udub. Erkən qalaktikalar qazla zəngin olublar. Bu isə onları ilk qara dəliklər üçün ən yaxşı qida mənbəyinə çevirib.

## Ən böyük mərcan sahəsi

**Atlantik okeanının ABŞ-nin nəzarəti altında olan sahillərində ən böyük mərcan rifi aşkarlanıb. Yeni sualtı xəritəçəkmə texnologiyası sayəsində rifin dəqiq ölçüsü müəyyən edilib. Bu texnologiya həm də okean dibinin 3D təsvirlərini yaratmağa imkan verib.**



Rif Floridadan Cənubi Karolinaya qədər təxminən 500 kilometr uzanır və bəzi yerlərdə eni 110 kilometrə çatır. Onun ümumi sahəsi Yellouston Milli Parkından təxminən üç dəfə böyükdür. Rif günəş işığının nüfuz etmədiyi 200-1000 metr dərinlikdə aşkar edilib. Böyüməsi üçün fotosintez tələb edən tropik qayalıqlardan fərqli olaraq, bu mərcanlar sudan qida hissəciklərini süzərək enerji əldə edirlər.

Suyun dərinliklərində yerləşən mərcan rifləri ekosistemlər üçün vacibdir. Onlar köpək balıqları, dəniz ulduzları, səkkizayaq, krevetlər və digər balıq növlərini yaşayış yeri ilə təmin edirlər.

Qeyd etmək lazımdır ki, mütəxəssislər bu günə qədər okean dibinin yalnız 25 faizinin xəritəsini çəkə biliblər.

## Ay torpağında yetişdirilən noxud

**ABŞ-nin Texas Universitetinin alimləri ilk dəfə olaraq dörddə üçü reqolitdən, yəni Ay tozundan ibarət torpaqda bitki yetişdirə biliblər. Bildiyimiz kimi, Ayda torpaq yoxdur, ancaq onun səthində reqolit, yəni boş toz və qaya parçaları mövcuddur.**



Bu qeyri-adi təcrübədə ilk olaraq noxuddan istifadə edilib. Səbəbi isə noxudun yüksək zülal və mikroelementlərə malik olması və göbələklərlə qarşılıqlı əlaqədə olmasıdır. Tədqiqat əsnasında alimlər müxtəlif bitkilərdən istifadə etsələr də, onlar 1-2 həftədən sonra quruyublar.

"Planetimizdə torpaqda bitkilərin inkişafını dəstəkləyən qida və mikroorqanizmlərlə dolu üzvi material var. Ayda isə onların heç biri yoxdur. Bu isə cazibə qüvvəsinin azalması, radiasiya və toksinlər kimi digər problemləri daha da gücləndirir", - deyə elmi işin müəllifi Cessika Etkin bildirib.

## 2,5 minillik yaşayış məskənləri

**Arxeoloqlar Ekvadorun Amazon meşələrində 2,5 min il əvvəl salınmış, 300 kvadratkilometr ərazidə yerləşən beş böyük və 10 kiçik yaşayış məntəqəsi aşkarlayıblar. Yeni tapıntının əvvəlki kəşflərdən min il daha qədim olduğu müəyyən edilib.**



Ərazidə qazıntı işləri Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin əməkdaşı Stefan Rostenin rəhbərlik etdiyi tədqiqatçılar qrupu tərəfindən aparılıb. Mütəxəssislər bildiriblər ki, insanlar təxminən eramızdan əvvəl V əsrdən eramızın III-VI-cı əsrlərinə qədər Amazon meşələrindəki bu məskənlərdə yaşayıblar. Hər bir qəsəbədə bir çox yaşayış və mərasim binalarının izləri var. Yaşayış məntəqələrini birləşdirən yollar şəbəkəsi isə onların eyni vaxtda mövcud olmasını göstərir.

## Dünyanın ən kiçik heykəlləri

**Heykəltaraş Villard Viganın dünyanın ən kiçik əl işləri sayılan heykəlləri iki dəfə rekord vurub. Onun mürəkkəb sənəti ilə yalnız mikroskop altında tanış olmaq mümkündür. Bu əsərləri iynənin gözünə belə yerləşdirmək olur.**

Sənətkarın ilk rekordu 2013-cü ildə 24 karat ölçüdə qızıl motosiklet olub. Daha sonra o, 2017-ci ildə xalça sapından insan embrionunun heykəlini yaradaraq rekordunu yeniləyib. Bu heykəl 0,05388 mm (53,88 mikron) enində olub və saqqalının içərisinə yerləşdirilib. Onun digər nümu-



nələrinə qum dənəsindən oyulmuş kilsə və kibrit çöpündən kiçik olan Mona Lizanın obrazı daxildir.

Kraliça II Elizabeta inanılmaz qabiliyyətlərinə görə V.Viganı mükafatlandırıb. Minnətdarlıq əlaməti olaraq o, kraliçaya 2 mm-lik mismarın başına qoyulmuş tacın kiçik maketini təqdim edib.

"Mən ürək döyüntülərim arasındakı fasilələrdə işləyirəm", - deyən heykəltaraş izah edir: "Ürəyin necə döyündüyünü hiss edirəm və onun dayanmasını gözləyirəm, daha sonra isə həmin o fasilədə işləyirəm. Bu, sadəcə, nəfəsalma texnikasıdır. Mən bu işlərimə görə həddindən artıq intensiv hərəkətlərə sahib olmağıma imkan verən autizmə borcluyam. Bu vəziyyətim olmasaydı, indiki kimi olmazdım".

## İli 13,7 saatdan ibarət olan planet



**Astronomlardan ibarət beynəlxalq qrup hər 13,7 saatda bir cırtdan qırmızı ulduzun ətrafında fırlanan yeni ekzoplanet kəşf ediblər.**

"Wolf 327 b" adlı ekzoplanet "ifrat qısa dövrlü super Yer" kimi təsnif edilib. Onun ölçüsü planetimizdən təxminən 2,5 dəfə çoxdur. Bu kəşf NASA-nın tranzit ekzoplanetlərin tədqiqi üçün nəzərdə tutulan peyki - "TESS" vasitəsilə edilib. Sözügedən aparat indiyədək 7 minə yaxın potensial ekzoplanet aşkarlayıb. Onlardan 415-nin mövcudluğu artıq elmi cəhətdən təsdiqini tapıb.

Alimlərin ehtimalına görə, "Wolf 327 b" daşlı-qayalı planetdir və daxili tərkibi Merkuriyə daha çox bənzəyir. Yəqin ki, onun nazik mantiya təbəqəsinin əhatəsində irimiqyaslı dəmir nüvə mövcuddur. Bununla yanaşı, bu ekzoplanetdə az miqdarda hidrogen-helium atmosferinin də olduğu güman edilir.

"Wolf 327 b"nin ətrafında fırlandığı cırtdan qırmızı ulduz Günəşdən 93 işıq ili uzaqda yerləşir. Onun yaşının 4,1 milyard il, ölçüsü və çəkisinin isə Günəş meyarlarının cəmi 40 faizinə bərabər olduğu güman edilir.

Alimlər bu sistemdə başqa planetlərin də mövcud olduğunu təxmin edirlər.

## 285 yaşlı limon

**İngiltərənin "Brettells" hərrac evində 285 yaşlı limon satışa çıxarılıb. Hərrac evinin əməkdaşlarının sözlərinə görə, bir ailə onlara 19-cu əsrə aid əşya gətirib. Mütəxəssis onu hərraca çıxarmaq üçün şəklini çəkən zaman qutulardan birinin arxasında limon olduğunu görüb.**

Limonun üzərində 1739-cu il noyabrın 4-də Miss Baxsterə verildiyi yazılıb. Meyvənin də tarixi dəyəri olduğuna qərar verən hərrac evi onu da satışa çıxarıb. Limon hərraca çıxarılan kimi 1780 dollara, onun yanında olan əsas əşya isə cəmi 40 dollara satılıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## Füzulidə şagirdlərə "Web 2" alətləri ilə işləmək və İKT bacarıqları aşılanıb

**Füzulidə "Weblə kəşf edirəm, öyrənirəm, tətbiq edirəm" adlı layihə üzrə təlimlər başa çatıb. Layihə çərçivəsində 4-6-cı sinif şagirdləri bir çox biliklərə yiyələniblər. AZƏRTAC xəbər verir ki, Təhsildə İnkişaf və İnnovasiyalar üzrə VII qrant müsabiqəsinin qalibi olan "Weblə kəşf edirəm, öyrənirəm, tətbiq edirəm" adlı layihənin yekun nəticələri müzakirə edilib.**



59 nömrəli məktəbdə keçirilən tədbirdə Füzuli rayon Təhsil sektorunun, nümayəndələri, təhsil üzrə ekspert, layihə rəhbəri, müəllim və şagirdlər iştirak ediblər. Layihə rəhbəri Aytəkin Bayramova bildirib ki, 4 ay davam edən və iki məktəbdə tədris olunan 15 təlimdə 30 şagird mövzu üzrə biliklərə yiyələnib.

Layihənin əsas məqsədi şagirdlərdə dərs zamanı idrak fəallığını və əməkdaşlıq həvəsini artırmaqdan, kəşf etmək bacarığını formalaşdırmaqdan ibarət olub. Təlimlərdə iştirak edən şagirdlərə "Web 2" alətləri ilə işləmək, İKT bacarığını mütəmadi olaraq təkmilləşdirmək, həmçinin "Etwining" portalında işləmək, "Kahoot" ilə interaktiv və əyləncəli testlər hazırlamaq kimi bacarıqlar aşılanıb.

Ekspert Vəfa Vəliyevanın sözlərinə görə, son bir ildə qrant müsabiqədə qalib olan layihələrdən yeddisi məhz Füzuli rayonu üzrə məktəblərdə tədris edilib. Təlimlərdə iştirak edən şagirdlər bir çox bacarıqlara sahib olublar. Qarşıdakı hədəf isə qalib layihələr üzrə təlimlərin işğaldan azad olunan Füzuli şəhərində yerləşən məktəbdə tədris edilməsidir.

Layihə üzrə təlimlərdə iştirak edən şagirdlərə sertifikatlar təqdim olunub.

## Laçında akvaponika üsulu ilə həm balıq yetişdirilir, həm də bitki becərilir

**Kənd təsərrüfatında və istehsalatda texnologiya böyük sürətlə inkişaf edir, yeni becərmə üsulları yaranır. Hidroponik və akvaponika üsulları da bu baxımdan maraq doğurur.**



Hidroponik becərmədə bitkilərin inkişafında çox miqdarda həll olunmuş qida maddəsi olan sudan istifadə edilir. Akvaponika isə su məhsullarında istifadə edilən ənənəvi balıq yetişdirmə üsulunun xüsusiyyətlərini hidroponik əkinçiliklə birləşdirən bir sistemdir. İşğaldan azad olunan Laçında fəaliyyətə başlayan istehsal sahələrindən biri də elə akvaponika sistemi ilə çalışır. Burada həm balıq yetişdirilir, həm də bitki becərilir.

Akvaponika istehsalat müəssisəsinin nəzarətçisi Səməd Səmədzadə bildirib ki, bu sistemlə balıqlar bitkilərin, bitkilər də balıqların yetişməsinə kömək edir. "Laçın şəhərində yaradılmış, 600 kvadratmetr ərazini əhatə edən akvaponikada sistem belədir ki, balıqların qida qalıqları - xüsusilə ammonyak maddəsi, fosforitlər, həmçinin bitkilərin inkişafında böyük rol oynayan zəngin bakteriyalar suda sirkulyasiya olunaraq bitkilərə qədər gedib çatır. Beləliklə, balıqlar üçün zəhərli sayılan su bitkilərə dərman olur. Burada sazan, karp balıqlarından ibarət 12 hovuzda bitkilərin inkişafı üçün zəngintərkibli su toplanır. Proses bununla bitmir. Xüsusi cihazlarla filtrasiya olunan su yenidən hovuzlara qayıdır. Sistemin ən böyük özəlliklərindən biri də odur ki, heç bir israfa yol verilmir. Sərfiyyat o qədər aşağı olur ki, təmizləndikdən sonra akvariumlara qayıdan miqdarın üzərinə yalnız 10 faiz su əlavə edilir".

Akvaponika Azərbaycanda nisbətən yeni sahədir. Laçında hidroponika, yəni torpağa basdırılmadan, qidalı maddələrlə zəngin məhlulda bitki köklərinin yetişdirilməsi üsuluna da üstünlük verilir. Laçında qurulmuş bu sistem təkcə qənaətliyinə görə deyil, həm də orqanikliyinə görə dünyada ən yaxşı metod sayılır.

Hazırda müəssisədə çalışanların böyük əksəriyyəti laçınlılardır və təsərrüfat genişləndikcə, işçi sayı da ilbəil artacaq.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı

**ƏHMƏDƏLİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Amil Novruzov ailəsi ilə birlikdə Lətifə Əliyevaya həyat yoldaşı, prokurorluğun veteranı

**ƏHMƏDƏLİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3934
Sifariş 284

Qiyməti 60 qəpik